**Cəlil Cavanşir**

# QADIN CORABLARI

nəşriyyatı

**Naşir:** Müşfiq XAN
**Redaktorlar**: Ağa Cəfərli,
Şəhriyar del Gerani
**Mətn tərtibatı:** Pikə Fazilqızı
**Rəssam:** Vasif Səftərov
**Dizayn və qrafika**: Teymur Fərzi

**ISBN 978-9952-464-99-3**

Müəllif hüquqları qorunur. Müəllifin razılığı olmadan kitabın təkrar və hissə-hissə nəşri və əsər əsasında film çəkilişi qəti **qadağandır**.

**Elektron poçt:** jalil.javanschir@yahoo.de, celil.haci@gmail.com
**Müəlliflə əlaqə:** (+99455) 662 44 88
**E-poçt:** celil.haci@gmail.com
**Facebook / twitter:** Celil Cavanşir

**© Cəlil Cavanşir / 2014**
**© "XAN" nəşriyyatı / 2014**



“Qadın corabları” müəllif hegemonluğunun sona qədər davam etdiyi romandır. Müəllif real hadisələri ironik şərhlərlə oxucuya çatdırır.
Cəmiyyətdəki xaos və nizamsızlıq, dəyərlər sisteminin çöküşü müəllifin baxış bucağından təqdim olunur.
Müəllif oxucuya dərs keçmir.
Oxucu bu romandan istədiyi nəticəni çıxarmaqda sərbəstdir.

**Müəllif mətndəki vulqar ifadələrə, erotik səhnələrə və başdanxarab obrazlara görə məsuliyyət daşımır!**

## Proloq

*"Üç halda dostunun haqqını yerinə yetirməyənə dost demək olmaz:*
*Çarəsizlik halında, qeybəti olunan zaman və ölümündən sonra."*

***İmam Əli***

"Həyat böyük bir film şirkəti kimidi. İnsanlar isə bu şirkətlə müəyyən müddətə müqavilə bağlamış çarəsiz aktyorlar... Həyat istədiyi rolu verir insana... Mənsə oynadığım bütün filmlərin ikinci dərəcəli aktyoruyam. Yalnız bir neçə dəfə filmin qəhrəmanı olmağı bacarmışam. Daha çox mənfi obrazı, qapını çırpıb gedən, sərt baxışlı, laqeyid və soyuqqanlı tipi canlandırmışam... Bəzən də bir bar köşəsində siqaret çəkə-çəkə dalğın baxışlarını boşluğa zilləmiş avara tip...

Hər şey çox sürətlə dəyişib həyatımda... Bir vaxtlar dəli kimi sevdiyin, sənin üçün fədakarlıq edənin dəyişməsi, sıradan biri olması, səninlə də sıradan biri kimi davranması çox üzücüdür. Kədərli aktyor olmaq da asan deyil ha... Deyim, biləsiz...

Dramatik rolların mahir ifaçısı olmaq, komik aktyor olmaqdan qat-qat çətindir ya da əksinə... Ümumiyyətlə nə dəxli var? Aktyor olmaq çətindi, vəssalam!

Amma nə etməli, verilən rol budur və oynamaq zorundayam... İnsan dəyişkəndir və bütün böyük sevgilər bir gün tükənir. Tanıdığım bütün qadınlar tərk etməyi ən azı bir dəfə də olsun ağlından keçirib. Fiziki cəhətdən tərk etməyi bacarmayanlar isə bir vaxt sevdiklərini ruhən çoxdan tərk

ediblər... Bir sevdaya tutulanda hara qədər gedəcəyini düşünmür insan, yox, əslində düşünə bilmir. Unudulmaq, adiləşmək istəməsək də bu baş verir. Hay-küylə, həyəcanla, dəli bir sevgiylə həyatımıza girən qadınlar, günün birində də sakitcə, dərin bir iz buraxaraq çəkilib gedir və yadlaşır. Bitməməyini istədiyimiz gözəl bir film kimi bütün sevgilər də bir gün sona çatır.

Əbədi sevginin varlığına inamımı çoxdan itirmişəm... İstədim ki, hər gün sevdalanım, hər gün sevmək istədiyim biri olsun. Bir az çətin, bir az imkansız, bir az da əlçatmaz... İmkansız deyəndə ağlınıza ilk gələn "kasıb" oldu, bilirəm. Amma canımüçün mən "mümkünsüz" demək istəyirdim.

Xəyallarımda olmayan sevgini göyün yeddinci qatına qaldırdım. Xoşbəxt olmaq üçün ağına-bozuna baxmadan, bəzən də kor-koranə mübarizə apardım. Bəzən bir təbəssüm belə məni yolumdan azdırdı. Xoşbəxt olmaq üçün imkansız sevdaların arxasınca düşdüm. Başqasının səadətinə əl uzatdım, sevgisini, ümidini oğurladım. Film dadında bir sevgi əsib keçdi həyatımdan...

Ssenarisini kimin yazdığını bilmədiyim kədərli bir filmdə sınadım özümü.

Əslində fərqinə varmadan həyatın verdiyi rolu oynadım.

Günlərin bir günü başqasının səadətimə göz dikəcəyini, ümidimi oğurlayacağını bütün ruhumla hiss edə-edə xəyanətdən bəhs edən sevgi filmində baş rol ifaçısının tərəf-müqabili oldum...

Və bir gün öz kədərli taleyimlə barışmaq zorunda qaldım. Ümidsiz, çarəsiz, darmadağın bir halda... Verilən rolu oynamaqdan başqa nə edə bilərdim ki?

Başqa bir filmdə atılmış sevgilini də oynamaq varmış qismətdə... Mən həmişə tənhayam, yalqızam. Kədərliyəm hər gün. İçimdə qəribə təlatüm, anlaşılmaz fırtınalar olur. Bəzən kədərli ovqatım üzündən təkliyə məhkum olduğumu da anlayıram. Başqa bir filmdə zarafatcıl, şən və deyib-gülən oğlanı oynayacam. Təkliyin və tərk edənlərin acığına...
Əgər həyat bu rolu mənə etibar etsə..."

Psixiatr Orxan şair Nicat Aslanın son yazısını oxuya-oxuya otaqda var-gəl edirdi. Yazılarının hansındasa Nicatın ölüm səbəblərinə işarə olacağından əmin idi. Başa düşürdü ki, bütün həyatını yazıya bağlayan Nicatın ölümünün səbəblərini yazdıqlarında və yaşadıqlarında axtarmaq lazımdır. Doktor Nicatın ölümünün adi bir intihar hadisəsi olmadığını hiss edirdi. Orxandan fərqli olaraq prokurorluq Nicatın ölümünü intihar hesab etmişdi. Bunun üçün səbəbləri də vardı-Nicatın, yaşam tərzi, içkiyə aludə olması, dəfələrlə onu gülünc vəziyyətə salan uğursuz intihar cəhdləri... Hələ ortalıqda ağacdan asılmış və üzərində heç bir zorakılıq əlaməti olmayan cəsəd də vardı. Üstəlik Nicat intihar cəhdləri haqqında kiçik yazılar yazıb, ədəbiyyat saytlarının birində çap etdirmişdi. Bunlar cinayət işinə də əlavə edilmişdi. Nicatın kirayə qaldığı evdən tapılan məktub, ağacdan asılmış cəsəd bütün şübhələri aydınlığa çıxarırdı. İntihar!

Məktub deyəndə ki... Nicatın intihardan əvvəl yazdığı məktubda qanla cəmi bir neçə söz yazılıb:

*"Ölüm mükəmməl sondur. Mükəmməli seçirəm."*

Bütün bunlara baxmayaraq Nicatın intiharındakı qəribə detalların çoxluğu Orxanda şübhələr yaradırdı. İntihar yeri və vaxtı, damarını kəsib qanla yazdığı məktub Orxanı

şübhələndirirdi. Niyə belə hoqqabazlıqla ölməli idi Nicat? Orxan Nicatın həm dostu, həm də həkimi idi. Nicatı yaxşı tanıyırdı. Onun keçmiş xəstəsi intihara meyilli, həyatdan küskün olsa da, özünü öldürə bilməzdi. Buna cəsarəti çatmazdı. Nicatın ən depressiv, bezgin anlarında Orxan əminliklə öz-özünə pıçıldayırdı: "Sən bu xəstə vücudunda, yorğun beynində o qədər həyat eşqi daşıyırsan ki, heç vaxt özünü öldürə bilməzsən".

... Orxan gənc olsa da pasiyentlərinin sayı çox idi. Son vaxtlar ədəbi-mədəni çevrədə tanınması yaradıcılıqla məşğul olan xəstələrinin sayına xeyli təsir etmişdi. Pasiyentləri arasında yazıçı, şair, rəssam, aktyor, rejissor və hətta oxumaqdan imtina etmiş istedadlı opera müğənnisi və artıq peşəsindən zövq ala bilməyən saksafon ifaçısı da vardı. Orxan həlim səsi, sakitləşdirici baxışları, pasiyentinin daxili dünyasına yol tapan mehribanlığı və yaradıcı adamlardan pul almamasıyla çoxlarını maqnit kimi özünə çəkirdi.

Yeri gəlmişkən şəxsən mən əminəm ki, aldığı beş-on manat qonorarı arağa verib tuluğunu dolduran yaradıcı adamların Orxanın yanına qaçmasının əsas səbəbi pulsuz müayinə idi. Yaşadıqları mühit o qədər iyrəncdir ki, düşünən, yazan, yaradan hər kəs narahatlıq keçirir.

Psixiatr Orxan bu durumla bağlı tez-tez belə deyirdi: "Ölkədəki iyrənc siyasi hakimiyyət, tayfabaz rejim kütləvi psixoza münbit şərait yaradıb". Hər dəfə bu fikri deyəndən sonra öz təsbitinə, peşəsini bir kənara qoyub ağır siyasi şərhlər verməsinə özü də gülürdü.

İntiharların sayı sürətlə artırdı. Hər gün qəzetlərin kriminal səhifəsini intihar xəbərləri bəzəyirdi. Yox, Nicat kütləvi psixozun qurbanlarından sayıla bilməzdi. Axı o özü

var gücü ilə kütləvi psixozla mübarizə aparırdı. Yazırdı, danışırdı. İnsanlara çıxış yolu göstərməyə çalışırdı.

O dolanışıq, pul qazanmaq dərdində deyildi. Pis qazanmırdı. Çox da qazanmırdı. Amma məsələ budur ki, ac qasa da, intihar etməzdi Nicat.

"Görünür Nicatın ölümündə hamının gözündən qaçan xırda detallar var. Bizim cinayət-axtarış sistemi belə detallara diqqət yetirmir. Kefləri belə istəyir. Bizimkilər sadəcə cinayət işini bağlamaqda peşəkarlaşıblar. Nicatın bloq yazılarında və şeirlərində hakimiyyəti söyməsi, təhqir eləməsi hakim dairələrin onun ölümünə sevinməsinə əsas verir. Lazımsız problemin biri də öz-özünə həll olunub. Necə olsa "yaramaz"ın biri də azalıb. Müstəntiq adətən belə hadisələr haqqında uzun-uzadı araşdırma aparmır. Cinayət işini bağlamaq daha sərfəlidir. Təhqiqat aparmaq, ölümün əsl səbəblərini tapmaq vaxt aparan məsələlərdir. Polisin isə daha ciddi işləri var. Ölkədə az qala hər gün üsyan ocaqları yaranır. Polisin işi və vəzifəsi bu üsyanları amansızcasına yatırmaqdır. Bizdə polis mitinqiçiləri döymək, sürümək, ayaqlamaq, onlara rezin güllə, qaz qumbarası atmaq üçün yetişdirilib. Hüququ pulla oxuyan adam cinayəti necə aça bilər?

Universiteti "papa şotuna"(*allah haqqı, yaxşı oğlan üçün bu çox ağır söhbətdi)* bitirən müstəntiq olsa-olsa hansısa dələduzu dolaşdırıb ondan pul qopardar, ya da hansısa müxalifətçi gəncin cibinə bir büküm nəşə atıb üzünə durar. Day belə binəva, biinsaf, bimürvət müstəntiq çətin açılan cinayət işlərinə baş sındıra bilməz ki..."

Doktor Orxan otaqda var-gəl eləyib bütün bu hadisələri çözmək üçün ipucu axtarırdı. O, xəfiyyə deyildi və məhz bu anda detektiv romanın qəhrəmanı kimi görünmək heç

ürəyindən deyildi. Zarafat deyil, ölkənin tanınmış, adlı-sanlı yazarları onun pasiyentidi və sabah onların lağ hədəfinə çevrilmək istəmirdi. Məhz bu baxımdan romanın müəllifi ilə gizli razılığı vardı: "Bax, sənə az-çox hörmətim var. Amma əsla və əsla detektiv bir romanın personajı olmaq istəmirəm. Əgər detektiv bir roman yazacaqsansa, mən bunu əvvəlcədən bilim. Mənasız əziyyət çəkmək istəmirəm. Özümü qətiyyən detektiv psixoloq obrazında görə bilmirəm. Qələminə qurban, məni detektiv qəhrəman eləməkdənsə, Somaliyə ərzaq aparan deputat elə".

Romanın müəllifi isə gülüb, çənəsindəki bir çəngə saqqalı qaşıyıb hırıldamışdı: "Əşşi nigaran olma, ürəksən, ürək! Mən nə Aqata Kristiyəm, nə də detektiv personajlar arasında başını itirən Konan Doyl. Niyyətim ciddi roman yazmaq və səni də onun ciddi personajlarından birinə çevirməkdir. Bir sözlə, ciddi söhbətdir. Sən də ciddi ol, əsərin əsas qəhrəmanı kimi, öz vəzifəni yerinə yetir. Romanın yazılışında iştirak edəcəksən, həm də romanın qəhrəmanı olacaqsan. Vallah, billah tarixi imkandır! Məncə bu şansı qaçırma!"

Orxan hiss elədi ki, dostu keçiləri qaçırıb. "Ciddi" sözündən ciddi-ciddi istifadə etməyindən başa düşdü ki, bu söhbətdə ciddi heç zad ola bilməz.

Dostunu xatırlayanda üzünə təbəssüm yayıldı. Sevindi ki, qəflətən detektiv romanın içərisinə – çözülməyən və ağlabatmaz cinayət hadisələrinin mərkəzinə düşməyib. Uzaqbaşı intiharına inanmadığı əsas qəhrəmanın, bütün gəncliyini içməyə, yazmağa və qadınlara xərcləmiş pasiyenti Nicat Aslanın ölümünün görünməyən tərəflərini açmaqda yazıçıya kömək edəcək. Əlinə fürsət düşmüşkən zırramanın birini kağız üzərində öldürüb-dirildəcək. Bütün öhdəliyi

bundan ibarətdi. Elə romanın müəllifi ilə son görüşdə Nicatın bütün yazılarının toplandığı sənədləri və şairin görüşdüyü qadınların, birlikdə yeyib-içdiyi adamların telefon nömrələrini və ünvanını, tez-tez getdiyi PUB-ların, klubların adları yazılan dəftərçəni götürmüş, yazıçıya bu məsələdə psixoloq kimi kömək edəcəyinə söz vermişdi.

*…Bu yerdə, zəruri bir müdaxilə yerinə düşər. Orxanı necə lazımdı hərifləmişəm. Çünki Orxanın girişdiyi işi, normal ölkələrdə detektivlər və ekspertlər həyata keçirir. Demədi, deməyin. Orxan özünü zibilə salıb…*

Bu ölüm hadisəsində Orxan mütləq ip ucu tapmalı idi. Elə bir ipucu tapmalı idi ki, bu detal Nicatın ölümünün intihar yox, qətl hadisəsi olduğunu sübuta yetirsin. Gənc doktor otaqda var-gəl edir və düşünürdü. Nicatın ölümü onu ağrıdırdı. Dostunun intihar edəcəyinə inanmırdı. Hadisənin əslində necə baş verdiyini mütləq öyrənməliydi. Ən azı dost kimi, bəzi şeyləri bilməli, ictimailəşdirməliydi.

Nicatın yazılarının içərisindən təsadüfən götürdüyü və "kədərdən" adamın belini bükən yazını oxuyandan sonra doktor əsəbi şəkildə vərəqi otağın bir küncünə tulladı: "Adə, sən öl, bunların hamısı başdan xarabdır. Bu sentimental və ağlamalı yazıların içindən ipucu tapmaq olar?"

***

Doktor əvvəlcə özü üçün ölümün cinayət, yoxsa intihar olduğunu aydınlaşdırmalı idi. Müəllif bunun vacib olduğunu bildiyi üçün hələ yazmağa başlamadığı romanın ən məsuliyyətli işini doktorun boynuna atıb aradan çıxmışdı. Orxan bunu xatırlayanda sonsuz nəzakətinə yaraşmayan tərzdə özündən çıxıb əlini masaya çırpdı:

– Ay səni, avaragor oğraş. Lap şeyinə sarımısan camaatı. Guya roman yazırsan da... Bütün işi atmısan üstümə, bütün günü içirsən. Tüpürüm sən yazan romana da, sənə də!

Əsəbi olsa da, özünü birtəhər toparladı. Stolun siyirməsini çəkib sakitləşdirici həblərdən ikisini birdən ağzına atdı və qazsız mineral suyu başına çəkdi. Qəfildən gözü kompüterindəki açıq fotolara sataşdı. Cinayət yerində çəkilmiş fotolar və Nicatın özünü asdığı kəndir yadına düşdü. Corab! Kapron corablardan hazırlanmış kəndir intihar üçün qətiyyən ideal vasitə deyildi. Üstəlik bu "kəndirin" görünüşünə baxsan, intihar vasitəsi ola biləcəyi qətiyyən ağla gəlmirdi. Qeyri-iradi onu gic gülmək tutdu. Gənc yazarlardan birinin "İntihar hörüyü" romanını xatırladı... Ayə, bunların hamısı dəli imiş ki....

Qəfildən gülməyini kəsib, fikrini cəmlədi.

İpucu! Bəli, ipucu! Ucu! Bəli, məhz intihar "kəndiri"nin Nicatın boğazına bağlanmış uc hissəsi qətiyyən inandırıcı deyildi. Orxan kompüterindəki şəkilləri bir daha diqqətlə nəzərdən keçirdi. Cəsədin boğaz nahiyəsinə düyünlənmiş kəndiri dəfələrlə böyüdüb diqqətlə incələdi və qəfildən çığırdı:

– Deyil! Vallah deyil! Billah deyil! Bu, intihar ola bilməz. Bu "kəndir"dən özünü asması mümkün deyil! Belə "kəndir"lə adamı asmaq olar, adam özünü asa bilməz! Amma heç bir xiyarın ağlına bu cür intihar üsulu gələ bilməz. Nicat intiharı bu qədər "fetiş"ləşdirə bilməz!

***

Şübhələndiyi bu detalı romanın müəllifi ilə bölüşmək üçün əlini telefona atdı. Pəncərənin qarşısına keçib yarıtikili göydələnə baxmağa başladı. Bina ofisin qarşısını tamamilə kəsmişdi. Bu şəraitdə otağa günəş şüalarının düşməsi qeyri-mümkün idi. Doktor Orxan ürəyində şəhərin arxitekturasına cavabdeh olan bütün məmurların dünyadan köçənlərini yad etdikdən sonra telefonunda roman müəllifinin nömrəsini axtardı.

Həmişə olduğu kimi gənc və perspektivli romançıya zəng çatmırdı. "Böyük ehtimalla bu xiyar içib və telefonu söndürüb yatıb. Bu ağılla, bu məsuliyyətsizliklə romanı necə yazır görəsən?"

# 1

**"Polis olmaq üçün,**
**öncə vicdanınızdan xilas olun!"**

**(Unudulmuş dahi)**

Cinayət-axtarış şöbəsinin əməkdaşları yavaş-yavaş, iki bir, üç bir qapıda görünür, salamlaşıb səhər yoxlamasına hazırlaşırdılar. Növbətçi zabit yuxusuzluqdan gözləri şişmiş halda key-key dayanıb, gəlib gedənləri müşahidə edirdi. Gecə heç bir hadisə baş vermədiyi üçün çox rahat idi. Yorğunluq və yuxusuzluq vecinə deyildi. İllər ərzində bütün bu çətinliklərə alışmışdı və həyatını bunlardan kənarda təsəvvür etmirdi. Onun üçün ən gözəl istirahət növbətçi otağındakı divanda uzanıb mürgüləməkdi. Gecə saat ikidə termosdan süzüb içdiyi çayın ləzzətini, evdə arvadının dəmlədiyi Lənkəran çayından ala bilmirdi. Artıq bununla barışmışdı. Onun da həyatı bu cür sadə həqiqətlərdən ibarət idi. Get işə, gəl evə, növbə, əməliyyat və bu kimi digər vacib, yaxud vacib olmayan işlər. Heç vaxt istirahət eləmək barədə düşünməmişdi. Ona elə gəlirdi ki, istirahət ancaq ciddi biznesmenlər və daha imkanlı məmurlar üçündü. Onun ən ciddi istirahəti ailəsini bir neçə saatlıq bulvara çıxarıb gəzdirmək, ortabab kafelərdə dostlarla araq vurmaq və dəvət olunduğu toylarda yeyib-içib əylənməkdən ibarətdi, başqa heç nə!

Arvadı isə onun tam əksi idi. İstirahətindən qalmırdı. Hər yay uşaqları rayona, anasının yanına göndərir, Dubaydan vurub Türkiyədən çıxırdı. Hansısa bir gijdıllağ və idealist polis işçisinə görə cavan həyatını çürüdəsi deyildi ki? Onun ehtiraslı bədəni Antalya günəşində yanmaq, zərif çi-

yinləri Dubay otellərinin lyüks nömrələrində ağ mələfənin üzərinə toxunmaq üçün yaradılmışdı. Hər tətil onun üçün yeni bədənlərin kəşfyidi. İnsan kolleksiyası çox zəngin idi. Ərinin mitinqlərdə döydüyü "müxalifətçi gədə"lərin sayı qədər kişiylə kef çəkmişdi. Yeri gəlmişkən, müxalifətçilərlə də yatmışdı. Sadəcə bu söhbəti açıb-ağartmağın yeri yoxdu.

Yazıq Polis! Hərdən gözlərini yumub görmədiyi yerləri xəyalında canlandırırdı. Xəyallarında Maldiv adalarında, Antalyada və hətta Arizonada olmuşdu. Sonuncu dəfə isə gözlərini yumub doyunca Tiflisdə gəzmişdi. Yazıq öz doğma adını da unutmuşdu. Küçədən keçən də, metroda qarşısına çıxan da, qonşular da onu sadəcə "Polis" deyə çağırırdı. Polis! Bu dəqiqə ölkədə bundan oğraş iş təsəvvür etmək çətin olsa da qəhrəmanımı bu adla çağıracam: Polisov Polis Polis oğlu. Bu, qəhrəmanımızın bütün xarakterinə işıq tutacaq qədər uğurlu tapıntıdı.

*...Necə? Çox təvazökaram? Güldürməyin, siz allah. Sadəlik, gözəllikdir. Necə? Əlbəttə sadəyəm! Siz hələ mənim filosof həmkarlarımı tanımırsız!*

...Bölmənin əməkdaşları onunla salamlaşıb, içəri keçdikcə növbəsinin xəta-bəlasız sovuşmağına ürəkdən sevinirdi. Rəisin maşını uzaqdan görünəndə isə canına xoş bir rahatlıq yayıldı. Ürəyində rəisin qohum-əqrəbasını yeddimərtəbə söyüşlərlə yad edib, ayağa qalxıb yalmanmağa tələsdi. Rəis maşından düşər-düşməz qarşısına yüyürüb məruzə elədi, növbədə olduğu vaxt heç bir hadisə baş vermədiyini bildirdi. Rəis "azad" komandasını verdikdən sonra idarənin qarşısında cərgə ilə düzülmüş polis əməkdaşlarına tərəf yönəldi.

Növbəni təhvil verməyə hazırlaşdığı an onun həyatında ən xoşbəxt anlardan biri hesab olunurdu. Dünyada ən böyük xoşbəxtlik, hadisə baş vermədən növbəni təhvil verib evə yollanmaqdı.

Bu gün içində qəribə narahatlıq vardı. Polis it kimi iy bilirdi, cinayətin iyini.

Əvvəllər evə çatan kimi yatağa girsə də, son vaxtlar növbədən sonra yata bilmirdi. Evə çatan kimi qayğılar, problemlər üstünə hücum çəkirdi.

– Yenə yatırsan, ay oğraş? Son vaxtlar heç üzümə də baxmırsan. Yoxsa gecə bazlığa getmişdin, hə? Niyə ölmürsən ay impotent!- Bu, arvadının yataq otağındakı yarım saatlıq seksual istəklər haqqında məntiqsiz mühazirəsindən bir parçadı. Polis yatağından qalxıb qonaq otağına keçən kimi məişət qayğıları da üstünə axışırdı: "İşıq pulunu ödə", "evə bazarlıq elə", "zibilləri at". Bir sürü bitib-tükənməyən qayğılar... Yazıq Polisin günü gün deyildi! Üstəlik arvadının bunun bacısı haqqında uydurduğu ağlasığmaz söz-söhbət, dedi-qodu. Bezmişdi Polis...

Bu gün görəcəyi işləri artıq iki-üç gün əvvəldən planlaşdırmışdı. Evə çatan kimi yeməyini yeyib bazara gedəcəkdi. Bazardan gəlib oğluna kreditlə kompüter almaq üçün mağazaya yollanacaq, sonra banka olan başqa bir krediti ödəyəcək, evə qayıdıb dincələcəkdi. Beynində görəcəyi işləri düşünə-düşünə "Növbətçi hissə" yazılmış otağa doğru addımladı. 10-15 dəqiqə sonra növbəni təhvil verməliydi. Yaxşı ki, bu gün mitinq, piket yoxdu. Növbədən sonra mitinqə çıxıb "Azadlıq", "İstefa", "Azad seçki" qışqıran başıpozuq dəstəni döymək, dağıtmaq ona son vaxtlar heç ləzzət eləmirdi. Əslində onun çalışdığı şöbə mitinqlə, piketlə məşğul olmurdu. Amma müxalifətin mütəşəkkil dəstələri ilə bacar-

maq üçün, bütün şöbələr səfərbər olunduğundan, o da “adam döyməyə” çıxırdı. Əvvəllər rezin dəyənəyi əlinə alan kimi şirə dönürdü. Qarşısına keçəni ağına-bozuna, qadınına-kişisinə baxmadan budayırdı. Amma son zamanlar yaman kövrək olmuşdu. Həm də camaat da əvvəlki lal-dinməz döyülən camaat deyildi. Hansısa qadına yüngülvari bir zərbə vuran kimi, eşitdiyi kəlimələr içini acıdırdı: “Niyə vurursan, ay bacısından bixəbər oğraş!” Bu “bacı söhbəti” onun yaralı yeriydi...

Yox, yox, bircə mitinq olmasın!

Kresloda yerini təzəcə rahatlamışdı ki, telefonun səsi onu əməlli-başlı diksindirdi. Əsəbdən əlləri əsdi:

– Tfuu. Cəmi 10 dəqiqə dözə bilməzdin?

Əvvəlcə istədi telefonu xətdən ayırsın, amma rəisin dönüb növbətçi hissəyə sual dolu gözlərlə baxdığını görüb cəld telefonu götürdü:

– Cinayət şöbəsi bölməsi, buyurun.

– Rəis, salam. Burda İzmir prospektindən bir gijdıllağ, eee üzr istəyirəm vətəndaş özünü asıb. 7a-nın yanındakı ağaclıqda ağacdan sallanıb.

– Nə loxəbər adamlar var. Mundar köpəyuşağı! Hadisə yerinə özünüzü soxmayın. Sizlik heç nə yoxdu orda. Oraları tapdaq-tapdaq eləməyin, sonra kriminalistlər üçün izi tapmaq çətinləşəcək. Bir azdan ordayıq.

– Oldu rəis! Rəiss...

– Nədi?

– Tərpənmir eee...

– Rədd ol, it oğlu it!

Dözməyib ürəyində də zəng edən vələdüzinanın ölübədirisinə çoxmərtəbəli, liftsiz söyüşlər yağdırdı: “Sənin...”

– Telefonu yerə qoyub rəisə məruzə etməyə qaçdı.
– Cənab rəis, İzmir prospekti, bina 7a-nın yanındakı ağaclıqda intihar etmiş kişi meyidi aşkarlanıb.

Ay sənin xəbərini, məruzəni, məlumatını... ! Sabah-sabah lazım idi mənə? Nə bədxəbər adamsan ədə... Yaxşı, sürüş burdan. Məlumat ver, hazırlaşsınlar. Dərhal əməliyyat qrupu yola çıxsın!

– Oldu!

– Sikdir!

– Baş üstə!

Geri dönüb "Növbətçi hissə"yə girdi. Qanı bərk qaralmışdı. Bıçaq vursan qanı çıxmazdı. Bütün planları alt-üst olduğu üçün əsəbi şəkildə bir siqaret yandırdı. Ağzı zəhər tamı verirdi... "Dındığ gedə, özünü asmağa vaxt tapdı. Sikim sənin gijdıllağ ağzını". Sonra beynindən keçirdiyi söyüşlərə görə özünü qınadı. Üşəndi. "Heç ölünü də söyərlər?"

# 2

**“İnsanların çoxu həyatının sonunda geriyə dönüb baxdıqları zaman fasilələrlə yaşadıqlarını görürlər. Təqdir etmədən və zövq almadan keçib gedən şeyin əslində həyatları olduğunu gördüklərində təəccüblənirlər. Beləcə, ümidlərlə aldadılan insan ölümün qucağına qaçar.”**

**A.Şopenhauer**

Cinayət-axtarış bölməsinin əməkdaşları və prokurorluğun təhqiqat qrupu cinayət baş verən əraziyə çatanda artıq ağacın ətrafında xeyli adam yığışmışdı. Küknarın yarpaqları arasından sızan günəş şüaları cəsədin göyərmiş üzünün, şişib çənəsinə qədər sallanmış dilinin aydın görünməyinə mane olsa da ətrafda toplaşanlar bu qəribə adamı tanımışdı. Cəsədi ilk dəfə görən yaxınlıqdakı ticarət mərkəzinin keşikçisi idi. Deyəsən o zəng edib məlumat vermişdi. Müstəntiq keşikçini yanına çağırdı:

– Cəsədi  nə vaxt görmüsən?

– Səhər saat 7-də. Növbəni təhvil verməmişdən qabaq marketə siqaret almağa getmişdim. Geri qayıdanda yolumu uzatmaq üçün binanın bu tərəfindən fırlandım. Dayanıb siqaret yandıranda bunu gördüm. - keşikçi başı ilə cəsədi göstərdi. Dərhal posta qayıdıb sizə zəng elədim.

– Hmm...Gecə şübhəli bir şey görməmisən ki bu tərəflərdə?

– Yox görməmişəm. Mənim postumdan bura görünmür.

– Aydındır. Bu camaat kimdir?

– Məhlə camaatıdı. İşə gedənlərdi çoxusu. Əraziyə yaxınlaşmasalar da dayanıb baxırlar. Bilirsən də, rəis, camaat belə şeylərə baxmağı xoşlayır. Keçən dəfə yolun o tayında nazir

müavini Abid müəllimin villası yananda da yığışıb "bolet" edirdilər, şəklin-zadın çəkirdilər. Hələ o tüstü-dumanın içində yanğının qabağında dayanıb şəkil çəkdirənlər də oldu.

– Ə nə vəhşi millətik eee. Hansısa gijdıllağ özünü asır, bir dəstə başdan xarab da yığışıb tamaşaya baxır. Dağılışın görüm. – Rəis qışqırdı.

– Rəis, mən də gedə bilərəm? –keşikçi dilləndi.

– Yox. Sən ifadə verəndən sonra gedərsən. Bir də bunun harada yaşadığını bilən var?

– Var. Yaşlı bir qadın qabağa çıxdı. Birinci blok, II mərtəbə, mənzil 6. Bax, o corab asılan pəncərə. Nailənin kirayəçisidir. Bir-iki dəfə blokda görmüşəm.

Müstəntiq ətrafda dolaşan polis nəfərlərinə göstəriş verdi:

– Hə...Qonşulardan kim varsa aparın ifadəsini alın. Evin yiyəsini çağırın, evə baxış keçirin.

Ekspertizanın nümayəndələri cəsədi ağacdan düşürüb, cəsəd torbasının içərisinə qoydular. Cəsəddən spirt iyi gəlirdi. Prosedura uyğun olaraq hadisə yerinə baxış keçirildi, şahid və qonşular ifadə vermək üçün polis idarəsinə aparıldı.

Polislər gəldikləri kimi də səs-küylə dağılışmağa başladılar. Cəsədi polis maşınına "yüklədilər". Müxtəlif xəbər agentliklərinin əməkdaşları canfəşanlıqla fotolar çəkir, polis və ekspertiza əməkdaşlarından hadisə ilə bağlı açıqlama alırdı.

Polislər dağılışandan yarım saat sonra məhəllədə həyat axarına düşdü. Sanki bu məhəllədə intihar hadisəsi olmamışdı.



Polis tezliklə intihar edən şəxsin kimliyini açıqladı: "İntihar edən şəxs dövri mətbuatda Nicat Aslan imzası ilə tanınan gənc yazar, 1983-cü il təvəllüdlü Hacıbəyli Nicat Aslan oğludur. İllər öncə böyük ümidlərlə əyalətdən paytaxta köçən gənc yazar naməlum səbəblərdən intihar edib. Fakta bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar, o cümlədən məhkəmə-tibbi və kompleks məhkəmə-tibbi-bioloji və tibbi-kriminalistik ekspertizaları təyin edilib."

Mərhumun dostlarından yalnız gənc psixatr Orxan özünü hadisə yerinə yetirmişdi. Səhər erkəndən Nicatla görüşüb, Maştağaya getməliydilər. Nicat yazdığı hekayələrdən birində dəli obrazı yaratmağa çalışırdı və Maştağadakı ruhi-əsəb dispanserinə birlikdə baş çəkəcəkdilər. Nicat telefona cavab vermədiyinə görə Orxan onu evdən götürmək üçün maşını birbaşa evin qarşısına sürmüş və bu sarsaq mənzərə ilə rastlaşmışdı.

Polislər gələnə qədər cəsədə yaxınlaşmasa da, ağacda yellənən dostunun fotolarını çəkməyi bacarmışdı. Əslində ağacdan asılan cəsədi çoxları telefonla çəkdiyi üçün Orxanın foto çəkməyi heç kəsin diqqətini cəlb etmədi.

İndi siz haqlı yerə sual verə bilərsiniz ki, Orxan dostunu ağacdan açıb yerə düşürə bilməzdi? Mən də deyirəm ki, yox. Sözün açığı istəsəm Orxan Nicatı ağacdan düşürüb cəsədi qucaqlayar, hələ bir xeyli hönkür-hönkür ağlayar da. Amma ehtiyac yoxdur. Bu basa-basda göz yaşı ilə fikrinizi yayındıra bilmərəm. Söhbətlər var ee, bu ölsün!

*Müəllif bu yerdə əl saxlayıb sağ əli ilə sağ üzünə yüngülcə şillə çəkir.*

O bərk sarsılsa da, polislər gəldikdən sonra hadisə yerində dayanmağın mənasız olduğunu başa düşüb mərhumun dostlarına və yaxınlarına xəbər verməyə tələsmişdi.

Orxan müəllifin intiharı təsvir etdiyi səhnəni olduqca bəyəndi. Əlindəki qara karandaşın pozanlı ucunu ağzına salıb, otaqda gəzişməyə başladı. Deyəsən söhbət pis getmirdi. Mövzuya bu cür giriş detektiv romanların əvvəlini xatırladırdı. Dostunun romanla bağlı söhbətlərini, yazı prosesində keçirdiyi stressi yadına salıb, gülümsədi. Orxan romanın qarmaqarışıq və anlaşılmaz süjet xəttini düşünə-düşünə fikrə getdi. Otağın ortasında lom kimi dayanıb, pəncərədən çöldəki naməlum nöqtəyə baxa-baxa hiss elədi ki, karandaşın başındakı balaca pozanı dişləyib, iştahla çeynəyir. Yazıçı dostunu "xoş sözlərlə" yad edib, onun növbəti hoqqaları haqqında düşünməyə başladı. Dostunun yaratdığı obrazı özünə bənzədəcəyini əvvəlcədən hiss edirdi...

# 3

**“Həyat mahnıdır. Nəqarəti – ölüm”**

**Viktor Hüqo**

Nicatı doğulduğu kənddə dəfn edəcəkdilər. Böyük Qafqazın cənub yamaclarında yerləşən bu kənddə Nicatı o qədər də yaxşı tanımırdılar. Hərdən qəzetlərdə çıxan yazılarını isə məktəb direktorundan və kəndin icra nümayəndəsindən başqa heç kəs oxumurdu. İnternet hələ bu kəndə ayaq açmamışdı.

Ona görə də intiharla bağlı hərənin bir hekayə uydurması normal sayıla bilərdi.
Nicatın valideyinlərini yaxından tanıyanlar həyətdə qurulmuş yas çadırına toplaşmışdı. Gələnlərin əksəriyyəti qohum-qonşuydu. Bakıdan cəmi 7-8 adam gəlmişdi. Nicatın yaxın dostları çadırın qabağında toplaşıb sakit-sakit siqaret tüstülədirdi. Danışmaq çətin idi. 30 yaşı yenicə tamam olmuş gənc dostlarının intihar etməsi hamısını yandırırdı.

*...Burada dostların aldığı mənəvi yanıq dərəcəsinin ağırlığını təyin etmək çətin olsa da, ehtimal etmək olar ki, ağır dərəcəli mənəvi yanıq xəsarəti deyil...*

İsti, günəşli bir gün idi. Könül istərdi ki, dəniz kənarına yollansın, dalğalarla danışsın, qumsallığın üstündə süfrə açıb qırmızı şərabını, pendir-çörəyini çıxarıb süfrəyə düzsün, sonra deyə-gülə yeyib-içsin, gözlərini səmaya diksin, kədərli düşüncələri buludlarla çəkilib getsin. Yas saxlanılacaq, dost dəfn edəcək gün deyildi.

Yasa gələnlər mağarın qarşısında görüşüb salamlaşır, bir-birini tanımayanlar əl tutub tanış olurdular. Qəribə kənd idi. O qədər böyük idi ki, şəhərdəki kimi hələ də bir-birini tanımayan adamlar vardı.  Hamı üzüntülü idi. Təsəllilər quru və standart, danışılan xatirələr cansızdı.

Hamı  səbəb axtarışında olsa da, Nicatı tanıyanlar çarəsizlik və narahatlıqla susurdu.  Nicatın dostu, qalın eynəyindən həyatını oxumağa, yazmağa və digər buna bənzər darıxdırıcı işlərə həsr etdiyi anlaşılan filosof Ramal, Nicatın atası Aslan kişini kənara çəkdi:

– Aslan müəllim, siz molla çağırmısınız, amma Nicat ateist idi.

Aslan müəllimin qıpqırmızı qızarmış gözlərində sanki şimşək çaxdı:

– Elədiyi hərəkətdən məlumdur necə allahsız və kafir olma-ğı. Neçə dəfə dedim allaha, dinə asilik eləmə, qulaq asmadı. Ancaq allahdan, dindən üz çevirən, valideyinlərini, övladını sevməyən insan bu addımı ata bilər...

Aslan müəllim sözünü bitirib doluxsundu.

– Bilirsən oğlum, bizim kəndin öz adətləri, öz qaydaları var. İndiyə qədər bizim kəndimizdə yalnız bir nəfər mollasız, Quransız basdırılıb. Onu da öz doğma oğlanları oğraşlığına görə öldürüb tualet quyusuna atmışdı. İydən meyidə yaxın düşmək mümkün deyildi. Yanğınsöndürən maşın çağırdılar meyidi yumağa. Hər halda Nicat bu qədər biabırçı vəziyyət-də deyil.

Məni camaatın dilinə salmayın. Bu boyda kəndin dilinə düşmək istəmirəm. Axı mənim oğlumun cəsədi murdar deyil ki, mollasız dəfn olunsun!

–Aslan müəllim, yəqin ki, onun özü də molla istəməzdi-, Ramal fikirli-fikirli dilləndi– həm də, İslam dininə görə intihar etmiş şəxs üçün cənazə namazı qılınmır, Quran oxunmur. Özünüzü boş yerə yormayın. İmkan verək, Nicatın narahat ruhu bir balaca rahatlıq tapsın...

– Bax Ramal, mən onun ruhunun rahatlıq tapması üçün hər şeyə hazıram. Amma bunu bacarmaram. Mən çağırmamış dayıları, qardaşları artıq mollanı gətiriblər. Cənazə namazı da qılıncaq, müsəlman kimi dəfn olunacaq. Yox, əgər molla olmaz desə, siz deyən olsun. Uşaqlara da de, artıq hərəkət olmasın. Bura etiraz, narazılıq yeri deyil. El-oba, camaat necə, siz də elə. Özünüzü camaatdan ayırmayın, yaxşı görünməz kənardan.

*...Düşünəndə ki, qəbul etmədiyim dinin qaydaları ilə dəfn olunacam, əsəbiləşirəm. Mənə lazımdı molla? Qardaşlarımı bilmirəm, amma dayılarım yüz faiz belə hərəkət edə bilər. Kişilər qocaldıqca xərifləyirlər. Elə bil ali məktəbdə elmi ateizmdən "əla" qiymət alan bunlar olmayıb. Nə isə, yersiz müdaxilə etməyim. Qayıdırıq dəfn mərasiminə...*

Ramal başını bulayıb çadırın arxasına keçdi. Siqaret yandırıb acı tüstünü acgözlüklə ciyərlərinə çəkdi. Rəngi qapqara qaraldı. Ayaq üstə durmaq üçün taqəti qalmamışdı. Aşağı çöküb hönkürdü. Onun çadırın arxasına keçdiyini görən dostlar da onun başına yığışdı. Ramalın ağladığını görüb bayaqdan siqareti-siqaretə calayan bəzi dostlar uşaq kimi hönkürməyə başladı.

Nicatın özündən yaşca böyük, saçları azacıq seyrəlmiş, eynəyi burnunun üstünə düşmüş, iztirabdan siması qapqara qaralmış dostu İlham ağlamırdı. O ümumiyyətlə ağlamağı sevmirdi. Daha doğrusu bacarmırdı.  Hətta anası dünyadan köçəndə belə onun gözündə yaş görən olmamışdı. Dostları öz aralarında bu sərt adamı qınasalar da, onun ağladığını, optimizmini itirdiyini kimsə görməmişdi. Hər zaman olduğu kimi baxışlarını uzaq bir nöqtəyə zilləyib, müdrikcəsinə susurdu...

***

Dostlar ağlayıb sakitləşmişdilər, kənarda söhbətləşirdilər. Doktor Orxan, Nicatın cəsədinin fotolarını dostlara göstərir, asta səslə onun ölüm səbəblərini müzakirə edirdilər. Mərhumun dostu Şahin olduqca üzgün görünürdü. Qəfil eşitdiyi bu xəbər sanki onun belini bükmüşdü. Onun ədəbiyyata, yazı-pozu adamlarına dəxli olmasa da, sağlığında Nicatın ən yaxın dostu idi. Nicat heç kəslə bölüşmədiyi sirrini, problemini onunla bölüşürdü. Nicatın müalicəsi üçün əlindən gələni etmişdi. Bu cür ölümü Nicata yaraşdırmırdı. İlhamla söhbətləşir, siqareti-siqaretə calayırdı. Dostunun ölümünü asanlıqla qəbul edə bilmirdi. Bir səbəb, hamının bildiyi bir səbəb olmalıydı. Bütün bəhanələr səhv idi, çünki Nicatın intiharı da ən böyük səhv idi. O özünü öldürməməli, kiçik qızını yetim, atasını, dostlarını, qardaşlarını boynubükük qoymamalıydı. İnsan yaxın ətrafından bezəndə mühitini dəyişər, sevgidən yorulanda ayrılar. İntihar isə xəlvətcə aradan çıxmaqdır. Dostları, qohumları, övladı günahkarlıq duyğusu ilə baş-başa buraxmaqdı.

...Düzünü deyim ki, mən də belə fikirləşirəm. İndiki ağlım olsa intihara cəhd etmərəm. Təsəvvür edin ki, yaxın-uzaq dostların hamısı yığışıb çadıra, siqaret çəkib ağlaşır. Qardaşlar bir tərəfdə, dayılar bir tərəfdə, ata bir tərəfdə pəjmürdə və dərdli dayanıb. Qonşu arvadlar anaya dəstək məqsədi ilə cikkə çəkib, ağı deyir. Əməlli-başlı kədərli səhnədir. Adam öz əcəliylə öləndə daha urvatlı olur, vallah. Ona görə də intihar  söhbətini ortaya atmaq lazım deyildi. Qəhrəmanın başına başqa oyun açmaq da olardı. Məsələn, maşın qəzası. Nə isə, özüm də xeyli təsirləndim bu ölüm səhnəsindən...

Nicatın dəfni səs-küysüz, təmtəraqsız keçdi. Molla intihar edən şəxs üçün cənazə namazı qılmaqdan imtina etdi. Cənazənin üstündə Quran da oxunmadı. Molla səbəbləri Aslan müəllimə izah edib, üzrxahlığını bildirdi. Necə də olsa, kəndin ən sayılıb-seçilən kişilərindən idi Nicatın atası. Ona dinin bu barədə hökümlərini bir-bir, səbirlə izah etdi.

Cəsədi qəbirə qardaşları düşürdü. Molla isə kənarda Nicatın günahkar ruhu üçün dua edirdi. Təkcə Nicatın dostları mərasimin bu cür keçirilməsindən razı idi. Əvvəlcə filosof Ramal, sonra İlham danışdı. Digər dostlar da bir-iki kəlmə ilə Nicatı xatırladı və sonda doktor Orxan əsəbi çıxış elədi. Hakimiyyəti, hakimiyyətin ölkədə yaratdığı qorxu mühitini top atəşinə tutdu. Onun sərt çıxışından sonra camaat dağılışmağa başlamışdı...

Filosof Ramal da Nicatın intiharını qəbul edə bilmirdi. Ürəyində sosializmə könül vermiş, qıpqırmızı bir ölkə qurmaq arzusu ilə alışıb yanan Nicat Aslanı qınayırdı. Əgər yaşamın dəstəkləyə bildiyi böyük bir mücadilə varsa, bu

burjualara xas kiçik axmaqlıqlar üzündən heçə sayıla bilməzdi.

Şübhəsiz ki, Nicat doğru hesab etdiyi şeyin arxasınca gedən, fikrini sərt və açıq deməkdən çəkinməyən biri idi. Amma, yenə də bu cür xəlvət aradan çıxmaq olmazdı.

*...Bizim tərəflərdə buna "aradan cırmaq" da deyirlər...*

***

... Dəfn mərasimindən sonra Nicatın dostları geriyə - Bakıya  qayıtdılar. Adətən belə günlərdə rahatlanmaq, sakitləşmək üçün içərdilər. Bu dəfə nədənsə spirtli içkiyə qəti həvəs yox idi. Ya da ayın ortası olduğuna görə kasıbçılıqdı. Yolda bir neçə yerdə dayanıb çay içsələr də, heç kəs pivə və yaxud araq vurmaq istəmədi. Vallah, dəqiq pulsuzluq imiş. Hər dəfə oturanda Nicatın intihar səbəbi müzakirə olunurdu. Dostları onun qəfil intiharını hələ də qəbul edə bilmirdilər.

Suallar, suallar, suallar...

# 4

**“Kim unudub məni yol ayrıcında-**
**gəlsin qucaqlasın,**
**gəlsin aparsın…”**

**Zərdüşt Şəfi**

İntihardan dərhal sonra onun haqqında internet saytlarında və qəzetlərdə dostlarının kədərli nekroloqları görünməyə başladı. Təxminən bir ay çəkən bu prosesdən sonra artıq hər kəs öz işində idi. İntihar hadisəsindən dörd ay keçmişdi. Gənc qələm adamları əvvəlki kimi toplaşır, içki məclisləri qururdular. Yenə də Bakının küçələrində tıxacdı. Beynəlxalq təşkilatların ölkə ilə bağlı veridiyi hesabatlarda heç nə dəyişməmişdi.

Bir sözlə günəş əvvəlki kimi şərqdən doğur, qərbdə batırdı. Hərdən dostları Nicatı içki masası ətrafında xatırlayır və kövrəlirdilər. Nicatın dəfnindən sonra təkcə Şahin onun qəbrini ziyarətə getmişdi. Yazı-pozu adamında o uzunluqda yolu getməyə pul hardadı? Heç kəsə xəbər etmədən maşını düz qəbiristanlığa sürmüş, Bakıdan alıb gətirdiyi bir qucaq qərənfili onun tənha məzarının üstünə düzmüş, daşın üstündə oturub Nicatla keçirdiyi maraqlı günləri, içkili-şeirli-qadınlı məclisləri xatırlamışdı.

Sonra maşının yük yerindən şərab şüşüəsini çıxarıb açmış, iki siqaret yandırmışdı. Siqaretin birini Nicatın qəbrinin baş tərəfinə qoymuşdu, birini özü sümürmüşdü. İki plastik stəkana şərab süzüb, birini sinə daşının üstünə qoyub, öz stəkanını başına çəkmişdi. Ağlamışdı...

*Şahin doğurdan da bunu edə bilər. Keçən dəfə deyirəm:*
*- Qardaş, mən ölsəm neyniyərsən?*
*Deyir qardaş, vallah sən romanda yazdığın kimi, bir şüşə çaxırdan, viskidən alıb gələrəm qəbrinin üstünə, siqaretdən çəkib, içkidən içib ağlayaram...*

Bəli, məhz qəribə olduğu üçün, ətrafındakı standart adamlardan fərqləndiyi üçün dostluqları alınırdı.

Şahin Nicatla bağlı ağrılı xatirələri çözələyir, intihar hadisəsindən sonra baş verənləri beynində saf-çürük edirdi. Nicat haqqında yazılan bütün yazıları toplayıb, öz hesabına kitab çıxarmağı düşünürdü. Bu fikrini bir neçə nəfərə bildirmişdi. Nicatın dostları dəstək verəcəklərini desələr də, ortalıqda real iş yox idi. Hə... Deyəsən yazıçı dostlarından biri onun haqqında roman yazmağa hazırlaşırdı. – Nə idi onun adı? – Şahin xatırlamağa çalışdı – Hə Nicat, Elxan Daşdəmir. Şahin qeyri-iradi tərzdə qəbirlə söhbətləşməyə başladı...Şahin inancında sabitqədəm olsa da, dostuyla vidalaşmağın, söhbətləşməyin yolunu tapmışdı.

Mövhumatın qatı dumanı arasında görünməz olan bu dağ kəndində, qəbrin başında oturub siqaret çəkə-çəkə, qırmızı şərab içə-içə xəyala daldı...

***

... Nicatın dəfnindən dönəndə, yolda siqareti siqarətə calayan Elxan Daşdəmir intiharla bağlı müxtəlif versiyalar irəli sürürdü. Onun fikrincə Nicat intihar etməmişdi. Onu öldürmüşdülər. Elxanın fikrincə Nicatı öz yaxın ətrafından kimsə öldürə bilərdi. Bununla bağlı gülməli və qəribə versi-

yalar irəli sürürdü. Orxanın maşınında yerini rahatlayıb dilboğaza qoymurdu:
– Kitabının müzakirəsi çox gərgin keçmişdi. İki cəbhə yaranmışdı. Həm peşəkar tənqidçilər, həm də bloqqerlər roman haqqında yazırdı. Ciddi müzakirələr getdi. Yaxın dostları isə nəinki onu tək qoymuşdu, hətta orda-burda arxasınca danışırdı. Bütün bunlar onun əsəblərini korlamışdı. Üstəlik şeirdən romana keçməsini çoxlarının gözü götürmürdü. Hətta biri yazmışdı ki, qələm adamı ya şeir yazar, ya da roman. Hər ikisini yazmaq qeyri-peşəkarlıqdır.

Orxan özündən çıxdı:
– Nə gicləyirsən? Deyirsən tənqidçilər və ya bloqqerlər öldürüb Orxanı? Bəlkə jurnalistlər?
– Yaxşı, qışqırma. Elə demədim. Bu sadəcə bir versiyadır. Axı Nicat həssas adam idi. Bütün bunlara dözməyib intihar edibsə...
– Hə, bütün bunlara dözməyib intihar edibsə günahkar ədəbi mühitdəki dostlardır, eləmi? – Orxan gənc yazarın fikirlərini tamamladı.
– Dedim axı, bu sadəcə bir versiyadır.
– Başqa nə düşünürsən? Yaxşısı budur bütün bunları mətbuata çıxarmadan, mənimlə fikirlərini bölüş. Hər halda mən Nicatın həkimi olmuşam və onun ölümü barədə versiyalarını analiz edə bilərəm.
– Qadın məsələsi ola bilərmi?
– Qadın məsələsi? – Orxan suala, sualla cavab verdi.
– Əlbəttə. Gör neçə qadınla münasibəti var idi. Görüşdüyü qadınların arasında evlisi də vardı, nişanlısı da. Bəlkə onu namus üstündə, qisas məqsədi ilə öldürüblər? Ya da etdiyi hərəkətlərdən utandığı üçün, özü intihar edib.

– İnandırıcı deyil. Axı o heç kəsi yoldan çıxarmayıb. Üstəlik, son vaxtlar bütün qadınlarla əlaqələrini kəsmişdi. Bu versiyan inandırıcı deyil. Üstəlik mən onun belə kiçik səbəblərdən intihar etdiyinə və ya sənin dediyin kimi, öldürüldüyünə inanmıram.
– Orxan, sən yaxşı insansan, yaxşı həkimsən. Amma yazıçını, xüsusilə intihar etmiş bir yazıçını anlamaq o qədər də asan deyil. Onun təbəddülatlarını mən çox müşahidə eləmişəm. Üstəlik sonuncu dəfə intihara cəhd edəndə qapını sındırıb, onu xilas eləmişəm.
– Bunu bilmirdim. Nə vaxt olub bu hadisə?
– İki-üç il bundan əvvəl. Mənim qonşuluğumda ev kirayələmişdi. Bir axşam içib həm qazı açıq qoymuşdu, həm də damarlarını kəsmişdi.
– Sonra?
– Bax bu sualın cavabını deyəndən sonra özün də əmin olacaqsan ki, o intihar edə bilməzdi. Ölmək istəmirdi. Çünki damarlarını kəsən kimi mənə SMS yazmışdı, vida SMS-i. Hadisədən 10 dəqiqə sonra özümü yetirdim və qapını sındırdım. Qohum-qardaş, dost-tanış yığışdı və Nicatı xilas etdik.
– Haqlısan, o özünü öldürə bilməzdi. Çünki onun bütün intihar cəhdləri göz qabağında olub və onu xilas ediblər. Ölmək istəsə heç kəsin əli çatmayan bir yer seçərdi. Sözün düzü intihar etmək üçün əvvəllər seçdiyi bütün üsullar uğursuz idi. Mənə elə gəlir ki, o hansısa hadisəyə etirazını bu uğursuz cəhdlərlə edirdi. Üstəlik sağ qalacağını da əvvəlcədən hesablayırmış.
– Mən şəxsən Nicatın intihar etməyinə inana bilmirəm.
– Amma onun ağacdan sallanıb yellənən cəsədini gözlərimlə görmüşəm. Fotoları da kənddə hamınıza göstərdim. Üstəlik məhkəmə-tibbi, kompleks məhkəmə-tibbi-bioloji və tibbi-

kriminalistik ekspertizaların rəyi də məlumdur. Cəsədin üzərində heç bir zorakılıq əlaməti yox idi. Sadəcə həddindən artıq sərxoş imiş intihar anında. Eyni zamanda çoxlu narkotik qəbul edibmiş.

– Sən bu qədər terminləri necə yadda saxlayırsan, doktor?

– İstedadlı adamam...

– Ekspertiza nə rəy verir, versin mən inanmıram. Onun ölümü intihar deyil, qətldir. Yüksək dozada içki və narkotik sənə heç nə demir?

– Az öncə versiya irəli sürürdün, indi isə əminliklə danışırsan. Deyirsən onu içirdib, sonra da yüksək dozada narkotik qəbul etdiriblər?

– Heç bir faktım yoxdur. Sadəcə hipotezləri irəli sürdüm və məndə əminlik yarandı ki, Nicatı öldürüblər.

– İndi belə çıxır ki, mən müəlliflə əlbir olub bir romanın içində bu səfəri, intihar və dəfn söhbətlərini uydurmuşam?

– Hər şey ola bilər. Demədin ki, istedadlı adamam?

– Qələt elədim...

***

... Həyat öz axarında davam edirdi. Nə dünyanın bir tərəfi boşalmışdı, nə də Nicatsızlıq hiss olunurdu. Hərə öz işində idi. Hamı bir tikə çörəyinin, ruzisinin arxasınca düşmüşdü. İntihar haqqında artıq çox nadir hallarda danışılırdı. Orxan gənc və perispektivli yazarla arasındakı söhbətləri az qala unutmuşdu. Həkimlik ağır peşədir. Doktor bütün günü qaça-qaçda idi. Nicatın intihar söhbəti, yazılan roman üçün apardığı araşdırma, bu basa-basda Elxanın da roman yazmaq istəyini tamam unutmuşdu. İşlərin gərgin vaxtı Elxan zəng elədi:

– Doktor, Nicat haqqında roman yazacağam və onun öldürüldüyünü sübut edəcəyəm.
– Romanda? – Orxan məzələndi.
– Əlbəttə romanda. Elə təəccüblənirsən ki, guya belə işlərdə barmağın yoxdur? İndiki rejim insan taleyinə o qədər biganədir ki, Nicatın ölümünün intihar yox, qətl olduğunu mətbuatda isbat etsəm məni də Nicatın yanına göndərəcək.
–Yox əşşi? Özünü əməlli-başlı ciddi adam hesab edirsən ha..
– Məzələnmə. Son günlər onunla bağlı roman yazmağa qərar vermişəm. Əminəm ki, bildiklərim və sizin analitik qabiliyyətiniz sayəsində uğur qazanacağam.

Orxan bir anlıq fikrə getdi. Fikirləşdi ki, adi həyatdan fərqli olaraq romanın içində inandırıcı davranmalıdır. Bir halda ki, roman yazılır, Nicatın ölümü barədə söhbət gedir, hər şey inandırıcı olmalıdır. Bütün bunları düşünüb Elxanla ciddi söhbətə girişdi:
– Nə olsun? Bununla Nicatı geri qaytarmaq, günahkarları cəzalandırmaq mümkün olacaqmı?
– Yox, mümkün olmayacaq. Daxili rahatlıq tapmaq istəyirəm. Bir həftədi yuxuma girir və eyni sözləri pıçıldayır: "Mən ölmək istəmirdim".
– Yuxulara inanırsan?
– Froydu oxumusan? – Elxan suala, sualla cavab verdi.
– Yaxşı, artistlik eləmə. Dur gəl yanıma. Ofisimi tanıyırsan, "Caspian Plaza", 4-cü mərtəbə. Zəng elə qarşılayım.

# 5

**"Qadınlar özlərini gücsüz olanlara ideal kimi, güclü olanlara bir əşya kimi təqdim edərlər".**

**Cesare Pavese**

Orxan yazıçının hipotezlərini, versiyalarını dinlədikdən sonra qərara gəldi ki, intihar faktını psixiatr kimi araşdırsın. Sözün açığı dünyanın heç bir yerində yazıçı psixiatrla əlbir olub roman yazmır. Bu ilk olacaqdı. Həm də Orxanın özünə də belə oyunbazlıqda iştirak etmək maraqlı idi.
Əvvəlcə Elxana hər şeyi danışmaq, onun bu romana təsadüfən düşdüyünü izah etmək istədi. Sonra uzun-uzadı fikirləşib, fikrindən daşındı. Bildi ki, Elxana belə söhbətləri etməyin faydası yoxdu. Qarşısına roman yazmaq məqsədini qoyubsa, yazacaq. Üstəlik ona başa salmaq çox çətin idi ki, yazılmaqda olan bir romanın personajısan. O hətta roman personajı kimi də, roman yazmağa iddialı idi. Elxan Daşdəmiri qətiyyən güləşçi obrazına razı salmaq olmazdı. Neynirsən elə, o yazıçı kimi özünü bu romanda da göstərmək istəyəcəkdi.

Orxan vicdanlı bir həmmüəllif kimi, yazıçı dostunun xətrinə Elxana da söz vermişdi ki, şübhələrini və əldə etdiyi nəticələri onunla bölüşəcək. Eyni zamanda bu romanın müəllifi üçün də onun fikirləri önəmli idi. Orxan indi hər iki tərəfə oynayırdı. Həm Elxan, həm də romanın müəllifi üçün işləyirdi. Eyni zamanda onun özünə də bəzi şeyləri araşdırmaq vacib idi. Daha doğrusu yazıçı dostu ilə yazdığı romanın içində yazıçı Elxan Daşdəmirdən yaxasını qurtara bilmirdi.

Hər halda ölən (və ya öldürdüyü) onun dostu və sevimli şairi idi. Bu işə öz istəyi ilə razılıq vermişdi. Nicatın münasibətdə olduğu qadınların çoxusunu tanıyırdı. Müxtəlif məclislərdə Nicat özü onları həkimi ilə tanış etmişdi. Bir çoxu ilə feysbukda dost idi. Yaxın çevrəsi onsuz da pasiyentləriydi. Bir sözlə Elxanın təklifi mənasız görünsə də, Orxan üçün maraqlı məşğuliyyət ola bilərdi. Eyni zamanda dostları da, romanın müəllifi də, Elxan da bütün şübhələrini onunla bölüşmüş, Orxanda müəyyən qənaət hasil olmuşdu. Hər halda cəhd etməkdə bir problem görmürdü.

Bu yerdə başını itirən oxucumdan dəfələrlə üzr istəyirəm. Başa düşürəm ki, kimin USB-sinin kimin kompüterində olduğu aydın deyil. Ciddi şəkildə əsəbiləşən oxucu, romanı bu yerdə yarımçıq saxlayıb öz normal və sakit həyatına geri dönə bilər.

İlk olaraq Nicatın ünsiyyətdə olduğu qadınlarla görüşmək, onlarla ətraflı söhbət etməli idi. Bəlkə nəyəsə nail oldu. "Hər halda cəhd edəcəyəm" – deyə Orxan pıçıldadı. İlk olaraq Nərmin və Nərgiz bacılarına feysbukda mesaj yazdı. Sonra Esmiranın səhifəsinə girib onun telefon nömrəsini qeyd vərəqinə yazıb monitorun kənarına yapışdırdı. Bir anlıq saçlarını əli ilə daraqlayıb, xəyala daldı. Nicatla sonuncu görüşlərini, Nicatın kirayə mənzilindəki məclisi xatırladı. "Könül... hə... Könül idi o qadının adı. Kök və yaraşıqlı bir qadındı. Feysbukda mənə dostluq təklifi göndərəcəkdi. Ərindən yenicə boşanmışdı. Nicat onun üçün dəli-divanə idi. "Toppuşum" deyib əzizləyirdi. Orxan feysbukda Könülün səhifəsini tapdı və onun Nicatın ölümündən sonra yazdığı statusları diqqətlə oxumağa başladı.

Nicat ölümündən cəmi bir ay əvvəl Könüldən ayrılmışdı. Səbəbini isə dostlardan heç kəs bilmirdi. Yox, deyəsən

Şahinin söhbətdən xəbəri vardı. Orxan dəqiq bilirdi ki, Nicat bu ayrılıqdan bərk sarsılıb və içkini ikiqat artırıb. "Bəlkə, Könülə görə intihar edib?" – Orxan fikirlərini bir yerə cəmləməyə çalışdı. Digər qadınların Orxanın həyatında ciddi rol oynamadığını yaxşı bilirdi. Könül isə bir il idi ki, Nicatın həyatında idi və dostu onu dəli kimi sevirdi. Daha doğrusu, Orxan onun Könülü sevdiyinə inanırdı. Çünki onun bütün xırda qüsurlarını, qəbahətlərini bağışlayır, iki-üç gün görməyəndə depressiyaya düşürdü. Depressiya demişkən, Nicat ümumiyyətlə nadir hallarda depressiyadan çıxırdı.

Orxan lap başını itirmişdi. Ağacdan asılmış cəsəd, PUB-lar, restoranlar, Nicatın içəndən sonra cır səslə şeir deməyi, küçədə aşa-aşa yeriyib dəli kimi çığırmağı, hərdən dizlərini yerə qoyub üzünü işıq gələn pəncərələrə tutub ulamağı və bir də yazdığı romanda insafsızcasına öz ölümü ilə məzələnmək istəyi yadına düşdü.

Bu intihar doğurdan da gözlənilməz idi. İkinci romanını yazmaq üçün Gürcüstana getməyə hazırlaşırdı. Deyəsən populyar detektiv və sevgi romanlarını ələ salacaq ironik bir roman yazacaqdı. Uzun müddət idi ki, ölkədən çıxmaq istəsə də, problemlər onun bu istəyinə mane olurdu. Nəhayət dostlarına da bildirmişdi ki, bir neçə həftəlik Gürcüstana gedəcək. Ədəbi mühitdə olan gənclərin bəzisi Gürcüstan-Azərbaycan arasındakı yolu su yoluna döndərmişdi. Çoxusu ayın 10-15 gününü Gürcüstanda keçirirdi. Nicatın isə əvvəllər pulu, sonra isə vaxtı olmamışdı Gürcüstanda getməyə. Gərgin iş rejimi, üstəlik nazlı-qəmzəli Könül... Orxan bilirdi ki, Nicat Könülsüz heç yana getmək istəmir.

Orxan bir daha Nicatla Könülün münasibətlərini yada salıb, detalları xəyalında canlandırmağa çalışdı. Könül Nicata biganə deyildi. Onun qayğısına qalır, hətta yemək ye-

yəndə, avtobusda, metroda yol gedəndə də əlini buraxmırdı. Könüllə münasibətləri başlayandan sonra Nicat qızı üçün o qədər də darıxmırdı. Daha doğrusu çalışırdı ki, darıxdığını Könülə hiss etdirməsin. Könül onu ovundurur, darıxmağa qoymurdu. Bu qadından sonra onun həyatında yeni bir mərhələ başlamışdı. Orxan Nicatı böyük ümidsizliklə müalicəyə başlasa da, Könüldən sonra proses olduqca sürətlə gedirdi. Orxan Nicatın 7-8 aya sağalacağını düşünürdü, amma o, iki ayın içində inanılmaz dərəcədə dəyişmişdi. Fobiyaları demək olar ki, yoxa çıxmışdı. Hə, az qala unudacaqdım. Orxan Nicatın nevrotik əlamətlərini hiss etdiyi üçün müayinə etmiş və uzun müddətli müalicə yazmışdı.

Könülü tapmalı, onunla hökmən danışmalı idi.

Könülün əmlak bürolarının birində çalışdığını bilirdi. Amma iş yerinin ünvanını, telefon nömrəsini dəqiq bilmirdi. "Yaxşı ki, feysbuk var" – Orxan gülümsündü. Feybukda Könülə geniş və ətraflı bir məktub yazdı. İstəmədən bir romanın qəhrəmanına, daha doğrusu həmmüəllifinə və qəhrəmanına çevrildiyini, özünün də bəzi şeylərlə maraqlandığını ətraflı şəkildə izah etdi.

Əmin idi ki, Könül cavab yazacaq. Hər halda söhbət Könülün intihar etmiş sevgilisindən gedir. Yəqin Könül heç nəyə baxmayaraq bildiklərini onunla bölüşəcəkdi.

Orxan Könülə mesaj yazdıqdan sonra Elxanın versiyaları üzərində düşünməyə başladı. Yanlışlığı sübut olunmasa belə ehtimallar, versiyalar, suallar, tezislər bir gün tarixə qarışır, onları müdafiə edənlər toplumdan uzaqlaşır, axmaqcasına müdafiə edənlər isə gülünc duruma düşürlər. Hər halda onun versiyaları və sualları bir gün tarix olacaq. Amma Orxan nə toplumdan uzaqlaşmaq, nə də gülünc du-

ruma düşmək istəyirdi. Sadəcə dostu qarşısında son vəzifəsini yerinə yetirib onun ölümü ilə bağlı irəli sürülən versiyaları aydınlaşdırmalıydı.

Axşam evə getməyə hazırlaşanda Könüldən mesaj gəldi. Könül bəzi problemləri olduğu üçün sabah onunla hökmən görüşmək istədiyini yazmışdı. Daha sonra Spinozadan ağır, qarmaqarışıq bir fikir əlavə eləmişdi: "Nəyisə bilmək üçün mən bilməliyəm ki, onu necə biləcəm və nəyə görə bilməliyəm, nəyə görə bilməliyəmi bilmək üçünsə mən bilməliyəm ki, nəyi biləcəm və belə... sonsuzluğacan".

Orxan Könülün yazdıqlarından heç nə anlamasa da, sabah istədiyi vaxt zəng edib, ofisə gələ biləcəyini və telefon nömrəsini yazdı.

# 6

**Seks, insanın sevgi tapa bilmədiyində,**
**əlində olan yeganə təsəllisidir.**

**(Q.Q. Markes)**

– Alaqaranlıq otağın vahiməsi canıma üşütmə salsa da, işığı yandırmadan əl havasına çarpayını tapıb yatağa uzandım. Nicatın intiharından xeyli keçsə də, onu unuda bilmirəm. Deyəsən, bu günahkarlıq hissidir. O özünü asandan sonra hər gün özümü onun ölümündə günahkar bilir, qınayıram. Ağlamadığım gün olmur. Onun həlim səsi, uşaq gözlərinə bənzər məsum və günahsız gözləri gözümün önündən getmir. Dəli-dolu, romantik, lazım olduğundan daha artıq duyğusal Nicatı unutmaq cəhənnəm əzabından betərdi.

Çantamı eşələyib siqaret çıxardım. Alışqanın işığında külqabını çarpayının altından götürüb stulun üstünə qoydum. Evdən və yatağımdan dəhşətli siqaret qoxusu gəlirdi. Nicatın ölümünə qədər ara-sıra, nikotini az olan siqaretlər çəksəm də, o dünyasını dəyişən gündən bu yana hər gün onun çəkdiyi ağır siqaretdən, onun çəkdiyi qədər çəkirdim. İşlədiyim barda məni rəfiqələrim "Külqabı" çağırmağa başlamışdılar.

– Necə, sən barda işləyirsən? – Orxanın heyrətdən ağzı açıq qaldı.

*…Eyni zamanda romanın müəllifi bu məqamda xeyli təəccüblənir. Əgər imkanı olsaydı burda kədərli şeir guppuldadardı. Sadəcə susmaq və kədərlənmək, bir az da müdrik görünmək xatirinə heyrətini boğur…*


S.Vasip

Könül hönkürüb əlləri ilə üzünü tutdu. Orxan onu sakitləşdirmək üçün stəkana su süzüb ona uzatdı. Könül uşaq kimi çiyinləri atıla-atıla hönkürürdü. Təxminən 6-8 dəqiqədən sonra Könül əllərini üzündən çəkib, sakitləşdi. Gözlərinin daha canlı görünməsi üçün çəkdiyi kosmetika yanaqlarına yayılmışdı. Orxan indi fikir verdi ki, onu ilk gördüyü gündən bu yana dəhşətli dərəcədə dəyişib. Könül qəfildən ağlamağa başladığı kimi, qəfildən də susdu. Çantasını açıb güzgüsünü çıxartdı və yaş dəsmalla üz-gözünün kosmetikasını, dodaqlarının boyasını sildi. Orxan sakitcə onu müşahidə edirdi. Əslində Könülün harda işləməsinin onun üçün əhəmiyyəti yox idi. Sadəcə aylar öncə tanınmış bir yazarın sevgilisi olan, əmlak bürosunda çalışan, normal qazana bilən qadının indi barda işləməsi onu təəccübləndirmişdi. Könül çantasını bağlayıb, dik-dik Orxanın üzünə baxdı:

– Bəli, barda fahişəlik edirəm.(Fahişəlik qədim və ciddi peşədir.) Narahat olma, buralarda məni tanıyan müştərim yoxdur.

– Axı bu necə ola bilər? – Orxan sual verməkdən özünü saxlaya bilmədi.

– Bu uzun hekayədir. Sənə onsuz da hər şeyi danışacağam. Amma indi problemim var və bu problem mənə çox əziyyət verir. Köməyinə ehtiyacım var.

– Yaxşı Könül, bu barədə sonra danışarıq. Sən söhbətinə davam elə.

– Hə doktor, mən Nicatın içdiyi qədər içir, onun çəkdiyi qədər çəkirəm ki, rahat olum. Ona olan borcumu bu yolla ödəməyə çalışıram. Nicatın məndən əvvəl sevdiyi yazar qadın, onun kompüterini ekspertizadan götürüb, yarımçıq qalmış əsərlərini tamamlamağa çalışır. Kimsə haqqında nekroloq yazdı, məzarı üstündə ağladı. Roman yazmaq istəyən də var,

araşdırma aparan da. Mən də belə absurd yol seçmişəm. Nicatın şairliyini zərrə qədər də önəmsəmədiyim üçün, ancaq vərdişlərini davam etdirməyi bacarıram. Bəlkə də Nicat ölməsə, məni bu pis vərdişlərdən çəkindirərdi... Sağlığında hər gün məni danlayırdı. Nə içməyimə, nə də çəkməyimə razı olurdu. Qəribə adamdı. Özü içirdi, çəkirdi, nəşələnirdi, amma bunları başqalarına rəva görmürdü.

Bu yerdə Orxan yenidən Könülün sözünü kəsib, sual verməli oldu:

– Yaxşı görək... Sən Nicatı lap peyğmbər elədin ha. Əslində hamı belədi. Nicatın səndən əvvəl sevdiyi qadını tanıyırsan?

– Hə, bir neçə dəfə şəhərdə rastlaşmışdım onunla. Üzümə çox qanlı-qanlı baxırdı. Feysbukda izləyirdim və başa düşürdüm ki, Nicatın ondan ayrılmasından bərk sarsılıb. Nicatın cəsədini morqdan götürəndə rastlaşdıq. Dostcasına əlini çiynimə qoyub, mənə təsəlli verdi. Özümü saxlaya bilməyib onu qucaqlayıb ağladım. O qalib idi. Sarsılsa da, özünü sındırmırdı.

– Sənə əsəbiləşmədi?

– Daha əsəbiləşmək üçün səbəbi yox idi. Bölüşə bilmədiyimiz sadəcə Nicat idi və onu da hər ikimiz ölümündən öncə itirmişdik. Amma onun ölümündə bütün dostları kimi, o da məni günahkar bilir.

– Əslində mən də bunu aydınlaşdırmaq istəyirəm. Sənin nə günahın ola bilər axı? Yəqin ki, bu sualın cavabını birlikdə aydınlaşdıracağıq. Nicatı mən də yaxşı tanıyırdım. Son vaxtlar əsəbləri tamam pozulmuşdu. Qızı ilə görüşə bilmirdi, işdən çıxmışdı. Özünə qapanmışdı...

–Yox, sən bilmədiyin şeylər var. Bütün sadaladığın şeylərin günahkarı mənəm. Mən bir neçə dəfə ona xəyanət etmişdim.



Aldatmışdım onu. Ev kirayəsini, kredit borclarını ödəyə bilmədiyim üçün buna məcbur idim. Əslində bunu şüurlu şəkildə etmirdim. Başımı itirmişdim. Bir tərəfdən də zövqlü və bahalı geyimlərə olan alışqanlığıma görə çoxlu pul lazım olurdu. Nicat isə qazandığının böyük hissəsini qızına göndərir, mənə çox nadir hallarda kömək edirdi. Heç özüm də razı deyildim mənə kömək etməyinə. Onu təmənnasız sevirdim. Amma yaşamaq üçün mənə pul lazım idi. Bütün bunlara görə özünü qınayırdı, narahat olurdu. Mənə dəli kimi bağlanmışdı. Həm də çox qısqanırdı. İlk dəfə xəyanət etdiyimi biləndə dəliyə dönmüşdü.
–Yaxşı Könül, bunları sonra danışarıq. Bilirəm ki, indi səni narahat edən başqa məsələdir.
– Əslində necə danışacağımı bilmirəm, doktor. Həm utanıram, həm də yadıma düşdükcə vahimələnirəm.
– Danışmasan, mən sənə yardım edə bilmərəm. Nicat da sənin kimi inadkar idi. Yaşadıqlarını danışmaqdan utanırdı. Yazdığım resepti isə qapıdan çıxan kimi cırıb atırdı. Heç olmasa sən danış. Onu qoruya bilmədim, danış, bəlkə sənə köməyim ola.
– Harda qalmışdım?
– O gecədən danışacaqdın. Deyəsən nədənsə qorxmuşdun, bax o gecədən...

Könül gözlərini yumub, fikrə getdi...

# 7

**“Sevgi nə qədər böyük olsa,**
**kədəri də o qədər böyük olacaq.”**

**Spinoza**

... İşığı yandırmağa qorxurdum. İşığı yandıran kimi Nicatın divardakı şəkilləri məni rahat buraxmırdı. Hətta otağa tünd rəngli pərdələr asmışdım ki, pəncərədən otağa işıq süzülməsin. O gecə də həmişəki kimi. Yerimə uzandım, siqaret yandırdım və gözlərimi qaranlığa zillədim. Otaqda ölüm sükutu vardı. Otaq o qədər sakit idi ki, siqaretin yanmağı belə səs salırdı. Boşluqda hiss edirdim özümü. Növbəti dəfə siqareti dodaqlarıma yaxınlaşdıranda əlimdən yapışdı. Əvvəlcə diksindim, otaqda başqasının ola biləcəyi ağlıma gəldi. Çünki otaq yoldaşım hələ də evin açarını geri qaytarmamışdı. Otaq yoldaşımı səslədim:
–Sveta, bu sənsən?
Əlimdən tutan ələ toxunmaq, əlimi onun əlindən çəkmək istədim. Amma toxuna bilmirdim. Toxuna bilmədiyim əl çox qüvvətli idi. Çox cəhd eləsəm də çırpınıb əlindən çıxa bilmədim. Yavaş-yavaş boğazıma, qulaqlarıma ilıq nəfəsi toxunmağa başladı. Çığırmaq, köməyə adam çağırmaq istəsəm də səsim çıxmadı. Qüvvətli kişi əlləri üstümdəki paltarları cəldliklə, tələsə-tələsə soyundurdu. Bu onun üslubu idi.
– Kimin?
– Nicatın... Ancaq o bu cür öpürdü. Paltarlarımı heç kəs belə soyundurmurdu.

Orxan key-key Könülün üzünə baxdı. Qarşısındakı stəkana su süzüb, ona uzatdı:

– Könül, su iç və səbirlə danış. Axı Nicat ölüb. Mənə elə gəlir ki, onun cənazəsini hətta morqda da sənə göstərdik. Səhv etmirəmsə, diqqətlə bədəninə toxundun, sonra da qucaq-ladın. Bilirsən, belə danışmağın normal deyil. Müəlli-fin acığına gələcək.
– Bilirəm, Nicat ölüb. Sayənizdə, onun özünü asdığını, dəfn olunduğunu, qəzetlərdə və saytlarda böyük-böyük yazılar yazıldığını gözəl bilirəm. Bunu unudacaq qədər ağlımı itirməmişəm. Onun yaşadığına inanacaq qədər axmaq deyiləm.
– Könül bu hallüsinasiyadır, ya da buna bənzər vəziyyət. Ola bilsin əsəblərin pozulub, qarabasmalardan əziyyət çəkirsən.
– Axı hər şey həmişə olduğu kimi idi. Dodaqlarını hiss elədim. Öpüşdük. Dili ilə döşlərimin giləl
ərini əvvəlki ehtirasla oynadırdı. Ehtirasdan çılğına dönmüşdüm. Əllərini hiss edirdim. Vaginama toxunurdu. İncəliyi də, sərtliyi də oxşar idi. Üstünə çıxdım. Dəli kimi atılıb-düşürdüm. Boşaldım.
– Bu cür seksual yuxuları yeniyetmələr də görür. Səhər yuxudan oyananda özünü necə hiss edirdin?
– Səhər oyananda paltarlarım səliqə ilə stolun üstünə yığılmışdı. O həmişə belə edərdi. Bircə dünən geyindiyim sonuncu qara, uzunboğaz corablar yerində deyildi.
– Anlamadım, axı sən yatağa paltarlı uzandığını, siqaret yandırdığını dedin... Bir də, corabın bura nə dəxli?
– Məsələ burasındadır ki, siqaret külqabıda söndürülmüşdü. Paltarlarım isə stolun üstünə yığılmışdı. Nicat qara rəngli qadın kolqotqalarının kolleksiyasını yığırdı. Yəqin bu barədə sənə danşmayıb.
– Bu ola bilməz. Mümkün deyil. Məncə əsəblərin korlandığı üçün, qarmaqarışıq yuxular görürsən. Yəqin paltarlarını özün çıxarmısan. Siqareti isə söndürdüyünü unutmusan. Corab məsələsi isə bir az qarışıqdı. Mən onun belə bir kollek-

siya yığdığını eşitmişdim. Yəqin yox, yüz faiz yuxunu qarışdırmısan.
–Bəlkə də belədi. Amma yataqdan sperma qoxusu gəlirdi. Çünki o sekslə məşğul olandan sonra yatağa boşalardı.
– Niyə? Bu nə axmaqlıqdı?
– Sadəcə o kondom istifadə etməyi sevmirdi.
– Qoruyucu həblər var, o bunları bilməmiş olmazdı.
– Mən də nə vaxtsa ana olmağı düşündüyüm üçün həb istifadə etmirdim. Ən asan yolu, onun yatağa boşalmağı idi.
– İyrəncdi,- Orxan üz-gözünü turşutdu.
– Doktor, mənə kömək edəcəksiniz?
– Məncə ilk olaraq sənə sakitləşdiricilər yazmalıyam. İçkini və siqareti atsan yaxşı olar. Nicat necə deyirdi? - "Az içər qadın dediyin". Sən bu cin-şeytanla sevişməkdən xilas olmaq istəyirsənsə, içkini və siqareti at, dərmanları vaxtında qəbul elə. Təcili tək yaşamağa son qoy.
– Dəli olmaqdan qorxuram, doktor!
– Keçəcək – Orxan əminliklə dilləndi – Belə hadisəylə ilk dəfə rastlaşsam da, əminəm. Sən də mənə kömək etməlisən. Mənə elə gəlir ki, Nicat intihar etməyib. Onu öldürüblər. Daha doğrusu əminəm ki, onu öldürüblər.
– Sən nə danışırsan, Orxan? Bu mümkün deyil. Axı romanın əvvəlində polislər onun ağacdan asılmış cəsədini tapmışdı.
– Bu barədə hələ heç kəsə heç nə demə. Mən hadisə yerində çəkdiyim fotolara yenidən baxdım. Düzdü, mən nə xəfiyyəyəm, nə də cinayət işləri üzrə ekspert. Amma əminəm ki, onu öldürüblər.



Könül tutuldu. Gözlərini Orxandan qaçırmağa çalışdı.
– Kim? Onu kim öldürə bilərdi? Onun heç kəslə düşmənçiliyi yox idi.
– Məni düşündürən məqam da budur. Heç kəslə münasibəti pis olmayan bir adamı kim öldürə bilərdi? Bax, mən indi bunu araşdırmalıyam. Tapmalıyam görək heç kəslə düşmənçiliyi olmayan adamı kim öldürüb.
– Maraqlıdır, sən nə üçün bu işlə məşğulsan? Onun ölümündən xeyli vaxt keçib. Məhkəmə tibbi ekspertizasının rəyində onun özünü asaraq intihar etdiyi yazılıb. Sən bu sahədə mütəxəsis olmaya-olmaya necə araşdıracaqsan? Niyə öz işinlə məşğul olmursan ki?
– Mən sadəcə əminəm ki, o intihar etməyib. Onun yazıçı dostu da bundan şübhələnir. Baxmayaraq ki, bizim personajımızdır, özü də roman yazmaq istəyir. Daha doğrusu məni bu araşdırmaya həvəsləndirib. Əgər belə olmasa da, araşdırmanı davam etdirəcəyəm.
–Hansı dostu? Onun haqqında roman yazan Elxan Daşdəmir?
– Hə.  Elxan da nə isə yazmaq istəyir. Deməli sən də bilirsən.

*Mən Orxandan xahiş etdiyim üçün o heç kəsə mənim roman yazmaq istəyimlə bağlı danışmır. Yəni öz aramızda razılaşmışıq ki, bu barədə heç kəsə danışmayaq. Danışanda yazı prosesinin dadı-duzu qaçır. Ləzzət eləmir.*

Elxan məndən xahiş etdi ki, Nicatın intihar edib-edə bilməyəcəyini, ölümündən əvvəl yazdığı yazılarla psixoloji durumunu aydınlaşdırım. Eyni zamandamünasibəti olan qadınların onun haqqında düşüncələrini öyrənim. Bunun üçün

onun bütün əlaqələrini araşdırmağımı, yazılarına psixiatr kimi nəzər salmağımı xahiş edib.

– Deməli araşdıracaqsan?
– Əlbəttə. Həm roman yazılır, həm də roman personajları yüz hoqqadan çıxır. Hamısını da özüm nizamlamalıyam. Başım şişib əməlli-başlı. Sən yazdığım dərmanları vaxtında qəbul et. İçki və siqaret olmaz. Eyni zamanda çalış tək yaşama.
– Oldu doktor, çox sağ ol.
– Nicatla münasibətlərin haqqında danışmaq istəmirsən?
– Yox, hələ hazır deyiləm. Ümumiyyətlə danışmaq istəmirəm.
– Səni anlayıram. Ancaq danışmalısan. Sadəcə heç bir gözləntisi olmayan xoşbəxtlər və ümidini itirmiş çarəsizlər danışmaqdan imtina edə bilər.
–Mən bütün ümidlərini itirmiş çarəsizlərdənəm-, Könül yenidən doluxsundu.

Könül sağollaşıb getdikdən sonra, Orxan pəncərənin qarşısına gəldi. Youtube-da Nicatın şeirlərini açıb, diqqətini tikilməkdə olan binanın sonuncu mərtəbəsində cəmləşdirdi. Binanın fasadında tamamlama işləri gedirdi. Fəhlələr deyəsən fasadı boyayırdı. Orxan həzin musiqi sədaları altında şeir dinləyə-dinləyə fəhlələrin iş prosesini izləyirdi. Tikintidə fəhlə işləmək, bu ölkədə ən ağır iş sayıla bilər. Rayonlardan axışıb gələn fəhlə gənclər it zülümü çəkirdi. Yarıac, yarıtox yaşayır, ucuzvari evlərdə kirayə qalır, aşağı maaşla ən ağır işi görürdülər. Kəndlərdəki işsizlik, ehtiyac onları bu ağır və yorucu işlərdə çalışmağa məcbur edirdi. Kapitalizm öz çirkin simasını göstərirdi bu cavanlara. Bir tikə çörək qazan-

maq üçün əsir-yesir olmuşdular Bakının küləkli, toz-torpaqlı künc-bucaqlarında. Amansız tale onlarla məzələnirdi.

...Yaxşı, sən allah düşük-düşük danışma. Bu nə fikirlərdir? Nə kapitalizm, nə fəhlə? Karl Marks zadsan? Yoxsa Trotskisən? Başını aşağı sal, romanı yaz da...Yox bir, bəlkə romanın içində ictimai mövqe sərgiləmək istəyirsən? Ay xətakar...Elə də bilirdim. Yaxşı, romanı yaz bala, siyasətə qarışmaq sənin işin deyil.

Orxan fəhlələri düşünə-düşünə dərin fikirlərə qərq olmuşdu. Qəfildən dəli kimi çığırdı. Elə gözlərinin önündəcə on dördüncü mərtəbənin eyvanını rəngləyən fəhlələrdən birinin ayağı sürüşdü və zavallı müvazinətini itirib başıüstə yerə gəldi. Bütün hadisələr bir anda baş verdi. Fəhlənin naləsi, iş yoldaşlarının çığırtısı Orxanın qorxutdu. Binadan yıxılan fəhlə əl-qol atmağa macal tapmamış, yerə dəydi. Aşağıda işləyən fəhlələr çığıra-çığıra onun cəsədinə doğru qaçdılar. Təxminən 15 dəqiqə sonra Təcili Yardım maşını gəldi. Fəhlə yerindəcə keçinmişdi. Tikintinin həyətindəki fəhlələrin səs-küyü getdikcə artırdı. Orxan qeyri-ixtiyari masaya yaxınlaşıb, dinlədiyi şeiri yarıda saxladı.

# 8

**"Qadınların qoruyacaqları yeganə sirr, bilmədikləri sirrdir"**

Gənc və perispektivli yazar Elxan yuxudan oyanan kimi əlini atıb telefonu götürdü. Axşam Könülə dalbadal dörd-beş mesaj yazsa da ondan cavab gəlməmişdi. Əsəbi halda telefonu kənara atıb, viski şüşəsini açdı. Şüşədəki viskini başına çəkib, sancılanan mədəsini qucaqlayıb yatağa uzandı. Nicat haqqında roman yazmağa qərar verəndən sonra gecə-gündüz içirdi. Heç bir roman personajı bu lotuluğu edə bilməz, vallah. Elxan ayrı aləmdi. Əslində roman yazmaq haqqında qərara gəlməmişdən öncə də içirdi. Özü də necə gəldi. Acqarna, yuxudan qalxıb, yatmamışdan əvvəl... İçməkdən mədəsini xəstə salmışdı. Nicatla ünsiyyəti olan qadınlarla tanışlıq arzusu onun planlarının bilinməyən hissəsi idi, amma əsas məqsədi, əlbəttə roman yazmaqdı. Belə rahathulqum mövzu bir də hardan əlinə düşəcəkdi? Bu romanda bir-birindən maraqlı sevgi əhvalatlarını uydurmağa isə ehtiyac yox idi. Nicat sağlığında həmişə Elxanla məzələnirdi: "Sevgidən yazmaq üçün sevmək lazımdır. Ya da sevənlərin hekayələrini dinləmək". Hər içki məclisindən sonra Nicat onu özündən çıxarmaq üçün yaşadığı macəralardan birini bəzək-düzəkli formada danışardı. Elxan Nicatı maraqla dinləsə də, əsəbiləşib özündən çıxırdı. Bilirdi ki, Nicat məhz onunla məzələnmək üçün bu hadisələri danışır. Nicat haqqında yazmağa qərar verəndə, əmin idi ki, onun köhnə tanışlarının üç-dördünü yoldan çıxarmağı bacaracaq. Yazmaq üçün ona içki və qadın lazım idi. İçkini birtəhər tapardı, qadın məsələsində isə Nicatın "sevgililəri" dadına çatacaqdı.

Öz sirrini Elxana etibar edən qadın, onun üçün potensial qurban sayıla bilərdi. Hansısa qadının sevgi macərası, sonrakı mərhələdə Elxanın şantaj vasitəsi idi. Fikirləşirdi ki, heç nə tapmayanda, Nicatın köhnə sevgilisini romanında öz adı ilə təqdim etməklə qorxutsun.

*Bu yerdə romanın müəllifi ah çəkib, ikiəlli başına bir qapaz ilişdirir.*

Elxana elə gəlirdi ki, heç kəs intihar etmiş gənc şair haqqında yazılan romanda şairin qısa müddətli sevgilisi obrazında olmaq istəməz. Elxan dərk etmirdi ki, heç kəs ona Nicatla aralarındakı münasibəti danışmağa da asanlıqla razı olmaz. Amma israrlı idi.

***

Elxan Daşdəmir. Əvvəlcə bu gənc və perspektivli yazıçını yaxından tanıyaq. 27 yaşı var. Rayonların birində doğulub. İxtisasca avaradır. Saysız-hesabsız şeir kitablarının və romanların müəllifidir. İstedadsızlığında israrlıdır. Sona qədər necə yazmamağın mümkün olduğunu göstərmək üçün yazmaqda qərarlıdır. Adamayovuşmaz və qaraqabaqdır. Universitetdə dərs deyir. Dərs deməyi avaraçılığına mane olmur. Uğursuz sevgi hekayələrini qələmə alan bu gənc yazıçının romanları mühitdə çox populyardır. Xüsusən də qadınlarla ünsiyyət qurmaqda çətinlik çəkən gənclər onun daimi oxucusudur. Elə-belə, oxuyub məzələnmək üçün onun kitablarına maraq göstərənlər də var. Elxan ədəbiyyatda yeniliklər etdiyini hər yerdə danışsa da, onu etdiyi yeniliklərdən ancaq özü xəbərdardır. Yəni, heç bir tənqidçi bu barədə heç nə yazmayıb. Ədəbi tənqid bu perspektivli gəncə biganədir.

Dediyinə görə Nobelə iddialıdır.  Şeirləri söz yığınını xatırlatsa da, "sevgi yanıqları"nın dillər əzbəridir. O iddialıdır. Heç kəslə yola getmədiyi üçün yazılarını ancaq üçüncü dərəcəli saytlar çap edir. Mərhum Nicatla çoxdan tanışdır. Elxanın dediyinə görə Nicatla birlikdə çox içiblər. Hətta Nicatın içməyi haqqında danışanda xoşagəlməz bir ifadə işlədir – "Şair eşşək kimi içirdi".

Hələlik bu qədər...

Bəli, Elxan, Nicatı çox yaxından tanıyan insanlardan biridir. Bir neçə dəfə mənasız məsələlərə görə mübahisə etsələr də, ikisinin də içindəki səmimiyyət küsülü qalmaqlarına imkan verməyib. Elxan kənd uşaqlarına xas səmimiyyəti qoruyub-saxlamağı bacaran əyalət uşaqlarındandır. Səmimi və saf xarakteri, dəli-dolu hərəkətləri onu yaxın çevrəsinə sevdirməyi bacaran nadir xüsusiyyətlərdəndi. Elxanı seksual manyak hesab edənlər də var. Biri elə doktor Orxan. O hesab edir ki, Elxanın feysbukda yazdığı statuslar seksual pozğunluğu olan insanlara məxsus əlamətlərdir. Orxan hər dəfə Elxana "ilişəndə" onu "qadın düşməni" adlandırır. Qadınlarla normal münasibətə girə bilmədiyi üçün, Elxan onları aşağılamaqdan zövq alır. Onu yaxından tanıyanlar da deyir ki, Elxanın qadınlarla ünsiyyət məsələsində ciddi problemi var. Əslində bu bizi qətiyyən maraqlandırmır.

*Elxan haqqında ona görə uzun-uzadı danışırıq ki, o növbəti romanını yazıçı həmkarı Nicata həsr etməyi düşünür. Yəni mənim çörəyimə bais olmaq istəyir. Əziyyət çək süjet düşün, stuktur qur, mövzu tap, axırda da personajlardan biri başlasın lotuluq eləməyə.*

Nicatın ölümündən sonra bərk sarsılanlardan biri də Elxandı. Onun üzüntüsü digərlərindən fərqlidi. O, səmimi üzüntü yaşasa da, bu hadisəni əsərində yazmaq, Nicatın sevgi qurbanı olduğunu isbat etmək niyyətindədi. Nə deyək, xeyirli olsun. Amma xatırlatmaq yerinə düşərdi ki, Elxan qətlə yetirilmiş yazıçı Rafiq Tağı haqqında da roman yazacağını bəyan etmişdi. Amma nədənsə o romandan səs-səmir yoxdu. Digər bir tərəfdən, biz əziyyət çəkib Orxanın araşdırmalarını qələmə aldıqca romanımız da yazılmış olur. Sonra yəqin ki, bu qaralamanı Elxana ötürəcəyik və hazır matereallları bədiiləşdirmək onun üçün asan olacaq. Təbiri caizsə, Elxan bizim xarabalıqlarımız üzərində malikanə ucaldacaq.

# 9

**Dost dosta tən gərək...**
**(Azərbaycan atalar sözü)**

Elxan Könüldən cavab gözlədiyi halda doktor Orxandan zəng gəldi:
– Salam Elxan. Necəsən?
– Təşəkkür edirəm, həkim, salamatam.
– Uzatmayacam. Sənə bir sual verim. Sən gecədən bəri düz beş dəfə Könülə mesaj yazmısan. Xəstəsən?

Elxan tutuldu.
– Nicatla bağlı danışmaq istəyirəm.
– Yaxşı görək. Nicatla bağlı danışmaq istəyirsənsə, bir mesaj kifayətdir. Qır-saqqız olub gijdıllağlıq eləmə. Bu nə mesajdı yazmısan? – "Gözəlim, mənə Nicatdan danışmalısan. Danışmasan, öz bildiyim kimi yazacağam. Bu da, yəqin sənə sərf eləməz" . Yox bir, "Mənə bir az ondan danış"...

Yazıq qızın başına gələnlər azdı ki, sən də onu təhdid edirsən?
– Nə təhdid etmək? Sadəcə istəyirəm ki, danışsın – Elxan mızıldandı.
– Yaxşı, sırtıqlıq eləmə. Yazıçıya yaraşmaz bu cür münasibət. İnsan kimi zəng elə, görüş. Girişməyə ehtiyac yoxdu. Könül onsuz da barda işləyir və pul müqabilində istənilən kişi ilə görüşür. Yəni belə axmaq mesajlardan qorxacaq qadınlardan deyil.
– Bayaq deyirdin ki, "yazıq qız..."
– Fahişəlik eləsə də, dünyasını dəyişən dostumuzun sevgilisidi. Yox, əgər qeyrətin götürmürsə, get öldür. Əgər yatmaq

istəyirsənsə, adam kimi pulunu ver yat. Yaxşı oğlan belə hərəkət eləməz...
– Hansı oğlan?
– Sikdir!

Elxan telefonu sağollaşmadan bir kənara tullayıb, doktoru söydü:
– Get rədd ol, xiyarın biri xiyar. 4-5 dənə yazını oxuyub, yazarın psixoloji durumunu izah edə bilmir, mənə ağıl öyrədir.

# 10

**"Qadının sevmədiyi kişiyə
heç vaxt yazığı gəlməz"**

**Viktor Hüqo**

Könül saunadan kefsiz çıxmışdı. Onu müştərilərlə birlikdə saunaya aparan taksi indi zəng gözləyirdi. Dərnəgül yolunda yerləşən saunadan çıxıb, küçə lampalarının işığında addımlamağa başladı. Sonra nə fikirləşdisə, taksi sürücüsünə zəng elədi:
– Hardasan?
– Saunaya çatıram.
– Saunanı keçən kimi, birinci dayanacaqdayam. Bir az gəzişmək istədim.
– 10 dəqiqəyə ordayam.

Könül taksini gözləyə-gözləyə bir siqaret yandırdı. Yanında saxlayıb, şit-şit söz atan sürücülərə fikir vermədən Nicatla keçirdiyi xoş günləri xəyalında canlandırdı. Xəyallar onu çox uzaqlara apardı. Fikirdən ayılanda evə çatmışdı. Taksiyə necə mindiyini, dördüncü mərtəbəyə necə qalxdığını xatırlamırdı. Nicatın kədərli çöhrəsi gözünün qabağından getmirdi. Qapını tənbəl-tənbəl açıb içəri keçdi. Birotaqlı mənzildən həmişəki kimi, içki və siqaret qoxusu gəlirdi. İşığı yandırdı. Evdə səliqəsizlik öz qaydasındaydı. Kosmetika ləvazimatları güzgünün qarşısında pərakəndə vəziyyətdə idi. Fen yemək stolunun üstünə atılıb qalmış, evin bir küncündəki kreslonun üstünə çirkli paltarlar qalaqlanmışdı. Üç-dörd gün bundan əvvəl içilmiş pivə şüşələrindən üfunət iyi

gəlirdi. Çirkli çəngəllər, qaşıqlar və boşqablar yığılıb qalmışdı. Könül həvəssiz şəkildə əl çantasını boş kreslonun üstünə atıb dağınıq yatağa çökdü. Divarın hər tərəfinə Nicatın şəkilləri vurulmuşdu. Laqeydliklə yerindən qalxıb pəncərəni açdı. Amansız mart soyuğu acgözlüklə çılpaq çiyinlərini yaladı. Yerinə qayıdıb siqaret yandırdı və Nicatın şəkillərinə baxmağa başladı. O heç bir fotoda gülmürdü. Heç gülümsəyən fotosu da yoxdu. Könülün gözlərində yaş parıldadı. Evin səliqəsiz halı da Nicatı xatırladırdı. Nicat onun evinə nadir hallarda gələr, gələndə də evi səliqəsiz saxladığı üçün ona əsəbiləşərdi.

*Boş-boş danışma mən ölüm, guya şair səliqəliydi? Pintinin yekəsi idi, vicdan haqqı.*

Qeyri-ixtiyari ayağa qalxıb evi səliqəyə salmağa başladı. Əvvəlcə çirkili qabları mətbəxə daşıdı, küncdəki kreslonun üstündə qalaqlanmış kirli paltarları paltaryuyana doldurub, işə saldı. Tozsoranla xalçanı təmizlədi, evi iki dəfə sildi. Yataqdakı çirkli mələfələri tərtəmiz, qar kimi bəyaz mələfələrlə əvəzlədi. Evi əməlli-başlı sahmana salandan sonra kompüterin tozunu silib, açdı. Yutubdan Nicatla birlikdə dinlədiyi mahnılardan birini – Ray Charles "I got a woman" – mahnısını tapdı. Ray Charles Nicatın sevimli müğənnilərindəndi. Evdə hənirtinin olması onu daha da ürəkləndirmişdi. İndi daha həvəslə və şövqlə işləyirdi. Dəhlizi, hamamı təmizlədi, çaydanı doldurub qazın üstünə qoydu, çayniki yuyub quruladı, çay dəmlədi.

Gecədən içdiyi içkinin tamı ürəyini bulandırdı. Hamama keçib gözlərindən yaş gələnə qədər öyüdü, üzünü yumaq üçün suyu açdı. Güzgüdə özünə baxanda dəhşətə gəldi.

Gözləri dibsiz quyuya bənzəyirdi. Dişlərini fırçalayandan sonra çay süzdü. Bu dəfə Ray Charles-dan "What'd I Say" mahnısını açdı və kresloya çökdü. Evdəki təmizlik onu əvvəlki günlərə apardı. Nə vaxtsa ev işlərini canla-başla görən, yemək bişirib paltar yuyan sadə bir qadın olduğu günlər çox uzaqdaydı. Nicatın sözlərini xatırladı: "Qadının həyatında hər şeyin yolunda getdiyini onun təmizliyindən anlamaq olar, əgər natəmizsənsə, deməli, nələrsə yolunda deyil".

Boğazı qəhərdən tıxandı. "Heç nə yolunda deyil Nicat. Məni qoruya bilmədin. Heç özüm də özümü qorumaq istəmədim. İndi adidən də adi fahişəyəm. İndi bardan evə yorğun qayıdıb səni dinləmədiyim üçün əzab çəkirəm. Kaş ki, sağ olaydın, məni uşaq kimi danlayaydın. İnan ki, o günlərə bircə anlıq qayıtmaq üçün bütün həyatımdan, yaşadıqlarımdan imtina etməyə hazıram. Nə pul, nə bahalı geyimlər, nə də gözqamaşdıran dəbdəbəli yaşam tərzi sənin kasıb sevgini əvəz eləmir. Bilmədim sənli günlərimin qədrini, bilmədim".

Dodağını dişlərinin arasında bərk-bərk sıxıb ağlamamağa cəhd elədi. Mahnı qurtaran kimi, siqaret yandırdı. Eyvandan sökülən dan yerinə, qızaran buludlara baxdı. Saata baxdı – 7-yə beş dəqiqə qalırdı. Nicat hər gün avtomatik olaraq bu vaxtda qalxır, əl-üzünü yumamış kofe hazırlayardı. Yarıyuxlu kompüteri açıb sosial şəbəkələrə, saytlara göz atırdı. Eh Nicat, Nicat...

Məhəccərə söykənib, qutudan növbəti siqareti çıxardı. Tüstü boğazını yandırırdı. İndi yadına düşdü ki, dünən axşamüstü yediyi yeməyin üstündədir. Mətbəxə keçib soyumuş çayını təzələdi. Soyuducunu açıb meyvə çıxardı. Ayaqüstü sərin meyvələrin hərəsindən bir az dadıb ağzındakı acılığın keçməsini gözlədi. Yavaş-yavaş özünə gəldi və hiss

elədi ki, gümrahlaşır. Çayını götürüb otağa keçdi. Yatağa uzanıb telefonu əlinə götürdü. Dünəndən vaxt tapıb oxumadığı SMS-lərə göz atdı. Yenə də Elxan...

"Bu əclaf lap ağını çıxarıb. Oğraş elə bilir ki, ağzına gələni yazmaqla məni yoldan çıxaracaq. Nicat sağlığında həmişə səninlə məzələnirdi. İndi də sən onun haqqında roman yazmaq istəyirsən. Bu da taleyin növbəti ironiyası."

SMS-ləri telefonundan silib üzünü yastığa sıxdı. Yorğun olsa da, yuxusu qaçmışdı. Nicatın cingiltili səsi qulaqlarına gəldi. "Toppuş, evdə tək olanda pəncərəni bağla, kürəyini açıq qoyma. Yorğana bərk-bərk bürün."

Könül özünü saxlaya bilmədi. Hönkürdü...

*Bu məqamda Könülün hönkürməsi bir müəllif kimi məni də kövrəltdi. İt qızı, it...*

# 11

**"Bir kişilə xoşbəxt olmaq istəyirsənsə, onu anla, sevməsən də olar. Bir qadınla xoşbəxt olmaq istəyirsənsə onu sev, anlamasan da olar."**

**Paulo Koelyo**

Günlər bir-birini əvəz elədikcə Nicatın ölümü unudulurdu. Dostları onu çox nadir hallarda xatırlayır, yada salırdı. Könülün isə vəziyyəti tam fərqliydi. Hər gün daha çox əzab çəkdiyini, darıxdığını hiss edirdi. Nicatın geniş sinəsinə başını söykəyib yatdığı günlərin xatirəsi gözlərinin qarşısından getmirdi. Bəzən saatlarla yan-yana uzanıb susduqlarını xatırlayırdı. Hər sevişmədən sonra bir-birlərinə sarılıb yatmaları sanki illər əvvəl baş vermişdi. Nə Nicata qədər, nə də Nicatdan sonra bu qədər xoşbəxt olmamışdı. Ya da ona elə gəlirdi. Bütün insanlar kimi itirdiklərinə sonradan qiymət verməsi onu çox incidirdi. Yan-yana yatmağın niyə bu qədər rahatlıq gətirdiyini özü üçün açıqlaya bilmirdi. Amma çox rahat idi.

Nicatı xatırlamaq əzab verirdi. Həqiqətən də əlində olanın qiymətini bilməmişdi. Üstəlik onu əbədi olaraq itirmişdi. Onunla birlikdə xoş günlərini, rahatlığını, xoşbəxtliyini itirmişdi. Bir vaxtlar Nicatdan ağızdolusu danışan dostlarının indi onu unutması və intihar etmiş bir dostun keçmiş sevgilisini ələ keçirməyə çalışmaları da onu narahat edirdi. Bu qədər insafsızlıq gözləmirdi. "Axı bunlar hamısı ədəbiyyat adamıdır. Nicatla birlikdə onların həyat haqqında dərin və mənalı fikirlərini çox dinləmişəm. Hətta çoxusu

mənə "bacı" deyirdi". Könül nə baş verdiyini anlamağa çalışırdı. Hələ Elxan Daşdəmir... Gijdıllağ özünü yazıçı hesab edir. Bir ay əl çəkmədi. "Nicatdan danış, sizin sevginizdən roman yazacağam, onun intihar etmədiyini, öldürüldüyünü sübut edəcəyəm"- dedi. Sonra da məlum oldu ki, daha roman yazmaq istəmir. Artıq Nicatın intihar edib-etməməsi onu maraqlandırmır. Nicatın köhnə tanışlarından Türkanı tora salıb. Hərdən bulvarda birlikdə görünürlər. Amma deyəsən Türkan da onunla yatmaq istəməyib. Bədbəxt adam, qadınla necə münasibət qurmaq lazım olduğunu bilmir, amma sevgi romanı yazır.

Könül Nicatla ayrıldıqdan sonra yaşadıqlarını xatırladı. Nicat onu hamıdan qorumağa çalışırdı. Əri ilə ayrıldıqdan sonra ərinin bütün dostları onu ələ keçirmək üçün yarışa girmişdi. Könül əsl Şərq qadını idi və bu Şərq adlı xarabada kök və dul qadınlar hər zaman cazibədar hesab olunur.

Mühafizəkar mühitdə böyümüşdü. Könül əvvəllər hicab bağlasa da, sonradan namaz qılmaqdan, oruc tutmaqdan bezmişdi. Ərinin dostlarına qoşulub içməyə başladığı günləri həmişə nifrətlə xatırlayırdı. Anlaşılmaz bir istək onu içkiyə, siqaretə doğru itələyirdi. Nicat isə onun içməyini istəmirdi.

"Yox, bu xatirələr mənim sonuma çıxacaq. Gərək Orxanla görüşüm. Deyəsən o da fikrindən dönmək istəmir. Danışsam həm özüm rahat olaram, həm də Orxana faydam toxunar. Ya da heç olmasa müvəqqəti olaraq başını qatım..." Könül özüylə danışa-danışa Orxanın vizit kartını çıxardı. Səbirlə nömrəni yığdı. Telefonda Orxanın yorğun səsi eşidildi.

– Buyur Könül.

– Necəsən doktor, narahat etmədim ki?

– Yox, nə narahatlıq. Axı sənə demişdim ki, istədiyin vaxt mənə zəng edə bilərsən. Səhhətin necədi? "Xəyalət məsələsi" nə yerdədir?- Orxan Könülün bir neçə ay əvvəl yaranmış narahatlığını yada saldı.
– Çox sağ ol, doktor. İndi özümü çox yaxşı hiss edirəm. Qərar verdim ki, danışım. Amma təkcə Nicatla olan münasibətimi yox, bütün yaşadıqlarımı danışmaq istəyirəm. Toparlanmağa, düzgün qərarlar verməyə ehtiyacım var.

Həftəsonu görüşək. Keçən dəfə dediyin söz mənə çox təsir etdi: "Sadəcə heç bir gözləntisi olmayan xoşbəxtlər və ümidini itirmiş çarəsizlər danışmaqdan imtina edə bilər". Mənim durumum hansına uyğun gəlir bilmirəm, amma danışmaq istəyirəm.
– Hər halda bu sənin özün üçün faydalı olacaq, zənnimcə. Mən psixiatram və həvəskar şəkildə psixoanalitika ilə məşğul oluram. Hər halda səni ümidsizlikdən və ruh düşkünlüyündən xilas etmək istəyirəm. Bəlkə də romanımızın qəhrəmanı Nicatın intihar səbəblərini də tapa bildik.
– Roman???
– Nə isə... Gör nə deyirəm, neçə gündür Nicatın illər öncə yazdığı intihar cəhdləri haqqında yazıları oxuyuram. Dəfələrlə intihara cəhd edən adamın nəhayət ki, bu işi bacarmaq, intihar etmək ehtimalı böyükdür. Üstəlik 10 il öncə Nicata qoyulmuş qəribə diaqnozu əldə etmişəm, "İsterik aksentləşmiş şəxsiyyət". Bu diaqnozu təxminən 10 il əvvəl, hərbi hospitalın baş psixiatrı qoyub. Artıq bütün ehtimallar onun öldürüldüyünü inkar edir.
– Məncə qərar verməyə tələsmə. Mənim şübhələrim var.
– Yox, mən qətiyyən tələsmirəm. Ümid edirəm ki, araşdırmalarımın bir nəticəsi olacaq və vicdanım rahat şəkildə Nicatın qəbrini ziyarət edəcəm.

– Doktor, söz ver ki, məni də onu ziyarət etməyə aparacaqsan.
– Əlbəttə. Araşdırmalarımız bir nəticə versin, sonuc əldə edək, mütləq! Amma öncə onun ölüm səbəblərini bacardığım qədər daha dərindən araşdırmalıyam. Əgər intihar edibsə, səbəblərini, öldürülübsə, qatilini tapmalıyam.
– Elə isə həftə sonu görüşürük!
– Gözləyəcəm! Hələlik!

Könül Orxanla danışdıqdan sonra azacıq da olsa rahatladı. Nicat ondan ayrılandan sonra çox çətin günlər yaşamışdı. Romanda onun qəhrəman kimi peyda olmağı təsadüfi deyildi. Ayrıldığın qadını bir yolla bitirmək lazım gəlir. Ya şeirlərdə, ya hansısa yazıda, ya da içki şüşələrinin dibində... Könül olanlarda özünü günahkar hiss edirdimi? Bunun bizə qəti dəxli yoxdur. İnsan sevir, yorulur və ayrılır. Bildiyimiz odur ki, həyat onun üçün də xoş keçməyib. Ağrıları, əzabları çox olub. Deməli, təkcə bir şairin ölümü yox, bir yüngül əxlaqlı qadının da hekayəsi oxucuya maraqlı ola bilər...

# 12

**"Qadın anlamaq üçün yox,**
**sevilmək üçün yaradılıb".**
**Oskar Uayld**

Şənbə günü Könül yenidən Orxana zəng elədi. Nicatın çox sevdiyi gürcü kafelərindən birində görüşməyə qərar verdilər. Hazırlaşmağa başladı. Axşam səkkizə qədər vaxtı vardı. Bara vaxtında getməyəndə söz-söhbət yaranırdı. Müştərilərin çoxusu onu arzulayırdı. Əvvəlcə müştərinin ciblərini yaxşıca ″təmizləyib″- viski, Red Bull sifariş edir, hesabı müştəriyə "yüklədikdən" sonra onu ya tanış saunaya getməyə razı salır, ya da qiymət oxuyub yola verirdi. Bu "bazarlıq"da saunanın, bar sahibinin və taksi sürücüsünün xüsusi qazancı, Könülün isə müəyyən faizi olurdu. Bədənini satan Könül olsa da, ondan başqa hamı yaxşıca qazanırdı. Bu, bar fahişələrinin oxşar taleyi idi...

Nicatın sağlığında kiçik mübahisələri düşmüşdü. Nicat ayrılmağı təklif edəndə Könül özündən çıxmış, səbəbsiz yerə onu fahişə olacağı ilə hədələmişdi. Nicat Könülün bu qəfil hədə-qorxusundan əvvəlcə əsəbləşmiş, sonra uşaq kimi ağlamışdı. Könülə qəribə görünmüşdü bu dəli-dolu oğlanın uşaq kimi ağlamağı. Sonra ona verilən dəyəri başa düşmüşdü Könül... Nicatın boynunu qucaqlayıb sakitləşdirmiş, bir daha belə danışmayacağına söz vermişdi. O gecə Nicat ona fahişələrin işgəncəli həyatından, bir-birindən fərqlənməyən hekayələrindən danışmış, Könül heyrətlə onu dinləmişdi. Qorxmuşdu. Diksinmişdi. Nicata söz vermişdi ki, nə olur olsun, belə iyrənc həyatı seçməyəcək.



Ancaq Nicata verdiyi sözü tuta bilməmişdi... 3 gün pulsuz qalan kimi nəinki bu barədə düşünmüş, hətta heç nə fikirləşmədən evlərinə yaxın barların birinə yollanmış, qarşısına çıxan ilk müştərinin təklifini qəbul etmişdi. Sonra isə bar sahibi onu tora salmağı, özünə borclu etməyi bacarmışdı. Könülə elə gəlirdi ki, bu işlə məşğul olmağa məcburdu.

*...İcazə verin bu məqamda zəruri bir fikiri sizinlə bölüşüm. Əslində Könülün bar fahişəsinə çevrilməsi uzun prosesdir. Yenə belə tez-bazar nəql eləməyimə baxmayın. Bu çox ağır və kədərli hekayədir. Müəllif olaraq bu qədərini yetərli hesab etdim. Oxucunu sonsuz kədərə qərq edib yükləmək insafsızlıqdır. Amma söz verirəm ki, nə vaxtsa sizə bir fahişənin həyat hekayətini danışacağam. Belə pis çıxmasın, sözümün üstündə duran oğlanam...*

...Deyilən saatda, vədələşdikləri yerdə görüşdülər. Orxan gürcü şərabı və kupati, Könül isə pivə və xaçapuri sifariş verdi. Sifarişləri gələnədək ikisi də susdu. Orxan telefonu qurdalayır, Könül siqaret sümürürdü. Orxan təsadüfən onun çəkdiyi siqaretə baxdı – Nicatın uzun illər istifadə etdiyi populyar marka idi. Orxan ürəyində Könülün bu səfehliyinə istehza elədi...

Sifarişlər gəldikdən sonra Könülün dili çözüldü. Sanki hekayə danışırmış kimi, söhbətə başladı. Orxan söhbətin ağır keçəcəyini anlayıb, Könülün siqaretindən birini götürdü. Söhbətin uzun və təsirli olacağı şübhəsizdi.

... Balacaboy, tösmərək, saçları vaxtından əvvəl seyrəlmiş, ucuz paltarlar geyinən qəribə bir  adamdı. Tanıyırdın...Oturub söhbət edəndə siqareti-siqaretə calayırdı. Danışanda tez-tez sözünü yarıda kəsib siqaret yandırar, aradakı

fasilədə isə heç kəs danışmazdı. Maraqlı və səlis danışırdı. Narazı uşaq səsinə bənzəyən cır səsi adamın əsəblərini qıdıqlayırdı. Nicatı yaraşıqlı kişi hesab eləmək olmazdı, özün də bilirsən. Amma xarizmatik görkəmi vardı. Bir az rəssamlara, bir az da avaralara bənzəyirdi. Baxışları bir yerdə qərar tutmurdu; gah həmsöhbətlərinə, gah tavana, gah da yarımçıq içki şüşəsinə baxardı.

Əvvəllər heç fikir verməmişdim, amma sonra hiss elədim ki, içəndən sonra gözlərimdən gözünü çəkmir. İndi adını unutduğum gecə klublarının birində tanış olmuşduq. Ailəvi tanışlarımız çox olduğundan, ilk günlər o qədər də diqqətimi çəkməmişdi. Amma ərimin onunla söhbəti tutmuşdu. O da mənim zavallı ərim kimi, uşaqlığını ağır keçirmişdi və bu barədə danışanda gözündəki kədər daha da dərinləşirdi. Ərimlə münasibətləri olduqca yaxşı idi. Hətta deyərdim ki, ərim onun söhbətləri üçün sino gedirdi. Tez-tez evə dəvət edirdik. Çəkingəndi və bizdə özünü utancaq uşaq kimi aparırdı. Corabı çox vaxt deşik olurdu və bu deşikdən görünən baş barmağını ciddi-cəhdlə gizlətməyə çalışırdı. İçəndə çox danışırdı və tez-tez gözlərində yaş parıldayırdı. Lənətə gəlsin, deyəsən gözləri çox xoşuma gəlmişdi...

Kədərli, üzüntülü, illərin yorğununu xatırladan, hər şeydən bezgin adam idi, ya da mənə belə gəlirdi. Amma inanın, gözləri çox gözəldi...Qalın şüşəli eynəyinin altından qəhvəyi gözləri uşaq məsumluğu ilə elə parıldayırdı ki, onlara bir neçə saniyədən artıq baxa bilmirdim.



Arağı su kimi içirdi və qətiyyən üz-gözünü turşutmurdu. İçkiyə yenicə başlayan ərimlə müqayisədə, gec səxoş olurdu. Ərim işinin xarakterinə uyğun olmayacaq dərəcədə zərifdi. Üstəlik sısqa və çəlimsiz görkəmi ilə onun yanında çox solğun görünürdü. İçkiyə dözümlülüyü yox idi. İkinci qədəhdən sonra başını stola qoyub yatırdı. Ancaq Nicat başqa idi. Araq, viski, çaxır... Onun üçün bütün bu içkiləri içmək adi meyvə kokteylini içmək kimi asandı. Sərxoş olanda isə daha çox siqaret çəkər, bəzən səbəbsiz yerə ağlayardı. Ağlayanda uşaqlaşırdı. Düzünü deyim ki, ağlamağı, özünü gücsüz, zavallı, bacarıqsız aparmağı xoşuma gəlmirdi. Mətbuatda sərt və kəskin tənqidi yazıları çap olunurdu. Onun necə xarakterə malik olduğunu sən də bilirsən.

O da bizim oturub-durduğumuz etirazçı gənclərə qoşulmuşdu, təşkilatımızın üzvü idi. Onlar inqilab edəcəklərinə səmimi qəlbdən inanırdılar. Təşkilatın əsas üzvləri oxumuş, həyatdan nə istədiklərini müəyyənləşdirmiş insanlar olsa da, arada valideynlərindən küsmüşlər də aramıza qatılırdı. Həyatda özünü tapmamış yeniyetmələr, özünü təsdiq üçün əldən-ayaqdan gedən gənclər də sıralarımıza yol tapırdı. Bütün bunları o da tənqid edir, amma onlardan uzaqlaşmırdı.

Bəzilərini ancaq bakirə olmayan qızlar, içki və əyləncə maraqlandırırdı. Çoxları "azad seks", "seksual inqilab" barədə danışanlara istehza edir, bu barədə danışanları əxlaqsız və mənəviyyatsız hesab edirdi. Nicat danışanda məni gülmək tuturdu. Çünki hiss edirdim ki, onu da daha çox azad qadınlar, içki düşkünü gənclər maraqlandırır.

Nicatdan əvvəl bu təşkilata üzv olmuşdum. Ərim də bizim inqilab arzularımıza isti münasibət bəsləyirdi.

Polis, yəni qardaşım ərimin bu təşkilatda olmağına yaxşı baxmırdı. Hər dəfə bizə gələndə saatlarla bu mövzuda danışır, mübarizə aparmağın mənasızlığı barədə saatlarla mühazirə oxuyurdu. Ərim də qardaşımı dinləyir, onun sözlərinə bir o qədər önəm vermirdi. Sanki bildiyi böyük bir həqiqət vardı və o bu həqiqətə inandığı üçün susurdu.

Ərim idarə etdiyi özəl firmanın gələcəyindən qorxduğu üçün bizə rəsmi olaraq qoşulmurdu. Amma maliyyə məsələlərində dəstəyini əsirgəmirdi. Bütün sirlərimizi bilirdi. Əslində bizim heç bir sirrimiz yox idi. Sadəcə uydurduğumuz əfsanələr vardı və bu bizə sirli görünürdü.

Bu təşkilatda bacardığım yeganə işlə məşğul idim. Təşkilatın bütün maliyyə hesabatlarını mən hazırlayırdım. Sözün düzü həyatda özünə yer tapa bilməyən bu gənclərlə birlikdə olmaq, içmək, əylənmək və üzdə özünü ərimə yaxın göstərən gənclərin gizlində mənə eşq elan etməsi, yatmaq təklifləri xoşuma gəlirdi. Xaricdə təhsil almış, ədəbiyyat oxumuş gənclər bizim sıralarımıza qoşulur, beləliklə həm oxuduqlarından danışmaq, azad görünən qızlarla içmək, həm də yatmaq imkanı qazanırdılar. Bu ölkədə, bu boz şəhərdə onların yeganə şansı müxalifətçi olmaq idi...

Mühafizəkar bir ailədə doğulmuş, həyatın bu üzünü görməmiş qadın üçün bütün bunlar yaxşı əyləncə idi. Özümü çox fərqli və vazkeçilməz bir qadın hesab edirdim...

Nicatın inqilabi ruhu güclü idi. Danışığı, yaşamı, yazıları...Hərdən cəsarətsiz yazılar yazanda, çıxışlar edəndə özünü qınayır, əzab çəkirdi. Mənə elə gəlirdi ki, o istəsə təkbaşına minlərlə gənci mitinqə, küçə yürüşünə çıxara bilər. Müxalif ruhlu, romantik, bəzən isə kəskin pafoslu, tənqidi, rejim əleyhinə şeirlər yazırdı. Hərdən sərxoş olanda “Yol-

daşlar, mən bir solçuyam və qıpqırmızı bir sol ölkəsində yaşamaq mənim ən böyük arzumdur", - deyə qışqırardı.

Əsəbiləşmək, əlini masaya çırpmaq, içmək və siqaret çəkmək onu çox xarizmatik göstərirdi. Bəlkə də ona yaraşan şeyləri özü bilir və bütün bunları planlı olaraq edirdi. Hər halda çox xoş adam idi."

Könül danışmağa başladığı kimi də susdu. Orxan siqaretini külqabında söndürüb, özünə şərab süzdü.

*(Külqabını xüsusi olaraq qeyd elədim, çünki Orxan çox vaxt siqareti stulun ayağında söndürürdü. )*

– Könül, lap yazıçı kimi danışırsan.

Könül qəribə tərzdə çiyinlərini çəkdi:

– Nicat həmişə mənim savadsızlığıma əsəbləşər, kitab oxumadığıma görə məni danlayardı. İndi hər gecə 50-60 səhifə oxumamış yatmıram. İşim nə qədər ağır olsa da, hökmən oxuyuram...

*Romanın bu yerində sevimli oxucularımı yenidən salamlayıram. Könülün sevə-sevə oxuduğu bütün yazıçılara, xüsusən də gözəl lirik şeirlər müəllifi Xırdagül Nazəninə və Aftandil Qəlbikövrəyə səmimi salamlarımı göndəririrəm.*

Kitabla bağlı təbliğatı, kitaba bağlılığı onu real həyatdan qoparırdı. Xatırlayanda qəhərlənirəm. Bilirəm, çətindi. Amma davam et, çox maraqlı danışırsan. Özümü yazılmaqda olan bir romanın qəhrəmanı kimi hiss edirəm. Qəfildən Orxanın yadına düşdü ki, o elə bu romanın qəhrəmanıdı.

Qayğılı-qayğılı susdu...

Könül siqaret yandırıb, söhbətinə davam elədi:

– Nicatın çoxlu qadın tanışı vardı və adətən oturduğumuz PUB-larda onlarla birlikdə görünürdü. Yanındakı qadınlar heyranlıqla, itaətkarcasına onun qayğısına qalsalar da, rastlaşdığımız vaxtlarda bütün diqqəti məndə olardı. Qadınlara qarşı qəribə bir biganəliyi vardı. Ya da özünü elə aparırdı. Cəlbedici olmayan xarici görkəminə baxmayaraq qadınlara qarşı özünü çox laqeyid aparırdı. Bu özündənrazılığı acığıma gəlirdi. İçəndən sonra yanındakı qızlarla öpüşər, yox, əməlli-başlı yalaşardılar. Bəzən yanındakı qızın koftasını qaldırıb başını içəri soxar, qızın ehtiraslı iniltiləri PUB-ın səs-küyünə qarışardı. Sonra sərxoş gözlərini arsız-arsız mənə dikərdi. Bax, belə anlarda onu qısqanardım. Yox, sözün düzü belə anlarda ona nifrət edər, hətta iyrənərdim. Az qalırdım durub yaxasından yapışıb üzünə tüpürüm. Özümü güclə saxlayardım. Nədənsə hər dəfə o belə dəlilik edəndən sonra ona sadəcə gülməyim gəlirdi. Bu biganəliyi, rahatlığı ilə nəyi sübut etmək istəyirdi? Mənə elə gəlirdi ki, bütün bunları qəsdən edirdi. Çox sonralar isə başa düşdüm ki, onun qadınlara qarşı laqeyidliyi təbiidir. Yəni onu tamam başqa şeylər maraqlandırırdı.

Məndə də az yoxdu. İçəndən sonra ərimdən zəhləm getsə də, Nicatın acığına ona daha bərk sığınırdım. Qollarımı ərimin boynuna dolayır, başımı çiyninə qoyur, təklikdə qalanda iyrəndiyim dodaqlarından bərk-bərk öpərdim. Ərimlə öpüşməyə başlayan kimi, siqaret yandırır, yüngülcə əsən əlləri ilə saqqalını qaşıyırdı. Bu mənə olduqca ləzzət edirdi. Onun əllərini əsdiyini görəndə dilimi inadla ərimin boğazında, qulaqlarında gəzdirər, özümü onun "fahişəsi" kimi apardım. Belə hallarda çox vaxt hansısa bəhanə ilə aradan çı-

xardı. O gedəndən sonra onunla gələn qızlara başqa oğlanlar girişməyə başlayırdı.

Bütün bunlar onun kefini qətiyyən pozmurdu. İçəndən sonra şairlərdən danışar, sevdiyi şeirləri yüksək və əsəbi səslə deməkdən həzz alardı. Bəzən, çox qəribə görünsə də, üzünü göyə tutub ulayırdı. Amma yalnız çox içkili olanda belə edirdi...

Çox vaxt görüşlərimizdə rəfiqəm də iştirak edərdi. O sözün həqiqi mənasında Nicatın fanatı idi. Rəfiqəmin onun özündən də, dediyi şeirlərdən də xoşu gəlirdi. Çünki Gülxar məndən fərqli olaraq az-çox kitab oxumuşdu və onun danışdıqlarını başa düşürdü. Ya da özünü başa düşmüş kimi göstərirdi. Əslində Gülxar kişilərin çoxusu üçün "ölürdü", çünki seksdən doymurdu. Müxtəlif kişilərlə yatandan sonra, oturub saatlarla yatdığı kişilərin penislərindən, hansının uzun, hansının qısa olmasından danışmağı sevərdi. Onun üçün kişilər iki qrupa ayrılırdı, "gec boşalanlar" və "tez boşalanlar". Ən qiymətli kişi tipi isə böyük penisli gec boşalanlar sayılırdı. Bu onun yeganə əyləncəsiydi. Dəfələrlə içkili vaxtı Nicatla öpüşmək, yalaşmaq, sevişmək istəsə də, alınmamışdı. Çünki, Nicatın Gülxardan qətiyyən xoşu gəlmirdi. Hikmətin – mənim gicbəsər ərimin isə Gülxarın yekə götü üçün ürəyi gedirdi. Dəfələrlə görmüşdüm ki, rəqs edəndə qəsdən onun yekə dalına, yoğun budlarına toxunur.

Düzü Hikmətə əsəbiləşmirdim. Atası Sovet vaxtı, Əfqanıstan müharibəsində həlak olmuşdu. Anası isə onu atıb getmişdi. O uşaq evində böyümüşdü. Nə uşaqlığını, nə də gəncliyini yaşaya bilmişdi. Kasıbçılıq, ehtiyac, aclıq ona gənclərə qarışmağa, ürəyi istədiyi həyatı yaşamağa mane olmuşdu. Amma Gülxarın dalından kiçik olsa da, mənim də

dalım balaca deyildi. Hətta Gülxardan daha çox diqqət çəkirdim.

*...Adama deyərlər heç dəxli var? Orxan kimi ciddi personajın oturub Könülün gic-gic söhbətlərinə qulaq asması adamı lap özündən çıxarır. Biz obrazlar arası göt yarışı keçiririk bəyəm? Amma neyniyəsən? Dözmək lazımdı...*

Hikmətlə əmlak bürolarının birində tanış olmuşduq. O zaman Hikmət sakitliyi və çalışqanlığı ilə fərqlənirdi. Mən isə birinci ərimdən yenicə boşanmışdım. Ailəmin qadağalarına baxmayaraq Hikmətin çalışdığı büroda işə düzəlmişdim."

Könül danışdıqca əlləri əsir, səsi titrəyirdi. Orxan onun həyəcanını başa düşürdü. Könül növbəti siqareti yandırmaq istəyəndə Orxan mane oldu:
– Yaman çox çəkirsən, ziyandı. Əgər sənin üçün çətindirsə, danışma.
– Narahat olma, artıq içki və siqaret mənim peşəmə aiddi-, Könül zorla gülümsəməyə çalışdı-Hər halda, fahişələrə yazığı gələn kişilərdən deyilsən.
– Sən mənim üçün qiymətlisən, Könül. Mən həkim-psixiatr, sən isə mənim dünyasını dəyişmiş dostumun keçmiş sevgilisisən. Fahişəlik sonrakı məsələdi. Bu barədə danışmağın, fahişəliyini xatırlatmağın vacib deyil.

Könül qəribə şəkildə əlini yellədi. Yuxusuz gözlərini yumub, başını arxaya atdı. Bir neçə dəqiqə susdu. Onun susqunluğu otaqda dərin və üzücü sükut yaratdı. Ofisiant qız qapını döydü. Orxan onu içəri çağırdı:
– Mənim üçün ağ şərab, xanım üçün pivə.

Ofisiant əlavə sual vermədən otaqdan çıxdı. Sifarişlər masaya qoyulanda Könül gözlərini açdı və pivə bakalını götürüb başına çəkdi. Kafedəki klassik ab-havanı Schubertin "Der Erkönig"i daha da ağırlaşdırırdı. Könül masaya dirsəkləndi. Philippe Sly susdu. Orxan sual dolu gözlərlə ona baxırdı.

# 13

**"Pisi odur ki, qadınsız da yaşamaq olmur,**
**qadınla da."**
**Bayron**

"Nədənsə evliliyimdən danışmaq istəyəndə uşaqlığım yadıma düşür. Bütün bunları Nicata da danışmışam. İstəsəydi bu mövzuda roman-zad da yazardı. Düzü uşaqlığımı başqa vaxt da danışa bilərəm. Bunların Nicatla əlaqəsi yoxdu. Amma danışdıqca rahatlaşıram. Və yəqin etiraz etməyəcəksən. Danışım, ürəyim boşalsın. Kimlərsə bu romanı oxuyanda mənə bir balaca mərhəmətlə yanaşa bilsin.

Çox mühafizəkar mühitdə doğulmuşam. Ağlım kəsəndən problemlər içində olmuşuq. Anam tez-tez xəstələnərdi. Hər dəfə sancıları tutanda atam xəstəxanaya aparar, mən isə nənəmgildə gecələyərdim. Qardaşım məndən böyük olduğu üçün onun heç bir qayğısı yox idi. Bütün günü damların başında quş uçurdurdu. Səviyyəsizin, avaranın biri idi. Elə lap əvvəldən ya qatil, ya da polis olacağı bəlli idi. Cəmi 4-5 yaşım vardı. Anamın köksünə qısılıb, onun qoxusuyla yuxuya getdiyim vaxtlar idi. Saatlarla masanın altında gizlənib ağlayar, anamı istəyərdim. Nənəm məni sakitləşdirmək üçün cürbəcür oyunlar fikirləşsə də, sakitləşməzdim. Hərdən dalıma bir-iki sillə çəkərdi əsəbiləşib. Nənəmi unutsam da, o silləleri unutmamışam.

Məktəb illəri... O illər olmayıb desəm, daha doğru olar. Mənim doğulduğum yerdə qızlar yalnız ZAQS-da nikah şəhadətnaməsinə imza atmağı öyrənmək üçün məktəbə gedirdi. Elə məni də yalnız buna görə məktəbə göndərdilər. Cəmi 5 il. Vur-tut beş sinif oxudum. Məktəb illərimi, məktəb

həyatımı atam oğurladı məndən. Hələ də atama nifrət edirəm. Mənim gələcəyimi, səadətimi, oxumaq istəyimi məhv etdiyi üçün. Məhləmizin qızları bizə yığışıb ərə getməkdən, bakirəlikdən danışanda utanardım. Bu söhbətlər məni qətiyyən cəlb eləmirdi. 13 yaşım vardı və mən həkim olmaq istəyirdim.

Yadımdadı, ilk dəfə 13 yaşımda aybaşı oldum. Məhlədə uşaqlarla oynayırdıq, birdən nəsə baş verdiyini hiss etdim. Qaçdım evə, qorxudan dəhşətə gəlmişdim. Neyləyəcəyimi bilmirdim. Yanlış, ayıb bir şey etmiş kimiydim. Qorxurdum, ailəmdən kimsə bilər deyə. Amma bu lənətə gəlmiş qanı bir şəkildə durdurmalıydım axı...

Güc-bəlayla özümü toparlayıb nənəmə deyə bildim. O isə sevincək məni qarşısına qoyub başladı təlimə. "Deməli, artıq sən böyümüsən, ərə gedə bilərsən. Bundan sonra oturuşuna-duruşuna fikir ver, böyük qızsan, özünü uşaq kimi aparma".

Rəfiqələrimin arzusu ərə gemək, mənim arzum isə həkim olmaq idi. Yatanda gələcək arzularımı düşünüb, sonra yuxuya gedirdim. Məni məktəbdən çıxaranda etiraz edə bilmədim. Etiraz etsəm də heç nə dəyişməyəcək, üstəlik atam döyəcəkdi. Bütün günü xəyallar qururdum. Mənə elə gəlirdi ki, atam nə vaxtsa insafa gələcək. Atam isə gecə-gündüz əziz-xələf oğlunun polis olması üçün pul yığır, onu polis formasında görmək arzusuyla alışıb-yanırdı.

Bədənimdə qəribə dəyişiklər baş verirdi. İndi kişilərin acgözlüklə baxdığı döşlərim yetişməyə başlamışdı. Çanağım böyüyürdü. Hiss edirdim ki, valideynlərim məni tezliklə ərə verib başlarından eliyəcək. Ərə getmək istəmirdim. Bunu dilə gətirmək isə, bizim ailəmizdə üsyan hesab olunardı. Qorxurdum. Valideyinlərim evlilikdən danışmağa başla-

yanda evdən çıxırdım. Amma bilirdim ki, gec, ya da tez bu baş verəcək. Üsyan etməyə isə cəsarətim çatmırdı. Tək və gücsüz idim.

Evlilik... 15 yaşım tamam olmamış atam elçilərə "hə" cavabı verdi və nişanladım. Rəsmi nikaha girməyə yaşım çatmadığı üçün iki il nişanlı qaldım. Toy gecəsindən bərk qorxurdum. Qızlar bunun çox ağrılı olduğunu deyirdi. Ərə getmiş rəfiqələrim isə o gecədən qorxunc əhvalatlar danışırdılar. Hələ birdən bakirə olmasan bütün həyatın cəhənnəmə çevrilə bilər. Çox qorxsam da toy gecəsi Elvin mənə yaxınlaşmadı.

***

… Elvin narkoman və homoseksual idi. İndi düşünəcəksən ki, bütün bunları uydururam. Amma inan ki, səmimi danışıram. Başqaları kimi nə isə uydurmağa ehtiyacım yoxdur. Ailəmdən canımı qurtarmaq üçün onunla evlənsəm də, həyat qarşıma daha betərini çıxarmışdı. Elvin o qədər soyuq və laqeyid idi ki... Evlilikdən sonra mənə toxunmamışdı. Biz toy gecəsindən sonra bacı-qardaş kimi yaşayırdıq. Hətta çırçılpaq soyunub yatağa girəndə də, ehtirasdan alışıb yananda da, qara corablarımı, qara bikinimi, qara busqalterimi geyinib qarşısında yüz oyundan çıxanda da mənə toxunmurdu. Onun üçün bütün bunların maraqlı olmadığını sonralar anladım. Homoseksuallığın nə olduğunu tam dərk eləmirdim. Bizim məhlədə incə davranışlı, özünü qadın kimi aparan oğlanlara "petux" deyirdilər. Belələrini nə sevən olurdu, nə də gizli görüşə çağıran. Elvindəki qız incəliyi ilk günlər çox xoşuma gəlirdi. Yenə deyirəm ilk günlər. Elə xoşuma gəlirdi ki...Amma ilk günlər...

Nə qədər soyuq və həvəssiz olsa da mən seks üçün alışıb yanırdım. Görməmişdim axı...Heç vaxt kişi təması hiss etməmişdim. Onu seksə məcbur eləmək üçün, dəridən-qabıqdan çıxırdım, indi olmasın. İnternetdə porno filmlərə baxa-baxa əlimi ayaqlarımın arasına aparanda xəyalımda müxtəlif kişilərlə sevişirdim. Çox çalışsam da orqazm yaşaya bilmirdim. Düzünü deyim? Heç orqazmın nə olduğunu da bilmirdim. Porno filmlərdə qadınların çığır-bağır salıb axırda susması, məni coşdururdu. Evləndən bir həftə sonra Elvin mənə homoseksual olduğunu etiraf elədi. Bunu anlamağım, dərk etməyim çox uzun çəkdi. Nə edəcəyimi, ona necə kömək edəcəyimi bilmirdim. İkimiz də eyni arzuyla yaşayırdıq.

Bütün günü əzab çəkməsi, uşaq kimi ağlaması mənə təsir etdiyi üçün bu barədə heç kəsə heç nə demirdim. Onu başa düşməyə çalışırdım. Necə davranacağımı bilmirdim. Qadın kimi tələbatlarım vardı və bu tələbatları yanımdakı kişinin ödəyə bilməməsi məni dəli edirdi. Tez-tez mübahisə edirdik. Dalaşırdıq. Aqressiyamla onu özündən çıxarırdım. Sonralar yazığım gəlsə də, acısam da öz hisslərimi boğa bilmirdim. Sevgilisi ilə görüşüb sevişdikdən sonra evə gəlir, telefonu söndürüb bir kənara atır, birbaşa yataq otağına çəkilirdi. Bəzən mənimlə danışmağa da utanırdı. Mənə elə gəlirdi ki, sonuncu çıxış yolum ona kömək etməkdir. İnternetdən, erotik jurnallardan, əlimə keçən tibb kitablarından homoseksuallıqla bağlı oxuyurdum. Artıq bilirdim ki, homoseksualizmin müalicəsi və çarəsi yoxdur. Sən demə uşaq vaxtı "petux" deyib ələ saldığımız insanlar sadəcə bu cür doğulurmuş. Bütün bunları bilə-bilə məni ailəmin cəngindən qurtaran bu insan üçün nə isə etmək istəyirdim. Əvvəllər inanırdım ki, o istəsə bu yoldan qayıda bilər. Yeganə yol, ona ya-

şadıqlarında sərbəstlik vermək, seçiminə görə onu qınamamaq idi. Bütün bunları düşünmədən  edirdim. Sadəcə daxilən rahat olmaq üçün onu incitmirdim. Ondan sadəcə bir şeyə görə zəhləm gedirdi. Homoseksual olduğunu bilə-bilə mənimlə evlənməsi, düşüncəsiz davranması, komplekslər içində çabalaması məni əsəbiləşdirirdi. Özünə hörmət etməməsi isə lap dözülməz idi. Düzü nə qədər savadsız olsam da qarşımdakı insanı düşünməyi bacarırdım. İnsanları anlamaq üçün intellektual olmağa gərək yoxdur. İnsan olmaq kifayət edir.

Elvin qadın salonunda saç ustası idi. Tanınmış, imkanlı, qlamur və populyar qadınlara xidmət göstərirdi. Şəhərin ən gözəl qadınları onun üçün dəli-divanə idi. İncə əlləri, zərif davranışı, nəcib görkəmi qlamur qadınların ağlını başından almışdı. Çox mehriban və şirindil idi. Heç kəsi narazı salmazdı. Bütün müştəriləri onun xoş davranışını, gördüyü işi yüksək qiymətləndirirdi. Hərdən bahalı və tanınmış kafelərdə yemək yediyimiz zaman qadınlar ona yaxınlaşır, kefini soruşur, mənə isə paxıllıq və həsədlə baxırdılar. Amma qadınlara qarşı laqeydliyi, cinsi seçimi mənə məlum olduğu üçün onu qısqanmırdım. Bir də, axı qısqanmaq üçün sevmək də lazımdı. Mən isə Elvini sevmirdim. Əvvəllər ona nifrət etdim, sonra isə yazığım gəlməyə başladı. Bəli, kişi üçün dünyanın ən gözəl nemətindən, qadın bədəninə toxunmaqdan və qadınla sevişmək həzzindən məhrum olan ərimə acıyırdım. Onda hələ anlamırdım ki, onun üçün qadın bədənindənsə, kişi bədəni daha maraqlıdı...

… Deyəsən evliliyimizin ikinci ayı idi. Elvin sevgilisi ilə görüşdən gəlib, sakitcə yataq otağına keçmiş, pəncərəni açıb siqaret çəkirdi. Qəribədir, o həmişə az nikotinli, qadın

üçün nəzərdə tutulmuş siqaretlərdən çəkərdi. Ona görə də evdən heç vaxt siqaret qoxusu gəlməzdi və mən ona evdə siqaret çəkdiyi üçün əsəbiləşməzdim. Yeməyinə xüsusi diqqət edər, dieta saxlayardı.

Onun arxasınca yataq otağına keçib, çarpayının üstündə oturdum. Reaksiya vermədi. Həyəcanlı görünürdü. Sakitcə çağırıb danışmaq istədiyimi bildirdim.

Əvvəlcə etiraz etdi. İsrar etdim ki, çox vacibdir və mən səni çox gözəl başa düşürəm. Amma istərdim ki, sən də məni başa düşəsən. Artıq iki aydır evliyik, ancaq sən mənə toxunmamısan. Bilirsən, yaşım az olsa da, bakirə qız kimi yaşamaq istəmirəm. Bu məni narahat edir.

Elvin təəccüblə mənə tərəf çevrildi:

– Bəyəm sən bakirəsən?

Onun bu davranışı məni lap özümdən çıxardı:

– Sən necə bilirdin? Axı mənim həyatımda səndən başqa kişi olmayıb. Ailəmin mühafizəkarlığını yaxşı bilirsən

Elvin suya düşmüş küçük kimi zingildədi:

– Hmm...Mən...mən...

Aciz-aciz mızıldanmağı heç xoşuma gəlməsə də, ona təskinlik verməyə çalışdım.

– Bilirəm bacarmırsan. Heç olmazsa həkimə gedək. Bakirə qız kimi yaşamaq istəmirəm.

– Könül...

– Elvin, xahiş edirəm məni başa düş. Axı, bilirsən ki, bu vəziyyətdə özümü təhqir olunmuş hesab edirəm. Nə vaxta qədər belə davam edəcək?

– Başa düşürəm. Sən məni başa düşdüyün, anladığın kimi mən də səni başa düşürəm. Mənə elə gəlir ki, sən də həyatını yaşamalısan. Sənin də normal seks həyatın olmalıdı.

…Yox, Tanrıya şükürlər olsun ki, çox qorxduğum şeyi demədi. Əgər "ayrılaq" desəydi məhv olardım. Amma demədi.  O başa düşür ki, ondan ayrılsam vəziyyətim çox çətin olacaq. Onsuz da bu barədə ona danışmışam. O bilir ki, ailəmin yanına qayıtmaq istəmirəm. Başa düşdüyünə görə susdum. Sakitcə gəlib yanımda oturdu və boynumu qucaqladı. Saçlarımdan öpdü. Xoşlandığım, görüşmək istədiyim birinin olub-olmaması ilə maraqlandı.

Başa saldım ki, heç kəsdən xoşlanmıram, sadəcə ehtiraslıyam, bütün normal istəklər kimi seks mənim üçün də maraqlıdı. Qadın olaraq o hissləri yaşamaq istədiyimi dedim. Elvin çarpayının bir küncünə çəkildi. Baxışlarını yerə dikib, utancaq qız uşaqları kimi mızıldandı. Heç vaxt ağlıma gəlməyəcək bir təklif etdi.

– Könül, bilirsən səni bu iyrənc həyatla baş-başa qoyub qaça bilmərəm. Birlikdə yaşamağımız düzgün olmasa da, ayrılmağımız da yaxşı düşməz. Əgər qəbul eləsən öz sevgilimi – Akifi səninlə bölüşə bilərəm. Bölüşmək deyəndə ağlına başqa şey gəlməsin. Yəni biləsən ki, Akif biseksualdır və yataqda ikimizi də razı sala bilər. Ümid edirəm xoşuna gələcək. Mən isə nə səni, nə də onu qısqanıram.

Bir anlıq nəfəsim kəsildi. Mənə elə gəldi ki, yataq otağı başıma uçdu. Dəli kimi çığırıb Elvinin üstünə atıldım. Onu var gücümlə vurur, vurduqca çığırır, çığırdıqca sakitləşirdim. O özünü müdafiə etmir, sakit-sakit ağlayırdı. Qəfildən onun yaş dolu gözləri məni tamam sakitləşdirdi. Əllərim yanıma düşdü. Kənara çəkilib çarpayıdan düşdüm və hamama keçdim. Kranı açıb üzümə soyuq su çırpdım. Güzgüdə gözlərimə baxanda dəhşətə gəldim. Olduqca qorxunc və qəzəbli görünürdüm. Sakitləşmək lazım idi. İndi ağlamağa, saatlarla dayanmadan ağlamağa ehtiyacım vardı...

… Bir gün Akifi evimizə dəvət etmək istədiyini dedi. Daha doğrusu fikrini qətiləşdirib mənə də məlumat verdi. Əvvəlcə ağladım, gic-gic hərəkətlər elədim. Qab-qacağı qırmağa başladım. Elvin olduqca sakit bir tərzdə dedi ki, "əgər sənə xoş deyilsə, ayrıla bilərik." Deyəsən bu ikili həyatdan, öz istəklərini gizlətməkdən bezmişdi. Özü kimi, doğulduğu kimi yaşamaq, özünü düşünmək istəyirdi. Nə edə bilərdim? Ev onun idi və Elvin sözün əsl mənasında xilaskarım idi. Hər şeyə tüpürüb getməyə cəsarətim çatmırdı...

...O gecə mənim yanımda "ot" çəkdilər. Evdən gələn qoxudan başım fırlanırdı. Həyatımda hər şey inanılmaz şəkildə davam edirdi. Gözümün qarşısında yataq otağına keçdilər və qapını örtməyi "unutdular". Akif o qədər qızışmışdı ki, Elvinin qısqanacağını belə düşünmədən, mənimlə də sevişmək istədi. Elvin üçün bütün bunların fərqi yox idi. O yaşadıqlarından məmnun idi. Onun üçün baş verənlər əhəmiyyətsiz idi. Öz seksual istəklərinin əsirinə çevrilmiş ərimin, məni sevgilisinə "peşkəş etməsi" məni də narahat etmədi. Öz iyrənc taleyimlə barışmışdım. Elvinin xaraktersizliyi məni çarəsiz vəziyyətdə qoymuşdu. Bilirdim ki, onun girdiyi yoldan geriyə dönüş yoxdur.

Qapının arasından bütün baş verənləri izləyirdim. Akifin israrlı təklifi məni ehtiraslandırmışdı. Hər şey iyrənc və ürəkbulandırıcı olsa da, marağımı boğa bilmirdim. Sözün düzü onların gözümün qabağında sevişməsi məni həyəcanlandırmışdı. Onlar elə ehtirasla, sevgiylə öpüşürdülər ki, yataq otağına nə vaxt girdiyimi, onların başının üstündə nə vaxt dayandığımı xatırlamıram. Qəfildən Akif əlimdən tutub məni yatağa çəkdi. Əvvəlcə etiraz etməyə çalışdım.Onu itələmək, qaçmaq istədim. Lakin Elvindən fərqli olaraq onun qüvvətli qollarından xilas olmaq mümkün deyildi. Kö-

nülsüzcəsinə onlara qoşuldum. Əvvəl çəkinə-çəkinə yekəpər Akifi, sonra isə bir az da qisas hissi ilə ərimi öpdüm. Sonra hər şey ehtirasın diktəsi ilə cərəyan etdi. Yataq otağının ortasında üçümüz də çılpaq dayanmışdıq. Onlar mənim bütün bədənimi yalayır, arada isə fasilə verib öpüşürdülər...

Səhər ayılanda isə onlar qucaqlaşıb yatmışdı. Elvin Akifin qucağında elə büzüşmüşdü ki, bu pozanı dünyanın heç bir qadını öz ərinin qucağında ala bilməzdi. Ürəyim bulandı və gecə olanları xatırlayıb tualetə qaçdım. Mələfədəki qan ləkəsi və qasığımdakı məstedici ağrıdan artıq bakirə olmadığımı anlamışdım. Ömrümdə ilk dəfə yaşadığım ləzzətin ağrısı başımı gicəlləndirirdi. Amma getdikcə peşmançılıq hissi bütün bədənimi bürüyürdü. Dünən baş verənlərin səbəbkarı təkcə ehtiras deyildi, həm də "tüstüyə düşmüşdüm". Tualetin qapısını arxadan bağlayıb, dünən yaşadıqlarımızı düşündükcə özümdən də, onlardan da iyrənirdim. Qusdum. Mənim üçün bütün münasibətlərin, evliliyin də, sevginin də, ailənin də müqəddəsliyi həmişəlik bitdi. O gün hər şeyə qarşı nifrət hissi yarandı içimdə. Hamıdan qisas alacaqdım...elə özümdən də. Əşyalarımı götürdüm və Elvini biryolluq tərk etdim.

Orxanın yarısərxoş gözləri heyrətdən böyümüşdü. Elə mən də bu söhbətləri quraşdıranda xeyli heyrət elədim öz amansız düşüncələrimə. Orxan söhbətin bu yerə gəlib çıxacağını gözləmirdi. Əlini uzadıb Könülün əllərindən tutdu. O hıçqıra-hıçqıra ağlayırdı. Orxan təskinlik verməkdə çətinlik çəkirdi. Yaşadıqları olduqca dəhşətli və iyrənc idi. Doktorun indiyə qədər homoseksual pasiyentləri çox olmuşdu. Amma Elvin kimi xaraktersiz, özünə hörmət etməyən homoseksualla rastlaşmamışdı. O bir həkim kimi, açıq fikirli insan kimi homofob deyildi. Homoseksuallara normal münasibət

bəsləyirdi. Geylərə də, lezbilərə də həssaslıqla yanaşır, bəzən onlara pulsuz psixoloji yardım edir, qayğılarına qalırdı. Bütün bunlara baxmayaraq Könülün yaşadıqlarını çox dəhşətli və anormal hesab edirdi.

Bu qədər gərginlikdə söhbəti davam etdirməyi düzgün hesab etmədi. Ofisiantı çağırıb hesabı istədi. Hesabı ödəyib kafedən çıxdılar və Orxan Könülü evə qədər maşınla gətirdi. Könül onunla vidalaşanda, gözlərində ağır kədər, izaholunmaz hüzn vardı. Bir neçə gün sonra yenidən görüşmək üçün vədələşib, ayrıldılar. Orxan Könülü tanıdığı gündən bu yana ilk dəfə onun gözlərinə baxanda kövrəldi.

# 14

**Həqiqi dostluqdan başqa,**
**bütün münasibətlər müvəqqətidir.**

**Rollan**

Orxan iş masasının arxasında əyləşib, qaynar kofeni ləzzətlə qurtumlayırdı. Qarşısındakı kompüterdə Nicatın bir neçə il öncə saytların birinə yazdığı intihar hekayələrini nəzərdən keçirir, onun ölümlə nəticələnən son cəhdi ilə uğursuz cəhdləri arasında əlaqə qurmağa çalışırdı. Qeyd dəftərçəsini çıxarıb Nicatın xəstəliyi ilə bağlı yazdıqlarına yenidən nəzər saldı. Yazdığı reseptləri bir daha gözdən keçirtdi. Nicatın bu qədər intiharameyilli olmasını anlaya bilmirdi. "İsterik aksentləşmiş şəxsiyyət"- deməli onu həddindən artıq əsəbiləşdirmək, necə deyərlər, incitmək olmazdı. Bu diaqnoz qoyulan xəstə ya tez, ya gec - hökmən intihar edir.

...Əslində bütün bunlar roman üçün yaxşı mövzudur. Birini öldürürsən və intihara meyilli olduğu üçün ölümünə əsaslar tapırsan. Onu xəstələrindən ayırıb, gətirib atmışam bu qarmaqarışıq əhvalatın içinə. Yazıq indi məni söyə-söyə bu hadisələrin içində başını itirib...

Nicatın intihar cəhdlərinə səbəb olan hadisələr müxtəlif və qəribə idi. O yenidən yazılanları gözdən keçirməyə başladı.

*"...İlk dəfə intihara cəhd edəndə 14 yaşım var idi. Uzaq dağ kəndində kasıb müəllim ailəsində yaşayırdım. Problemlər, sıxıntılar evdə söz-söhbəti dərinləşdirmişdi. Özümdən on yaş böyük biologiya müəlliməmi sevirdim və buna görə atam məktəbimi*

*dəyişməyə məcbur olmuşdu. Ailəmizdəki sıxıntılardan əlavə, məni həyatımın ilk qadınından, mənə seksin nə olduğunu anladan, ilk dəfə kişi-qadın münasibətlərinin gizlinlərini öyrəndiyim müəlliməmdən ayrılmışdım. Yeniyetməlik sevgisinin, bağlılığının necə güclü, necə dözülməz olduğunu yaşayanlar yaxşı bilir. Digər bir tərəfdən atamla anam boşanmağa qərar vermiş, hətta otaqlarını da ayırmışdılar. Mən nənəmlə otaqda qalırdım. Bütün yaşadıqlarımdan sonra hər şey bir anda gözümdən düşmüşdü".*

Orxan uzun müddət müalicə etdiyi pasiyentinin qarmaqarışıq həyatını oxuduqca, xəyalında canlandırmağa çalışırdı. 14 yaşında özündən on yaş böyük qadına aşiq olmaq, valideyn münasibətlərindəki gərginlik... Bu olduqca ciddi sarsıntıdır. Amma intihara səbəb olacaq qədər ciddi deyil. Yəqin ki, səbəb tamam başqadır. Bütün bu söhbətlərə görə intihara haqq qazandırmaq, ölüm söhbətini bunlarla bağlamaq olmazdı.

*"...Artıq bir ay idi ki, qadın təması görmürdüm. Həmin məsum gün, dərsdən çıxıb evə gələndə yolumu dəyirmandan saldım. Kəndimizin həmişə dəyirmana yığışıb dartan cayıllarından bir az "ot" istədim. Yaşım az olsa da hörmətimi saxlıyırdılar. Özümə görə hörmətim, çəkim vardı. Sonuncu dəfə pulsuz "ot" verdiklərini xatırladıb gələn dəfə pulla gəlməyimi tapşırdılar.*

*Evdə hər kəs öz işində idi.*

*Atam yenidən anamla mübahisə etməyə başlayanda evdən çıxdım. Evimizin arxasındakı nəhəng gövdəli şabalıd ağacının altında oturub evdən xəlvətcə götürdüyüm almazı dizimin üstünə qoydum. "Ot"u "Winston"a doldurub yandırdım. Tütün qarışdırdığım otun acı tüstüsünü ciyərlərimə çəkdim. Beynim du-*

*manlandıqca qərarım möhkəmlənirdi. Ölmək istəyirdim! Sağ əlimdə par-par parıldayan iti almazı sürətlə sol biləyimə çəkdim...*

*...Qan axdıqca bədənim halsızlaşır, gözlərim qaralır, məni yuxu aparırdı. Başımı şabalıd ağacının nəhəng gövdəsinə söykəyib özümü içimdəki boşluğa buraxdım. Üşüyürdüm…*

*Gözlərimi açanda nənəm başımın üstündə ağlayır, anam əlində qana bulaşmış dəsmala baxıb hönkürürdü. Qolumu sarıyıb məni evə gətirdilər. Həmin gün anamla-atam barışıb öz otaqlarına çəkiləndə qolumdakı yaraların daha çox acıdığını hiss elədim.*

*Bir həftə sonra mən müəlliməmlə əvvəllər oxuduğum məktəbdə, biologiya kabinetində qapını arxadan bağlayıb sevişirdim. Sol biləyimdəki dəhşətli ağrını müəlliməmin çəkdiyi tumar unutdurmuşdu. Və o gündən allahla ilk yol ayrıcımız başlamışdı…"*

Orxan Nicatın ilk intihar cəhdinin səbəblərini analiz etməyə çalışırdı. 14 yaşlı yeniyetmənin seksə olan düşkünlüyü, narkotikə meyli, ata-anası arasındakı münasibətləri qəribə şəkildə analiz etməsi... Bütün bunlar o qədər də inandırıcı deyildi. Orxan uzun müddət qarşısındakı kitabları vərəqlədi. Bu cəhdlə intihar faktı arasında əlaqə qurmağa çalışdı. Siqaret yandırıb pəncərənin önündə dayandı. Valideynləri çoxdan yatmışdı. Onları narahat etməmək üçün ayağının ucunda mətbəxə keçib, külqabını götürdü. Siqareti sonuna qədər sümürüb külqabında söndürdü. Pəncərəni örtüb yerinə qayıtdı və qalın, qara cildli qeyd dəftərini açdı. Dəftərin birinci səhifəsinə qara qələmlə, böyük hərflərlə "NİCAT ASLAN" yazılmışdı. Dəftərin təxminən 20-25 səhifəsində personajın intiharı ilə bağlı qeydlər vardı.

Orxan qırmızı qələmi götürüb Nicatın ilk intihar cəhdi haqqında düşüncələrini yazdı:

“…14 yaşlı yeniyetmənin intihara cəhd etməsində müəyyən ciddi səbəblər açıq-aydın hiss olunsa da, görünməyən bir məqam var. Bu yeniyetmənin, yəni 14 yaşlı Nicatın özünütəsdiq, diqqəti özünə çəkmək istəyidir. Onun yazdıqlarından bu qənaətə gəlmək olar ki, onu sevişdiyi (sevdiyi yox, məhz sevişdiyi. Çünki Nicatı biologiya müəlliməsinə bağlayan sadəcə libidodur) qadından ayırmağa cəhd göstərmələrinə, valideynləri arasındakı gərginliyə görə o özünü diqqət mərkəzində saxlamağa cəhd edib. Narkotik çəkmək, siqaretə aludəçiliklə özünü inandırmağa çalışıb ki, uşaq deyil. Hər halda çox kiçik səbəblərə görə intihara cəhd etməsi anlaşılmazdır.

*Təsəvvür edin ki, bu qeydlər adama necə pis təsir edir. Orxan soyuqqanlı həmkarları kimi, məni əməlli-başlı ələ salıb. Yox əşşi, “intihara cəhd etməsi anlaşılmazdır”. Guya romanda hər şey anlaşılandır?*

Yazdıqlarını təkrar oxuyub, dəftəri bağladı. Yorğunluqdan gözləri qapanırdı. Kompüteri söndürüb, yatağına uzandı.

# 15

**“Ataların günahını,**
**anaların fəzilətini**
**uşaqların simasında görmək olur”.**

**Burje**

Orxan bütün günü özünü əzgin və yorğun hiss etdiyi üçün Könülə zəng etmədi. Həm də zavallı qızı rahat buraxmaq lazım idi. Xatırladıqca əzab çəkməyini, özünü üzməyini istəmirdi. Könül toparlanana qədər Nicatın intihar cəhdləri haqqında yazdığı yazılara yenidən nəzər salmaq imkanı vardı. Vaxtını boşa keçirməmək üçün “qeydlərimi” yenidən təhlil etməyə girişdi. Bu qeydlər birinci cəhddən təxminən üç il sonranı əhatə edirdi:

*“...İmtahan nəticələri elan olunan gün göz yaşlarımı saxlaya bilmədim. Universitetə qəbul olunmamışdım! Bir küncə qısılıb səhərəcən ağladım. Əlavə qəbulda özəl universitetlərdən birininin “beynəlxalq münasibətlər” fakültəsinə qəbul olunsam da atamın təhsil haqqını ödəyəcək imkanı yox idi. Paytaxtdan kəndimizə qayıdanda hiss elədim ki, indi həm də atamla da yolllarımız ayrılıb. Həmin ilin qışında hərbi xidmətə çağrıldım. Utancımdan dost-tanış arasına çıxa bilmirdim. Atam da tez-tez universitetə qəbul ola bilmədiyim üçün məni danlayırdı. Əsəblərim pozulmuşdu. Üstəlik əsgərliyə getməyimə iki ay qalmış, atam evimizin sağmal inəyini satıb xidmət edəcəyim yeri də düzüb-qoşmuşdu. Özümü aktyor kimi hiss edirdim. Yazılmış rolu, verilmiş obrazı canlandırırdım. Həyəcan, ekstrim yox idi. Özümü mənasız, gücsüz avara kimi hiss edirdim.*

*Özümü öldürüb bütün uğursuzluqların əvəzini allahdan və atamdan çıxmaq istəyirdim. Çünki bütün arzularımı allah və atam gözümdə qoymuşdu. Allahdan da, atamdan da incimişdim. Heç birinə inanmırdım..."*

Orxan dostunun atası haqqında hər zaman yüksək fikirdə olduğunu xatırladı. Nicat atasına çox inanırdı. Görünür uğursuzluqlar onu ruhdan saldığı üçün atasına hirsliydi. Allaha olan inamsızlığı isə Orxana tanış idi. Nicat hətta namaz qıldığı vaxtlarda da, Allaha inanmamışdı. Orxan Nicatın psixologiyasını öyrənməyə cəhd edərkən buna əmin olmuşdu. İnancsızlığı onu ümidsizliyə sürükləmişdi.

*"...Sevdiyim qıza vida məktubu yazıb, yüksək dozada yuxu dərmanı qəbul edəndə həqiqətən ölmək istəyirdim..."*

Demək vida məktubu... Yox, Nicat yox... Sən sadəcə yenə də diqqəti öz üzərinə çəkmək istəmisən. Sağlam şüurla uzun-uzadı vida məktubu yazmağa fürsət tapmısansa, deməli ölmək istəməmisən. Çünki ölmək istəyən və affekt halında olan adam vida məktubu yazmağa fürsət tapa bilməz. Sən sadəcə uğursuzluqlarına görə sənə tənə edənlərə qəribə şəkildə etiraz eləmisən.

"İntihar məktubları adətən çox qısa olur. Elə sənin sonuncu məktubun kimi" – Orxan öz-özünə danışdığını başa düşüb susdu.

Üçüncü cəhd... Deyəsən bu hərbi xidmət vaxtı baş verib. Aydındı... Deməli çətinliyə alışa bilməmisən dostum...

*"...Eynək taxdığıma görə məni "professor" çağırırdılar. Heç kəs köhnə əsgərlərin dediyinə "otkaz" edə bilməzdi, ya hər gün döyülməli, ya da "çumo" olub deyiləni eləməli idin. Daha bir yol var idi, satqınlıq. Özümü "ağıllı" aparsam iki seçimim var idi: ya "çumo", ya da satqın olmalıydım. Özümü axmaqlığa vurub hər gün döyülməyi seçdim. Hərbi and qəbul edənə qədər o qədər də döymürdülər. Qaçmaq ehtimalı hamısını narahat edirdi. Hərbi and qəbul edib bölüklərə bölündüyümüz gün axşam bütün gənc əsgərləri sıraya düzüb "eşşək sudan gələnə qədər" çırpdılar. Səhərisi gün hərə öz yolunu seçmişdi. Bütün çətinliklərə baxmayaraq xidmətə davam edirdim. Arxamca gələn, mənə baş çəkən demək olar ki, yox idi. Köhnə əsgərlər tərəfindən təxminən 10 gün ardıcıl döyüldükdən sonra özüm haqqında fikir formalaşdırmışdım.*

*"Professor möhkəm uşaqdı sınmadısa, satmadısa daha dəyməyin." Daha köhnə əsgərlər məni "kaptyorkaya" çağıranda eynəyimi də gözümə taxıb gedirdim..."*

Orxan gündən-günə artan əsgər ölümlərini xatırladı. Deməli son on ildə heç nə dəyişməmişdi. Bəlkə də xilas etməsələr ordunun növbəti qurbanlarından biri Nicat ola bilərdi.

"Şəhərin göbəyində yerləşən hərbi hissədə xidmət etmiş Nicat bu qədər əziyyət çəkibsə, gör döyüş bölgəsində vəziyyət necə olub". Orxan zabit kimi xidmət etdiyi hərbi hissəni xatırladı. Əsgərlərlə ünsiyyəti az olurdu. Səhhətində problem yaranan əsgəri ən çıxılmaz vəziyyətdə "Tibb məntəqəsi"nə gətirirdilər. Adətən Orxan bütün xəstələrini hospitala yazırdı. Çünki xidmət etdiyi hərbi hissədə, xəstəyə vermək üçün ağrıkəsici belə tapılmırdı. Ordudakı ölümlərin sürətlə artmasının, atəşkəs qurbanlarının çoxalmasının sə-

bəbləri ordudakı nizam-intizamsızlıq, rüşvət və "dedovşina" idi. Dostu bu qısa hekayədə ordunun vəziyyətinə işıq tutmuşdu.

*"...Vəziyyət çətin olduğu üçün, hamı yüngül və rahat yer arzulayırdı. Zabitlər üçün çayxanaya göndəriləndə sevincimdən uçurdum. Zabit çayxanasında işləməyimdən narazı olan bir adam var idi: tağım komandirim-sallaqbığ gizir. Həm bu yerə görə pul qopara bilməmişdi, həm də rəislərdən xəlvət görüşdüyü sevgilisi çayçı Cəmiləni mənə qısqanırdı. Cəmilə 39-40 yaşlarında, gözəl-göyçək qadın idi. Zabitlərin çoxusuyla yatsa da bizim tağım komandiri onu sevirdi. Həm də ciddi-ciddi sevirdi. Bəzən onun yanında gecəliyirdi. Cəmilə o qədər də sakit qadın deyildi. Hərdən xoşuna gələn əsgərləri şəhərin mərkəzindəki evinə dəvət edir, yaxşı pul alırdı. Amma məni də çox istəyirdi. Hərdən ona şeir oxumağım, romantik əhvalatlar uydurub danışmağım çox xoşuna gəlirdi. Cəmilə ilə eyni otaqda oturmağım, onun sevimlisi olmağım tağım komandirimi cırnadırdı. Döyülməyə, əziyyətlərə dözsəm də gizirin hər addımbaşı məni sıxışdırmasından, dalbadal gecə növbələrinə göndərməsindən əsəblərim tarıma çəkilmişdi. Gizirlə düşmənçiliyin dərinləşdiyi günlərin birində Cəmilə məni evinə dəvət elədi. Həmin gün hava qaralanda aradan çıxdım və gözəl Cəmilə gecəni səhərə qədər əsgərliyin ağrı-acısını canımdan çıxardı.*

*...Yaz günəşinin yandırıcı istisində, başımda əleyhqaz stadionda qaçanda anladım ki, böyük səhv etmişəm. O gün dərk elədim ki, bu dünyada heç bir həzzi doyunca, iztirabsız yaşamaq mümkün deyil. Daha dünya dağılsa da, gizirlə münasibətlərimiz düzələn deyildi.*

*Axşam sıraya düzülüb yeməyə gedəndə gizir məzələnməyə başladı. "Professora görə döyüşə!"- deyə komanda verir, bütün ta-*

*ğıma mənə görə süründürürdü. Kazarmada ən azı yüz dəfə "Yat-Qalx" komandası əsgərlərin canını boğazına yığırdı. Səhər "Qalx!" komandasından sonra gizir tağıma o qədər əziyyət vermişdi ki, hamı qulağım eşidə-eşidə məni söyürdü.*

*Gizirlə haqq-hesab çəkməyə qərar verməyim bir an çəkdi. Dəmir parçasını götürüb gücüm gəldikcə təpəsinə çırpdım. Tösmərək gizir kökündən kəsilmiş ağac kimi yerə uzandı. Hava işıqlananda giziri tibb məntəqəsinə, məni də qərargah rəisinin otağına apardılar. Cinayət işi açacaqdılar. Səfehcəsinə düşünürdüm ki, bir yolum var o da intihar etmək.*

*Kazarmanın arxasında keçdim. Siqaretimi yandırıb əlimdəki ülgücü sol biləyimə çəkdim..."*

"Dəhşətdir" – Orxan fikirləşdi. Nicat orduda düz dörd dəfə intihara cəhd edib. Hər cəhddə şiddət, "dedovşina" və zabit özbaşnalığının izləri var. Cəhdlər artıq "isterik aksentləşmiş şəxsiyyət" diaqnozuna uyğun gəlir. Bu diaqnozu məhz hərbi xidmət zamanı qoyublar. Mənə elə gəlir ki, Nicatın intihar cəhdlərini diqqətlə araşdırıb, ordudakı intiharlarla bağlı müəyyən fikirə gəlmək olar. Zamanında mətbuatda çap olunan bu yazılar nədənsə heç kəsin diqqətini çəkməyib.

Orxan qara cildli dəftərə tələsik qeydlər edib, örtdü. Ayağa qalxıb otaqda var-gəl etməyə başladı. Olduqca çətin bir işin altına girmişdi.

İşə salmışam yazıq həkimi. İndi yüz faiz məni tanıdığı günə nifrin yağdırır. Müvəffəqiyyət qazana bilməsi isə sual altında idi. Daha doğrusu qəfildən peyda olduğu bu romanda uğur qazanmağı məndən asılıydı.  Deyəsən geri çə-

kilməyəcəkdi. Axı, mən onu təsadüfi seçməmişəm... Ya şairin qatilini, ya da intihar səbəbini tapacaqdı. Onu da qeyd edim ki, Elxanın romanı üçün Nicatın qətlə yetirildiyini sübut etmək onun məqsədlərinə aid deyildi.

*Elxanı romanın bu yerində qəsdən süjetdən uzaqlaşdırıram. İstəsəm onu adi tikintidə işə qoyaram, amma qoy gedib başqa işlərlə məşğul olsun. Yumşalsam, bəlkə ona başqa məşğuliyyət tapdım. Sadəcə doktorun əziyyət çəkməsini vicdanım qəbul etmir. Kefimə düşsə Elxan üçün yaxşı bir xalaşka da tapdım bəlkə. Özüm ölüm hə, öz əlimdə deyil?*

Qoy doktorun yeganə məqsədi bu dağınıq faktlar arasında çabalaya-çabalaya ölümə gedən yolu axtarıb tapmaq olsun...

# 16

**“Biz ölümü gözə aldığımız üçün,**
**hərbi xidmətə gedənlərdənik.”**

**əsgər gündəliyindən...**

Orxan dostunun hərbi xidmət boyunca yaşadıqlarını yadından çıxara bilmirdi. İki-üç gün dostunun sonuncu alınmayan intihar cəhdi haqqında yazdığı yazını oxumağa həvəsi olmadı. Orduda baş verən vəhşiliklər və əsgər ölümləri bir-bir gözünün önündən keçirdi. Könüldən də bir xəbər çıxmadığı üçün, saatlarla ordu, öldürülən əsgərlər, çarəsiz valideynlər haqqında düşünürdü. Hər şey bu qədər sadə olmamalı idi. Müharibə şəraitində olan bir ölkədə əsgər intiharları, döyülürək, güllələnərək öldürülən əsgərlər vicdanlı vətəndaş kimi onu narahat edirdi. Doktor ölkəsini çox sevirdi. Az qala hər gün eşitdiyi əsgər ölümləri gecələr yuxusuna girirdi. “Bəlkə də orduya psixoloq lazımdır” – Orxan düşündü. Tez də xatırladı ki, ölkədə təhsilin vəziyyəti çox pisdir. Savadlı psixoloq tapmaq, onları orduyla işləməyə razı salmaq da zülmdür. Bu cür davam etsə düşmən qarşısına çıxaracaq əsgər tapılmayacaq. Hamıda orduya nifrət yaranır.

Ümumiyyətlə ölkədə baş verən hadisələri düşündükcə ruhdan düşürdü. Dostunun intihar etməsinə səbəb də bu ölkə deyildimi? Məsələn, indi fəlsəfi bir romanın personajı kimi kef edə bilərdi. Bəxtindən mənim də bu cür ağır işə girişməməyim, onu gətirib salmışdı intihar söhbətlərinin içinə.

Yaşamağa, sevməyə səsləyən bir insan nə üçün intihar etsin? Yaşatsaydıq bəlkə də ədəbiyyatımıza, mədəniy-

yətimizə faydası toxunardı. Amma imkan vermədilər, daha doğrusu vermədik. Ya elə, ya belə...

"Nicatın ölümündə bu hansısa səfeh məmurun barmağı var. Mən bütün qəlbimlə buna inanıram." – Bax bu cür düşünəcək qədər siyasiləşmək olmaz. Xahiş edirəm mənim romanımı siyasiləşdirməyin. İmkan verin, işimizi görək.

Orxan mətbəxə keçib özünə tünd kofe hazırladı. Bu gecə sonuncu intihar cəhdi haqqında yazını oxumalı, sabah isə Nicatın dostları ilə görüşməliydi. Uzun müddətdi onlardan xəbər yox idi. Orxan özü təşəbbüs göstərmək, Nicatın köhnə dostlarını bir araya gətirmək niyyətində idi. Mən isə buna imkan verməyəm. Çünki, romanı məsuliyyətlə tamamlamaq üçün faydalı işlərlə məşğul olmaq lazımdır. Nicatın dostları istədikləri vaxt görüşür, yeyib-içməyə də vaxt tapır. Qısası, romanda icazəsiz hərəkət edən personajı atacam bayıra. Orxan, yadında saxla ki, heç kəs əvəzedilməz deyil. Səni bir cümləyə aşırdaram. Yerinə də lazım gəlsə Ağabəy Sultanovu dirildib gətirərəm!

Orxan məzlum-məzlum yazı masasının arxasına keçib, komputeri işə saldı. Ana səhifədəki "nicat_aslan" qovluğunu açıb, axtardığını tapdı. Kofedən bir udum içib, üz gözünü turşutdu və səbirlə, beynində ən xırda detalları analiz edə-edə yazını oxumağa başladı.

*"...O gün bərk sərxoş idim. Bütün yaxın dostlara mesaj yazanda da, telefonu söndürəndə də, biləklərimi kəsəndə də ağlım başımda deyildi... O gün yaşamaq üçün bir, ölmək üçün bir neçə səbəbim vardı. Ölmək üçün çoxlu səbəbim olsa da, ölməyə cəhd eləsəm də ölmədim. Görünür həyatımda daha çətin, daha qarmaqarışıq günlər olmalı, daha çox əzab çəkməli və bu sətirləri yazmalı idim.*

*Sonuncu intihar cəhdim... daha doğrusu hələlik sonuncu intihar cəhdim haqqında yazmaq qərarına gəldiyim an kənddəki evimizdəyəm. İlk dəfə intihara cəhd elədiyim şabalıd ağacının altında bir siqaret çəkib, ilk intihar cəhdimdən sonra gözlərimi açdığım otaqdayam... Evimiz tamam dəyişib. Uşaqlığım və yeniyetməliyimlə bağlı heç bir iz tapa bilmirəm evimizdə. İllər acımasız davranıb. Bağımızda indi mən əkdiyim meyvə ağacları bar verir. Mənim meyvə dərib yediyim ağacları isə çoxdan doğrayıb odun ediblər. Qızımı bir neçə günlük yanıma gətirmişəm. Bütün həyət onun səs-küyü ilə dolub. Komputer qarşısında oturub onun şən səsindən kövrələ-kövrələ kədərli keçmişimi çözələyirəm.*

*Universitetin III kursunu bitirəndə valideyinlərimin istəyi və israrı ilə evləndim.*

*Onsuz da gec-tez bu olmalı idi, çünki artıq ikinci il idi ki, nişanlanlıydım. Ancaq elə toy gecəsi atamla-anam bizim gərdəyə girdiyimiz otağın pəncərəsi önündə mübahisə etdilər. Mövzu yenə də atamın "gəzdiyi" qadın idi. Elə o gündən həyatımın bütün nizamı yenidən pozuldu. Yeni dərs ili başlayanda şəhərə qayıtdım. Kirayə qaldığım evə yaxın bir internet klub icarəyə götürüb həm oxumağa, həm də işləməyə başladım. Ancaq alınmırdı, həyatımı qurub, işlərimi nizama sala bilmirdim. Üç ay içində xeyli ziyanla evimizə-kəndə qayıtdım. Bacım yenicə ailə qurmuşdu.*

*Toydan sonra atamın da xeyli borcları olduğu üçün dekabr ayında ümidsiz bir halda bizə – mənə və həyat yoldaşıma qapını göstərdi:*

*– Gedin, həyatınızı qurun, mənim sizin ailənizə baxacaq qədər imkanım yoxdur.*

*Həyat yoldaşım hamilə idi.*

*Əynimizdə yay paltarları avtovağzalda düşəndə ikimiz də soyuqdan tir-tir əsirdik. Onu atasıgildə yerləşdirib ev axtarmağa başladım. Ümidimiz nənəmin 60 manatlıq təqaüd kartı idi.*

*Bir də mənim "zərbəçi" təqaüdüm vardı. İki gün parkda, bir gün də türk dostumun evində qaldım. Dördüncü gün ucuz bir ev kirayələdim və ora köçdük. Yeməyə ancaq yavan çörəyimiz vardı. Bütün imkansız və çətin günlərim baş qaxıncı olmuşdu mənə. Səbir eləməkdən başqa yolum yox idi. Borclarım isə o qədər çox idi ki, onu qaytara biləcəyimi qətiyyən düşünmürdüm.*

*Universiteti bitirməyimə bir neçə ay qalmış jurnallardan birində iş tapdım.Təsadüfən tapdığım iş mənim sonrakı həyatıma da xeyli təsir etdi. Qeyri-ciddi jurnalistika ilə məşğul olan böyük bir şəbəkənin içindəydim. Tərcümə fəaliyyətim çörək pulu qazanmaq üçün yeganə vasitə idi. Universitetdə diplom müdafiəsinə hazırlaşdığım günlərdə qızım dünyaya gəldi. İşlədiyim üçün borclarım azalmışdı."*

...Orxan bu əhvalatları daha geniş variantda eşitmişdi. "Reket" jurnalistlərlə birlikdə çalışmaq, ailəni dolandırmaq üçün həm oxuyub, həm də jurnalistikanı gözdən salan ünsürlərlə birlikdə hərəkət etməyim Orxana pis təsir etmişdi...

..Nicatın yaşla dolmuş gözlərini yadına salanda Orxanı qəhər boğdu. "Tüpürüm belə həyata... Getdikcə əsəblərimə hakim ola bilmirəm. Dəli edəcəklər məni də. Azərbaycanda istənilən insanı küçədə saxlayıb həyat hekayəsini danışdırsan ağlaya bilərsən. Belə də ölkə olar?"

Orxan əsəbi şəkildə yerindən qalxıb siqaret yandırdı. Pəncərəni açanda hiss elədi ki, əməlli-başlı siqaretə qurşanıb. Bu pis vərdişə hər zaman nifrət etsə də, son vaxtlar əsəbiləşən kimi siqaret yandırmağını xatırladı. "Yox belə olmaz", - deyə düşündü. Bu aludəçiliyi yaxşı hesab eləməsə də, yan-

dırdığı siqareti sona qədər sümürüb, pəncərədən aşağı atdı. Sonra uzun müddət həyətdə közərən işığa gözünü dikib saçlarını qarışdırdı. Yenidən yazı masasına dönüb, Nicatın yazdıqlarını oxumağa başladı.

*"...İçimdəki yazmaq həvəsi gündən-günə artırdı. Özümü təsdiq üçün bütün imkanlardan istifadə edir, bacarığımı lazımsız, bəzən də mənasız işlərə sərf edirdim. Əyalətdə ilk tərcümə jurnalını təsis edib cəmi bir nömrəsini nəşr etdirdim. Qəzet təsis edib 10 ay ona rəhbərlik elədim. Hazırlıq kursunda müəllimlik, un dəyirmanında fəhləlik, reklam firmasında koordinatorluq, məhşur folklorşünas alimin yanında tərcüməçiliklə məşğul oldum. İki nəfərə namizədlik işi yazdım, qısa müddət universitetdə çalışdım.*

*Övladımı sağlam və xoşbəxt böyütmək üçün bütün gücümü səfərbər etdim. Kirayədə yaşamağıma baxmayaraq buradakı həmyaşıdlarımdan xeyli yaxşı dolanırdım. İçkini və digər zərərli vərdişləri buraxmışdım. İbadət eləməsəm də dostlarımın əksəriyyəti Məşədi, Kərbəlayi, Hacı idi. Titullu dindarların yanında böyük nüfuzum vardı. Yaxşı qazansam da, işlərim yolunda getsə də, gecə-gündüz Bakıya köçüb, orda yaşamağı arzulayırdım. Bakı xilas olacağım yer idi. Arzulamadığım işlərdən yalnız Bakıda xilas ola bilərdim. Qızım böyüdükcə Bakıya köçmək üçün ciddi planlar qururdum. Qızımın iki yaşı tamam olmağa bir neçə gün qalmış, yenicə açdığım ofisi bağlayıb kəndə, ordan da Bakıya gəldim.*

*Əlimdə olan azacıq pulla Bakıda yaşayan qardaşımla bərabər ev kirayələdim. Gəncədə tələbəçiliyimin müəyyən vaxtını birlikdə keçirdiyim dostum məni qohumlarının mətbəəsində işə düzəltdi. Bir ay reklam meneceri vəzifəsində çalışandan sonra, maaş ala bilmədiyim üçün işdən uzaqlaşdım. Televiziyalardan biri müsabiqə elan etmişdi. Dostların köməyi ilə müsabiqədə iştirak etdim.*

*İlk dəfə idi ki, işlərim belə sürətlə yoluna düşürdü. Qısa müddətdən sonra televiziyada çalışmağa başladım. Bir müddət stajor olaraq çalışdıqdan sonra, televiziyanın bədii rəhbəri məni rəsmi olaraq işə qəbul etdiyini bildirdi. Mənə yaxşı imkanlar yaradacağı vəd olunmuşdu. Uzun müddət Bakıda olsam da, hələ də ailəmi yanıma gətirməyə imkanım yox idi. Həyat yoldaşım məni boşanacağı ilə təhdid edir, mən isə övladım üçün darıxa-darıxa həyatla savaşırdım. İki ay televiziyadan maaş ala bilmədim.*

*İki aydan sonra gördüyüm işin çətinliyinə baxmayaraq mənə çox cüzi maaş təyin etdilər. Elə-belə, siqaret pulu... Gecə-gündüz işləməyimə baxmayaraq aldığım maaş ailəmi Bakıya gətirmək üçün kifayət etmirdi. Bakıya gələndən 4 ay sonra həyat yoldaşım boşanmaq üçün məhkəməyə ərizə verib, mənim yaşam səbəbimlə – qızımla bütün əlaqələrimi kəsdi.*

*Aldığım cüzi maaş siqaretə də çatmırdı. Artıq həyatın çətinlikləri və iradəmin zəifliyi məni rəsmən içki düşkünü eləmişdi. Maaşımın artacağını gözlədiyim ərəfədə məhkəmədən üç dəfə çağırış gəldi. Bakıya köçməyimin 6 ayı tamam olanda boşandım. Daha doğrusu tərk edildim... Rəsmi sənədlər, məhkəmə qərarları, dövlətin qanunları mənə heç zaman ciddi görünməyib. Önəmli olan insani münasibətlərdir. Kişiylə qadın arasında sevgi və sayğı ya var, ya da yoxdur. Heç bir məhkəmə, heç bir qərar buna təsir edə bilməz...*

*Boşanmağımız üçün göstərilən üç səbəbdən biri imkansızlıq, biri isə evsizlik idi. Dəlicəsinə bağlandığım qızımdan ayrı qalmaq, onun uşaqlığına həsrət qalmağım məni darmadağın etdi. Tükənmişdim. Yorulmuşdum. Bezmişdim.*

*Günlərin birində televiziyada ssenari müəllifi olduğum proqram bağlandı. Televiziya rəhbərliyi məni işlə təmin etmək əvəzinə işdən çıxarmağa üstünlük verdi. Səbəbsiz-filansız atdılar bayıra. Əlimdən nə gələrdi ki?*

*Televiziyada çalışdığım günləri indi də xatırlayanda əzab çəkirəm. Cüzi maaşa səhərdən axşamacan işləmək, rayon-rayon, kənd-kənd gəzmək, lazımlı-lazımsız kitablar oxumaq, səviyyəsiz rəhbərlərdən söz götürmək gündəlik həyat normasına çevrilmişdi. Son aylar övladımdan ayrı qalmağım, hər gün artan borclarım məni elə hala salmışdı ki, ancaq ölməyi arzulayırdım. Çantamda gəzdirdiyim sirkə turşusunu dəfələrlə içib intihar eləmək istəsəm də, qızımın gözləri məni rahat buraxmırdı.*

*Hər dəfə şüşənin ağzını açmaq istəyəndə, qızımın günahsız və məsum gözləri məni bu işdən çəkindirirdi. İşdən çıxarılandan iki gün sonra məndə elə bir hiss yarandı ki, artıq heç kəsə lazım deyiləm. Hər səhər evdən çıxanda çantamı yoxlayır, sirkə turşusunun yerində olub-olmamağını yoxlayırdım. Sonra evdən çıxırdım. Qəribə hissdir ölümü arzulaya-arzulaya gündəlik həyata davam etmək. Bəlkə də bu boyda ümidsizliyimin içində xırdaca bir ümid vardı. Bəlkə də özümdən xəbərsiz o əlçatmaz ümidə tutunmuşdum...*

*Şəhərin kənarında kirayə yaşadığım gecəqonduda saatlarla uzanıb tavana baxır, övladımı, onun gözlərini düşünürdüm. Borclarım gündən-günə artırdı. Taleyin qarğışına tuş gəlmiş bədbəxt bir adamdım...*

*...Bütün çətinliklərə baxmayaraq yenidən sevmək üçün özümdə güc tapmışdım. Hamıdan uzaqlaşıb intihara qərar verdiyim günlərin birində sevdiyim qadının telefonun o başından gələn titrək səsi məni fikrimdən daşındırmışdı. "Özünü öldürsən səni heç vaxt bağışlamayacam", - demişdi. Yaşamaq üçün övladım və sevdiyim qadın ən böyük səbəbim olsa da, heç biri yanımda deyildi. Heç birinə əlim çatmırdı. Təkdim. Təklənmişdim. Böyük bir boşluqda, iynə ucu boyda bir ümidə tutunub yaşayırdım...*

*Ev kirayəsini verə bilmədiyim üçün ya internet klubda, ya da qaldığım əraziyə yaxın metro stansiyasının yanında tikintisi yarımçıq qalan dükanda gecələyirdim. Gecələr karton qutuları cırıb özümə yataq düzəldirdim. Üstü açıq, karton qutuların üstündə yatırdım...*

*Savaşa-savaşa hiss edirdim ki, tükənirəm. İşsiz idim. Borclarım boyumu aşmışdı. Ev sahibinə, qonşuluqdakı dükana, dost-tanışa borcum olduğundan gizlənməyə yer axtarırdım. Ölümü elə arzulayırdım ki...*

*Darıxırdım. Qızımı-məni həyata bağlayan o nazlı varlığı görmək istəyirdim. Amma alınmırdı. Bacarmırdım. Əlimdən heç nə gəlmirdi. İnsanın sevdiklərindən bu qədər uzaq, qanı-qanından olan övladının əlçatmaz olması insanı yeyib-bitirir. Tükənmişdim.*

*Çətinliklərlə savaşdığım günlərdə qəzetlərin birindən iş təklifi gəldi. Bu təklifə hava, su kimi ehtiyacım vardı. Yenidən başlamaq arzusu məni bir an da olsun tərk etmirdi. Qəzetlərin birində işə başlayacaq, darmadağın olmuş həyatımı yenidən quracaqdım. Bir yanda yenicə boy göstərən ümidlər, bir yanda isə intəhasız ölüm arzusu vardı..."*

...Orxan Nicatla tanış olduğu günləri xatırladı. Nicat o vaxt fırıldaqçı deputatlardan birinin qəzetində çalışmağa yenicə başlamışdı. Tədbirlərin birində tanış olanda yenicə tanınmağa başlayırdı. Baş tutmayan intihar cəhdindən sonra olduqca gərgin və üzgün görünürdü. Ortaq tanışlarından kimsə ona Orxanla görüşməyi tövsiyyə etmişdi. Bunu çay süfrəsi arxasında çəkinə-çəkinə deyəndə doktor xeyli gülmüş və sonra demişdi: "Narahat olma bəy, o özü də mənim pasiyentimdir. Belə xırda şeylərə görə kefini pozma".

Həmin gün boşanmağından, qızının ayrılığına dözə bilməməsindən saatlarla danışmışdı. Doktor səbirlə onu din-

ləmiş, həm məsləhət vermiş, həm də ucuz və keyfiyyətli bir resept yazmışdı. O gündən tez-tez Orxana zəng edir, məsləhətlər alırdı. Nicatın karyerasında sürətlə irəliləməsində Orxanın da rolu az deyildi. Sonradan dostlaşdığı bu maraqlı insan sağlamlığı üçün əlindən gələni edirdi. Olanları yenidən xatırlayıb təəssüflə başını buladı, yenidən yazıya diqqət kəsildi.

Doktoru indi düşündürən dostunun açıq-aşkar özünü yazması idi. "Cəsarətli adamsan, bəy"- müəllifi düşündü Orxan...

İndiyə qədər oxuduqları intihara zəmin yaradan psixoloji gərginlik olsa da, baş verənlər intihar üçün ciddi səbəb ola bilməzdi. Axı belə kiçik səbəblərə görə niyə özünə qəsd edəsən? Orxan yaxşı bilirdi ki, ölkədə Nicat kimi uğursuzluqlarla qarşılaşan ali təhsilli insanlar çoxdur. Minlərin, milyonların faciəsini bu qarmaqarışıq söhbətlərin içindən görmək çox asan idi...

Bəlkə Amerikada Nicatın yaşadığı çətinliklər intihar səbəbi ola bilərdi, amma onun ölkəsində bütün bunlar adi həyat reallıqları idi. Hətta bütün bunları normal da hesab etmək olardı.

*"...Yeni işim ürəyimcə olsa da, pulsuzluğu burda daha çox hiss edirdim. Tanışlardan aldığım pulla demək olar ki, hər gün içib, evə sərxoş qayıdırdım. Ev yiyəsi kirayə haqqını, dükan yiyəsi və borc yiyələri pullarını, məhkəmə isə alimenti tələb edirdi. İşə düzəldiyimin iki həftəsi təzəcə tamam olmuşdu. Borc alıb qızımla görüşə getdim. Görüşdən sonra qəti qərara gəlmişdim. Nədənsə mənə elə gəlirdi ki, daha ona da lazım deyiləm. Yanında ola bilməməyim bir yana, varlığımı da ona hiss etdirə bilmirdim. Hamı borcunu tə-*

*ləb edirdi. Bütün gücüm tükənmişdi. Ailəmlə bütün əlaqələrimi kəsmişdim. Səbir kasası daşmışdı..."*

Orxan dostunun o günlərdə keçirdiyi gərginliyi bir anlıq gözləri önündə canlandırmaq istədi. İçində qəribə bir ağrı baş qaldırdı. Hiss elədi ki, əlləri əsir. Bu qədər gərginliyə dözmək üçün möhkəm iradə və səbir tələb olunurdu. Zəif iradəli və səbirsiz dostunun bütün bunlara dözə bilməyi mümkün deyildi. Əgər hər şey yazılanlarla üst-üstə düşürsə, faciənin sərhədləri genişlənir... Nədənsə ona elə gəlirdi ki, Nicatın faciələri daha dərin, daha dözülməzdir. Yaşadıqlarının hamısını yaza bilməmişdi dostu...

*"...Bir neçə gündü dükandan nisyə aldığım araqdan içib intihar planları qururdum. Qəribə məşğuliyyətdi intihar planı qurmaq. Məktuba yazıb hazırlamışdım. O gecə isə sevgilimdən başqa məni tanıyan hər kəsə vida mesajı yazdım. Sevgilimi incitmək istəmirdim nədənsə. Qazı açıb, qapı-pəncərəni bağlayıb özümü qazla zəhərləməyə qərar verdim. Təxminən bir saat araq içib, boğulacağımı gözləsəm də heç nə dəyişmirdi. Yastı-yapalaq evin dörd yanından qaz uçub gedir, mənə heç bir təsiri olmurdu. Zəhərlənmək arzum ciyərimdə qalmışdı. Sərxoşluğum artıqca planımı həyata keçirmək üçün qətiyyətim də artırdı. Ülgüc və kəsik-kəsik olmuş biləklərim... Çarpayıma uzanıb yavaş-yavaş ölümü gözləməyə başladım."*

Orxan artıq hövsələsini basa bilmədi. Yerindən əsəbi şəkildə qalxıb, pəncərəyə yaxınlaşdı. Ulduzlar şıltaqlıqla ona göz vururdu. Qəfildən dostu üçün darıxdığını, onun söhbətləri üçün qəribsədiyini hiss etdi. Bəlkə???

Sinəsinə çəkdiyi siqaretin acı tüstüsü boğazını yandırdı. İndiyə qədər ağladığını, necə ağlamaq lazım olduğunu xatırlamaq istədi. Yox, o heç vaxt ağlamamışdı. Onu ağlada biləcək qüvvənin varlığını ağlına belə gətirmirdi. Praqmatik adamdı Doktor... Amma yox, deyəsən ona nə isə olub bu gecə. Yenidən boğazında qəribə gizilti hiss elədi. "Yəqin siqaretdəndir" deyə, acıqla siqaretdən dərin bir qullab aldı. Yanaqlarına yayılan ilıq göz yaşlarının qəribə istiliyini hiss edəndə diksindi. Uşaq vaxtı bağçada yıxılıb əlini əzəndə bu cür olmuşdu. Əvvəlcə yanaqlarına ilıq göz yaşları süzülmüş, sonra hönkürmüşdü. Siqareti pəncərədən aşağı vızıldatdı və əlini üzünə sıxıb hönkürdü...

Neçə müddətdir keçirdiyi gərginlik sanki bu göz yaşları ilə yuyulub getdi. Özünü olduqca rahat hiss edirdi. Yerinə qayıdıb Nicatın yazısının son sətirlərinə göz atdı.

*"...Bayırda narın yağış yağır, külək əsir. Qızım kim bilir neçənci dəfədir yorğanı təpikliyib üstünü açır. Üzündən öpmürəm ki, ayılar. Şəkərburaya oxşayan balaca ayaqlarından öpüb bayıra çıxıram, boz bulanıq səmaya baxıb siqaret sümürmək üçün.*

*"Yaşamak şakaya gelmez"- Nazimin misralarını pıçıldayıram qeyri-ixtiyari..."*

# 17

**“Nədir axı dostluq?**
**Bizi heyrətə gətirən bir söz, illuziya.**
**Xoşbəxt olanda arxanca qaçan,**
**çətin anlarında sadəcə itən bir kölgədir dostluq.”**

**Qoldsmit**

Orxan telefonun zəngini eşitmədi. Çarpayısında yorğana bürünüb yatırdı. Təxminən yarım saatdan sonra yenidən telefonuna gələn zəng onu yuxudan oyatdı. Zəng edən kim idisə Orxanla danışmaqda israrlı idi. Orxan ərincəkliklə yorğanı üstündən kənara atıb ayaqlarını çarpayıdan aşağı salladı. Stolun üstündəki telefonun səsi əsəblərini qıdıqladı. Ayağa qalxıb telefonu götürdü. Tanımadığı nömrədən gələn zənglərə cavab verməyə alışmışdı. Peşəsi bunu tələb edirdi. Bu dəfə də tanımadığı nömrəni görüb kefini pozmadı. Telefonu əlinə götürüb “Yes” düyməsini basdı:

– Buyurun, eşidirəm.

– Salam. Mənə Orxan həkim lazımdı.

Orxan bu səsi harda eşitdiyini xatırlamağa çalışıb, cavab verməyə tələsmədi. Bir neçə saniyə yaddaşını qurcalasa da, səs sahibini tanıya bilmədi.

– Danışan Orxan Fərəclidir.

– Həkim, sizi narahat edən Şahindir. Nicatın dostu. Yəqin ki, xatırladınız.

– Əlbəttə xatırladım, bəy.

– Sizinlə görüşmək, Nicatla bağlı danışmaq istəyirəm.

– Məmnuniyyətlə, bəy. Bir saata ofisdə olacağam, əgər tıxaca düşməsəm. “Caspian Plaza”. Yəqin ki, tanıyırsınız.

– Əlbəttə tanıyıram. Qohumum sizin ofisdə çalışır. Ora yaxın bir yerdəyəm. Bir saat sonra, görüşürük.

Orxan telefonu masanın üstünə qoyub cəld şəkildə komputeri açıb musiqi qoşdu. "Samsara Blues Experiment" qrupunun "Singata mystic queen" musiqisinin sədaları otağa yayıldı. Bir neçə dəqiqə mahnıya qulaq asıb zümzümə edə-edə hamama keçdi. Səhərlər əvvəlcə qaynar, sonra soyuq duş qəbul edirdi. Bu prosedur onu olduqca rahatladır və əsəblərini sakitləşdirirdi. Bu dəfə də eyni proseduru təkrar etdi, dişlərini fırçalayıb qurulana-qurulana otağına keçdi. Geyinib saçlarını daradı və mətbəxdə anasının hazırladığı süfrəyə əyləşdi.

Evdən çıxanda saatına baxdı. "Cəmi yarım saat" – Orxan yüksək və şən səslə dilləndi. "Hələ ki formadayam!"

Orxan maşını işə salıb həyətdən çıxdı. Küçələrdə sakitlik idi. Tıxac olmadığı üçün işə vaxtında çatacağına sevindi.

Vədələşdikləri vaxt Orxan artıq kabinetində əyləşib. Şahini gözləyirdi. Şahin qapını döyüb, nəzakətlə icazə istədi:

– Həkim, gəlmək olar?

– Buyurun, buyurun. Elə sizi gözləyirəm.

Orxan Şahinlə salamlaşıb, ona oturmaq üçün yer göstərdi. Ofisin mətbəxinə keçib Şahinə də, özünə də çay süzdü. Şahin fikirli halda uzun müddət susdu. Nəhayət ki, Orxan sükutu pozdu:

– Bəy, deyəsən Nicatla bağlı danışmaq istəyirdiniz.

– Bəli. Könüllə danışdım bir neçə gün bundan əvvəl. O sizin Nicatla bağlı hansısa araşdırma apardığınızı dedi. Deyəsən roman zad...

– Hə...Belə bir işə düşmüşük... İntihar səbəblərini araşdırıram. Əvvəl elə fikirləşirdim ki, o intihar edə bilməz. Son günlər isə fikirlərim çox qarmaqarışıqdır. Qəti bir qərara gələ bilmirəm. Yazılarını, xüsusilə ölümündən əvvəl yazdığı bir neçə yazını və bir neçə il əvvəl yazdığı "İntihar silsiləsi"ni oxudum. Kənardan necə anlaşıldığını bilmirəm. Amma psixiatr kimi əminəm ki, onun intihar etmək üçün ciddi səbəbləri heç vaxt olmayıb. Kiçik şeylərlə xoşbəxt olan adamı, kiçik səbəblərin intihara sürükləməsi qəribədir. Bütün cəhdlərini araşdırdım, heç bir qeyri-adi detalla rastlaşmadım. Nicat sadəcə axtarışda olan, özünü təsdiq etmək istəyən bir insan olub. Ətrafındakı adamların böyük əksəriyyəti özü kimi həssas və duyğulu insanlardır. Qadınlar isə intihar səbəbi ola bilməz. Daha doğrusu məncə ola bilməz. Bu hələlik mənim subyektiv fikrimdir.
– Həkim, siz neynəmək fikrindəsiniz? Guya bu roman yazılmasa nə olar ki? Niyə dostumuz oturub Hüqo kimi, Balzak kimi, lap elə Şlink kimi roman yazmır?
– Nə bilim, a bəy. Belə məsləhət oldu.
– Könül nə deyir, danışır?
– Yox, son görüşümüzdə hiss etdim ki, narahatdır. Ona düşünmək üçün vaxt vermək qərarına gəldim. Məncə hökmən danışacaq. Bir də onun roman-zad vecinə deyil. Dünyaya kef çəkmək üçün gəlib zalım qızı...
– Allah köməyin olsun, həkim! Düzü, Könül çox qəribə qızdır. Daha doğrusu özünü çox qəribə aparır. Onu Nicatdan əvvəl tanıyıram. Əvvəllər mənə elə gəlirdi ki, ərini dəlicəsinə sevir. Çünki, belə görüntü yaradırdı. Çətinliyi, problemi olanda yanında olmuşam. Nicatla münasibətlərini öyrəndikdən sonra yanıldığımı başa düşdüm. Ümumiyyətlə o qızın həyatdan nə istədiyi mənə maraqlıdır.

– Nicatın ona qarşı münasibəti necə idi? Yəni sadəcə seks üçün birlikdə idilər, yoxsa ciddi nəsə vardı? Bu barədə Nicatdan soruşmağa cəsarət etməmişəm. Bəlkə siz nə isə bilirsiniz?
– İlk günlər hər şeyi məndən gizlədirdi. Tək məndən yox, Könüllə münasibətlərini bütün dostlarından gizlədirdi. Utanırdı. Bəlkə də qorxurdu, çəkinirdi. Könülün ərindən ayrılmasında özünü günahkar bilirdi. Sonra hər şey yavaş-yavaş aydınlaşdı. Könül təzəcə ayrılmışdı. Köməksiz və tək idi. Nicat uşaq kimi onun nazıyla oynayırdı. Hətta bir dəfə birlikdə pal-paltarını götürmək üçün, əri ilə yaşadığı evə getdik. Könül qapıdan çıxana qədər ağladı. Dostumuz da, balaca uşaq kimi ona qoşulmuşdu.

Könül birinci dəfə onu atıb ərinin yanına qayıdanda Nicat bərk sarsılmışdı. Günlərlə evdən çıxmadı, zənglərə, SMS-lərə cavab vermədi. Sanki dünya aşıb, altında qalmışdı. Kor-koranə bağlanmışdı...
– Könül ərindən ayrılandan sonra yenidən onun yanına qayıtmışdı? Bunu necə bacarıb? Bu ki, vicdansızlıqdır. Həm Hikmətə, həm də ona qarşı haqsızlıqdır bu.
– Könül nə istədiyini bilmirdi. Hikmət də, Nicat da onun üçün hər fədakarlığı etsə də, o Hikməti atıb Nicatın, Nicatı tək qoyub yenidən ərinin yanına qayıda bilirdi. Hər şey olduqca qəribə, olduqca inanılmaz şəkildə baş verirdi. Bu qadın üçün "olmazlar"ı aşmaq çətin deyildi.
– Bəy, siz onların münasibətindən necə xəbər tutdunuz?
– Nicat etiraf etdi. O məndən sirr saxlamağı bacarmırdı. Məni böyük qardaşı kimi sevirdi və güvənirdi. Ona görə də məndən heç nə gizlətmirdi. Onun aid olduğu mühitdən uzaq olduğum üçün, mənimlə münasibətlərində daha rahat idi.

– Siz onların münasibətinə necə reaksiya verdiniz?
– Normal. Hər ikisi ağıllı, yetkin insanlar olduğu üçün adi qarşıladım. Düzdür, Könül indiyə qədər də mənim üzümə baxmağa cəsarət etmir, amma mən baş verənlərə normal yanaşmışam. Sadəcə Polisdən- Könülün böyük qardaşından narahat idim. Nicata pislik edə biləcəyindən qorxurdum.
–Siz Hikməti də tanıyırsınız. Necə insandır?
– Olduqca savadlı, bacarıqlı və uğurlu iş adamıdır. Əvvəllər əmlak bürosunda çalışırdı. 4-5 il olar ki, özəl şirkət yaradıb və uğurla həmin şirkətə rəhbərlik edir. Müxalif düçüncəli gənclərə maddi yardım göstərir. Hakimiyyət dairələri onun bu hərəkətlərindən xəbərdar olsa da, hələ ki ona mane olan yoxdur. Yəqin ki, bir gün onu bərk "danlayacaqlar". Amma bir versiya da var, Hikmətin kiməsə "işlədiyini" deyənlər də var. Bircə Könülün qardaşı Hikmətin bu işlərinə aqressiv yanaşır. Amma qəribədir, Hikmət Könüldən ayrılsa da, mən Polisi dəfələrlə Hikmətlə bir yerdə görmüşəm. Yaman bərk və ayrılmaz dostlardır.
– Demək, Hikmət etirazçı gənclərə yardım edir və hələ də Könülün qardaşı ilə ünsiyyət saxlayır?
– Aha. 2 ildir ki, qazancından könüllü olaraq onlara ianə ayırır. Bizim uşaqlar onu qəhrəman hesab edir. Bircə Polislə münasibətləri onu tanıyanlara qəribə gəlir.
– O zaman Nicatın da onunla münasibətləri normal olub. Çünki bildiyim qədər Nicat da müxalif təşkilatın üzvüdür. Etirazçı gənclərlə münasibəti normal olub.
– Bəli, Nicat da, mən də o təşkilatın üzvüyük. Keçirilən əksər tədbirlərə və aksiyalara qatılmışıq. Nicat bir az tənbəl olduğu üçün, çox vaxt tədbirlərdən yayınırdı. Hə, Polislə bir dəfə mübahisələri düşmüşdü, lap çoxdan. Hikmətgilin evin-

də. Sonra özü mənə danışdı ki, Polisin arvadı da onun kirayə mənzilini yaxşı tanıyır.
– Səncə Hikmət və ya Polis Nicatın ölümünə səbəb olacaq addım ata bilərdi? Qısqanclıq, qisas və ya başqa bir səbəb? Özümü dağa-daşa salmayım, düzüm-qoşum, qurtarım bu roman əzabından.
– Məncə yox. Çünki Könüldən ayrıldıqdan dərhal sonra Hikmət müxtəlif qızlarla görünməyə başladı.Pul var, imkan var, yaraşıqda...belə də, çirkin deyil... Polis isə üzdə qəhrəmanlıq etsə də, içiboş adamdır. İndi Hikmətin görüşdüyü qadınlardan biri hamilədir. Ata olmağa hazırlaşır. Yazıq çox sonradan başa düşdü ki, övladının olmamasına səbəb Könüldür. Polis də onunla münasibətləri kəsmir.
– Deməli Könül dünyaya uşaq gətirə bilməyəcək? Ağırdı. Bir qadın üçün bundan böyük dərd ola bilməz.
– Düzü çox qarmaqarışıq məsələdir. Yəqin sizin üçün də maraqlı olacaq. Könül Nicatdan ayrıldıqdan sonra, ona hamilə qaldığını demişdi. Nicatı ən çox bu məqam sarsıtmışdı. Son ana qədər özünü günahkar hesab edirdi. Könüllə yollarını ayırmamışdan öncə bu barədə Könülün rəfiqəsindən soruşmuşdu. Deyəsən Könül rəfiqəsi ilə əlbir olub onu bu yalana inandırmış, abortla bağlı nə isə uydurmuşdular. Onu inandırmaq çox da çətin deyildi. O insanlara bütün varlığı ilə inanırdı. Bütün yalanlara, xəyanətlərə baxmayaraq onu qoruyan böyük inamı idi. Könül ona sonuncu dəfə xəyanət edəndə, o günlərlə özünə gəlmədi. Sonra mənə elə gəldi ki, toparlanmağı bacarıb. Son görüşümüzdə gümrah görünürdü. Yeni romanından parçalar oxudu, müzakirə etdik. Ədəbiyyatdan uzaq olsam da, israrla mənə oxumaq istədiyini dedi. Çox maraqlı gəldi. Qadın xəyanətindən və uğursuz inqilabçılardan yazırdı. Əsərin əsas qəhrəmanı olan qadının xə-

yanəti ilə inqilabın məğlub olması arasında paralellər aparmışdı. İndi bu ideya hardan ağlına gəlib, bilmirəm. Təzəcə başladığı roman daha maraqlı idi.

– Hmm. Demək Könüllə ayrılıqlarının səbəbi xəyanət olub? Bu versiyanı düşünməmişdim. Könülün xəyanəti Nicatın intiharına səbəb ola bilər. Məncə Könüllə yenidən görüşməliyəm. Dərindən araşdırsaq bundan bir şey çıxar.

– Mənim sizinlə görüşməkdə məqsədim də budur. Könül bir-iki aya Moskvaya, dayısının yanına köçəcək. Daha doğrusu bu barədə planı var. Moskvaya getmək istəyi ilə bağlı heç kəsə deməməyimi xahiş edib. Sadəcə sizə deməyi özümə borc bildim. Bəlkə də yalan danışır. Amma doğru da ola bilər. Mən Nicatın ölüm səbəbini öyrənmək üçün bütün gücümlə dəstək verməyə hazıram. Əsas odur ki, faydam toxunsun. Əgər lazım olsa xəbər edin, pul və ya başqa köməklik edə bilərəm. Könül qəfildən yoxa çıxmamış bu məsələni çözsəniz əla olar. Onun çox şey bildiyinə əminəm. Sonrası özündən asılıdır, yaza bilsə yazacaq...

– Təşəkkür edirəm, bəy! Siz həqiqətən də yaxşı və etibarlı dostsunuz. Daha doğrusu mən belə düşünürəm. Nicat isə özü bilər, necə düşünür. Əminəm ki, köməyinizi əsirgəməyəcəksiniz. Bir daha minnətdaram.

– Dəyməz, bu mənim borcumdur. Yaxınlarda Nicatın həyat yoldaşı və qızı ilə görüşməyi düşünürəm. İstəyiniz və boş vaxtınız olsa bərabər gedək. Bəlkə bu səfərin ümumi işə faydası toxuna bilər.

– Çalışacağam sizə yoldaşlıq edim. Mənim üçün də maraqlı olar. Amma əsəblərim bu görüşə hazır deyil. Siz isə, doğrudan çox yaxşı dostsunuz. Qayğıkeş, etibarlı...

– Mən Nicatın xanımı ilə görüşüb onun problemləri ilə maraqlanacağam. Siz də söhbət edə bilərsiniz.

– Çalışacağam. Bu həftə Könüllə danışa bilsəm, gedəcəyəm. Onunla görüşmək vacibdir. Məncə çox şey bilir. Sadəcə düşünürəm ki, Nicatın xanımını narahat etmək düzgün olmaz. Necə də olsa, artıq ana-bala Nicatın yoxluğuna çoxdan alışıblar. Boşandıqdan sonra münasibətləri yaxşı olmayıb.
– Elə isə mən gedim. Sizinlə yenidən əlaqə saxlayacağam.

Şahin çoxdan soyumuş çayı başına çəkib ayağa qalxdı. Orxan onu qapıya qədər ötürüb, otağa qayıtdı. Könüllə mütləq görüşməli idi. Bütün bu əzablı prosesi bitirmək üçün Könülə ehtiyacı vardı.

# 18

**"Namuslu bir adam,**
**Tanrının ən gözəl əsəridir."**

**Sean O'Casey**

Könül əvvəlcə bəhanələr uydursa da, Orxanın israrından sonra yola gəldi. Birinci dəfə görüşdükləri gürcü kafesində oturmağa razılaşıb sağollaşdılar. Nahara yaxın Orxan artıq onlar üçün ayrılmış otaqda oturub Könülü gözləyirdi. Ağ şərab və pendir sifariş vermiş, sakit və səbirli simasındakı yorğunluğu gizlətməyi ustalıqla bacarmışdı. Kafenin aurasına qəribə mistika qatan mahnını zümzümə edirdi.

"Deyəsən "My Sleeping Karma" qrupudur. Nicat da bu qrupu çox sevir. Həə... O hər dəfə kafeyə gələndə bu musiqini səsləndirirdilər.... Adı da... adı da deyəsən "Efedra"dır.." – Orxan xatırlamağa çalışdı.

Son vaxtlar pasiyentləri artıdığı üçün daha gərgin rejimdə işləyirdi. Amma başladığı işi davam etdirməliydi. Roman personajı, roman həmmüəllifi olmaq maraqlı idi. Bu məsələni çözməyi bacarardı. Könül vədələşdikləri vaxtdan yarım saat sonra otağa daxil oldu. Əvvəlkindən gümrah və şən görsənirdi. Üstünə səpdiyi bahalı ətrin bihuşedici qoxusu Orxanın burnuna dolanda, uzun müddətdir ki, qadınlara qarşı biganəliyini yadına saldı. Bu deyəsən ən yaxşı qadın ətirlərindən sayılan "Today"in qoxusu idi. Doktor tanış qoxunu ciyərlərinə çəkdi və başa düşdü ki, əhvalı düzələcək.

İş, gərginlik, dostunun müəmmalı ölümü ilə bağlı əyləncələr ona seks və əyləncəni unutdurmuşdu.

Dost da, necə dost! Roman yazmaq üçün bu yol heç Orxan Pamukun da ağlına gəlməz!

Orxan işvəylə əl uzadan Könülün əlini nəzakətlə sıxıb, əyləşmək üçün yer göstərdi. Qadında baş verən dəyişikliyin səbəbi Orxan üçün müəmmalı qalsa da, onun gümrah və şən olmasına sevindi. Nəzakətlə Könüldən nə sifariş edəcəyini soruşdu.

– Artıq içəri girəndə sifariş verdim. Ofisiant sənin ağ şərab içdiyini dedi. Bir balaca tünd içki içmək istəyirəm. Özümə viski sifariş verdim.

– Çox gözəl. Heyf ki, sənə yoldaşlıq edə bilməyəcəm. Mən şərabdan başqa içki içmirəm.

– Eybi yoxdur, doktor. Mən də çox içməyəcəm. Danışmaq istəmədiyim, amma mütləq danışmalı olduğum şeylər var. Mənə elə gəlir ki, bütün bunları danışsam daxili rahatlıq taparam.

– Səni dinləmək üçün burdayam. Mümkünsə hər şeyi xatırlamağa çalış. Yəqin ki, danışacaqlarının çoxsusu Nicatla bağlı deyil. Amma artıq sən də mənim pasiyentim hesab olunursan və səni dinləməliyəm. Eyni zamanda oxucu bir personaj kimi səninlə daha çox maraqlanacaq. Edəcəyin söhbət sənin daxili rahatlığın üçün vacibdir.

– Mən hələ də toparlanmamışam. Nə istədiyimi özüm üçün tam olaraq aydınlaşdıra bilməmişəm. Bəlkə danışdıqdan sonra, bu yükü üzərimdən atandan sonra daxili rahatlıq tapdım.

Ofisiant viski, "Red Bull" və buz gətirdi. Orxan Könülün standart sifarişlərini görüb gülümsədi. Könül isə öz

aləmində idi. Çantasını açıb siqaret çıxartdı. Orxan istər istəməz Könülün masaya qoyduğu siqaretin markasına baxdı. Nikotini və qətranı az, "Slims" siqaretlərdən idi. Adətən qadınlar bu markadan istifadə edir. "Deməli Könül Nicatla bağlı xatirələrdən xilas olmağa çalışır. Görünür düşdüyü mühitə alışıb"- Orxan öz siqaretini götürüb birini yandırdı.

Könül viskiyə buz atıb stəkanı əlinə götürdü. Buzun əriməsi üçün stəkanı əlində asta-asta yellədərək gözlərini yumdu. Nəhayət viskisindən bir qurtum alıb, söhbətə başladı. İsrarla bütün həyatını danışmaq istəməsi Orxana qəribə görünsə də, susmağa və dinləməyə üstünlük verdi.

...Elvindən ayrıldıqdan sonra, valideyinlərimin yanına qayıtmaqdan başqa çarəm yox idi. Atam boşanmağımı çox pis qarşıladı. Həftələrlə məni danışdırmadı. Yaşadıqlarımı onlara danışa bilməzdim. Elvin də israr etmədi. Boşanma prosesi səs-küysüz keçdi. Boşandıqdan sonra atam Elvinin homoseksual və narkotik aludəçisi olduğunu öyrəndi. Məni necə bir həyata məcbur etməyini anlayandan sonra xeyli yumşalmışdı. Artıq mənim oxumağımı, təhsil almağımı istəyirdi. Atamla aramızdakı buzların əriməsində anamın da böyük rolu oldu. Kollecdə yaxşı oxuyurdum. İkinci kursa keçəndə artıq işləməyə başladım. Qarşıma məqsəd qoymuşdum ki, artıq ailəyə yük olmayacağam. Atam işləməyimə etiraz etmirdi. Qardaşımın polis olması atamda özündənrazılıq və əminlik yaratmışdı. Həyatım öz axarına düşmüşdü. Hər gün arxamca gəlib mənimlə tanış olmağ çalışan oğlan xoşuma gəlməyə başlamışdı. Adı Tərlandı. Utancaq oğlandı. Üstəlik çox istiqanlı və mehribandı. Onunla tanış olduqdan sonra sevginin varlığına inanmağa başladım. Əvvəllər mənə tez-tez rəfiqələrim, xalam qızları sual verirdi ki, ilk baxışdan

sevgiyə inanırsan? Heç bilmirdim nə cavab verim. Həyatımda o qədər çatışmayan şeylər var idi ki...İndi belə sual verən olsa deyərəm ki, nəinki ilk baxışdan sevgiyə, ilk görüşdən seksə də inanıram. Hər gün avtobusdan düşəndə məni qarşılayıb kollecə qədər ötürən bu hündürboy və yaraşıqlı oğlanda çoxlarının gözü vardı. O isə məni sevirdi. Bir dəfə ərdə olmağımı, yaşadıqlarımı, atamın mühafizəkarlığını ona danışmışdım. O da mühafizəkar mühitdə böyümüşdü. Dindar idi. Namaz qılırdı. Onun inanclı və mömin olması mənim üçün xüsusi önəm daşıyırdı. Anama onun haqqında danışmışdım. Aramızdakı münasibətlər haqqında, anamdan tez-tez məsləhət alırdım. Anam məni bəlkə də lazım olduğundan çox sevir, körpə uşaq kimi üstümdə əsirdi. Tərlanla tanışlığımızın bir ili tamam olanda artıq namaz qılmağı öyrənmişdim. Bu onun çox xoşuna gəlirdi. Tanışlığımızın bir ilini qeyd etmək üçün Tərlanla məscidə gedib siğə oxutdurduq. Tərlan məni inandırmışdı ki, rahat-rahat əlimdən tutması, məni öpə bilməsi üçün bu vacibdir.

Tərlanın şəhərdən kənarda yaşayan bibisinin evində görüşməyə qərar verəndə, içimdə heç bir narahatlıq yox idi. Çünki güvənirdim. Bir az şirniyyat, süd, meyvə şirəsi alıb Tərlanın bibisinin evinə yollandıq. Bibisinin evdə olacağını desə də, açarı çıxarıb qapını özü açanda başa düşdüm ki, onun dediklərində az da olsa yalan var. Ev balaca və tör-töküntü idi. Deyəsən bura heç onun bibisinin evi də deyildi. Sonradan, üstündən xeyli keçəndən sonra özü etiraf elədi ki, bu evi dostlarının köməkliyi ilə mənimlə görüşmək üçün kirayələyib.

Qapını bağlayan kimi, boynuna sarıldım. O da çox həyəcanlı və sevincli idi. Həyatımda ilk dəfə həqiqi seks ya-

şayacaqdım. Elvingillə yaşadığım o qədər iyrənc idi ki, içimdə qəribə hisslər vardı. Travmasını uzun müddət ata bilməmişdim. Qorxuqarışıq həyəcan məni bürümüşdü. Tərlan tələsə-tələsə məni öpür, boynuma, boğazıma isti nəfəsi toxunduqca dəli olurdum. Kürəyim yatağa toxunanda, illərlə içimdə yığılıb qalan ehtiras vulkana çevrildi. Ehtirasla Tərlanı öpür, çiyinlərini, sinəsini dişləyir, dırnaqlarımı kürəyinə batırırdım. Artıq ikimiz də döşəməyə uzanmışdıq. Üstümüzdəki paltarlar ətrafa səpələnmişdi. Tərlanın penisi bədənimə toxunanda dəliyə dönürdüm. Ehtirasla öpüşdüyümüz məqamda Tərlan inildədi və bütün bədəni titrəməyə başladı. Qarnımın üstünə qaynar mayenin sıçradığını hiss elədim. O gözlərini yumub döşəməyə, yanıma uzanmışdı. Qarnımın üstünə yayılmış spermadan iyrəndim. Ürəyim bulandı və hamama qaçdım. Hamamdan çıxanda Tərlan divanda uzanmış və üstünü adyalla örtmüşdü. Onu incitməmək üçün yanında uzandım. Arxadan bərk-bərk məni qucaqladı. Boğazıma isti nəfəsi toxunduqca çılğına dönürdüm. Çılpaq kürəyimi, çiyinlərimi öpür, əliylə daş kimi bərkimiş döşlərimi sıxırdı. Məncə hər şey fərqli və daha maraqlı olmalı idi. İçimdəki istilik bütün bədənimi bürümüşdü. Ehtirasdan alışıb yanırdım. Amma Tərlanın tez boşalmağı hər şeyi korlamışdı. Ona tərəf çevrilmək istəmirdim. Asta-asta inildəyir, onun öpüşlərinə, döşlərimi sıxmağına bu cür qarşılıq verməyə çalışırdım. Yavaş-yavaş Tərlanın penisi sərtləşirdi.

Yenidən döşəməyə yuvarlandıq. Tələskənliklə ayaqlarımı aralayıb, penisini vaginama söykədi. Əlimlə ona kömək edirdim. Artıq onun od kimi qaynar penisi vaginamın içərisində irəli-geri hərəkət edir, Tərlan ehtirasla inildəyirdi. Bütün bədənim oyanmışdı, ehtirasdan alışıb-yanırdım. Bütünlüklə onun qucağında əriyib yox olmaq istəyirdim. Onun

hərəkətləri isə sürətli və sərt idi. Gözlərini yummuş, əllərini çiyinlərimin yanında bərk-bərk döşəməyə sıxmışdı. Nəfəs almasından, hərəkətlərinin sürətlənməsindən başa düşdüm ki, məni orqazma çatdırmamış boşalacaq. Bütün hisslərim bir anda yoxa çıxdı. Tərlan inildəməyə başlayanda penisini vaginamdan çıxarıb əlimlə boşalmağına kömək etdim. Onu sevsəm də hamilə qalmaqdan qorxurdum. Boşaldıqdan sonra gözlərini açdı. Günahkar baxışlarından hiss etdim ki, belə tez boşalmaq ürəyincə deyil. Bəlkə də mənim orqazm olmamağıma yox, özünün bu həzzi uzunmüddətli yaşaya bilməməyinə peşmandı. İndi heç nə dəqiq yadımda deyil. Yadımda qalan sadəcə Tərlanın ayağa qalxıb hamama keçməsi və qüsul alması oldu. Mən isə qarnımın üstünə yayılan spermanı yumaq üçün ondan sonra iyrənə-iyrənə hamama keçdim. O çox xoşbəxt və rahat görünürdü."

Orxan ehtirasdan gözləri alışıb yanan Könülü əsəbi baxışlarla süzdü:

– Könül, bura sənin seks təcrübəni dinləmək üçün gəlmədiyimi bilirsən. Başına gələnləri bu qədər xırdalığına qədər danışmağa nə ehtiyac var?

–Doktor, nahaq əsəbiləşirsən. Mənim peşəmdə utancaqlıq yoxdur. Elə sənin də peşəndə utancaqlıq olmamalıdır axı... Detalları danışmaqda məqsədim var.

– Nə məqsəd? Tərlanın səninlə sevişməyi mənə niyə maraqlı olsun ki?

Könül işvəylə gözlərini süzdürdü:

– Yoxsa sən də tez boşalırsan?

Orxan bu dəfə təmiz özündən çıxdı:

– Könül, sənə nə olub? Əvvəl hər şeyə daha həssas yanaşırdın. Xatırlayırsansa, biz Nicatla bağlı danışmalıyıq.

– Hə... Nicat əsl kişi idi. Yataqda məni onun kimi anlayan kişi qarşıma çıxmayıb. O nə zaman boşalmaq lazım olduğunu zərgər dəqiqliyi ilə hesablayırdı.
– Könül!!!
– Yaxşı, bağışla. Danışmaq istədiyim əlbəttə bu deyil. Sadəcə Tərlanla cəmi bir dəfə sekslə məşğul olmuşam. Bunu Nicata danışanda o ki var gülmüşdü.
– Məncə bu detallara ehtiyac yoxdur –, Orxan siqaret yandırıb əsəbiliklə sümürdü.
– Yaxşı, gəl bunu içək, söhbətimi davam edim.

Orxan şərab qədəhini könülsüz qaldırıb, onun stəkanına toxundurdu. Səssiz-səmirsiz qədəhini yerə qoyub, siqaretini çəkməyə davam elədi. Könül yersiz hərəkət etdiyini başa düşüb, Tərlanla münasibətləri haqqında xırda detallara varmadan danışmağa başladı.

...Tanışlığımızdan il yarımdan çox keçmişdi. Tərlan ailəsində mənim haqqımda söhbət açsa da, valideynləri onun mənimlə evlənməyinə qətiyyətlə qaşı çıxmışdılar. Amma o israrlı görünürdü. Daha doğrusu mənə elə gəlirdi ki, o məni itirmək istəmir.

O iş qurmaq, ailəsindən gizlin mənimlə evlənmək istəyirdi. Yeni açdığı ofis üçün bir neçə kompüter lazım idi. Yeni ofisin açılmağına mən ondan daha həvəsli idim. Banka kredit borcu olduğu üçün, kompüterlərin kreditini mənim adıma rəsmiləşdirdik. Hər şey bundan sonra başladı. Əvvəlcə tez-tez yersiz əsəbiləşməyə, bəhanə ilə görüşləri azaltmağa başladı. Sonra isə, biryolluq yoxa çıxdı. Daha onu heç vaxt görə bilmədim. Dostları Tərlanın ailəsindən küsüb Rusiyada yaşayan dayısının yanına getdiyini desələr də, inanmırdım. Məni pis vəziyyətdə qoyub getməyi ilə qətiy-

yən barışa bilmirdim. Kredit borcunun müəyyən hissəsini dostları ödəsə də, mənim üzərimdə qalan borc da az deyildi. Maaşımın böyük hissəsi borca gedirdi. İşləməyə yenicə başladığım əmlak bürosundakı müdirim mənimlə çox mehriban davranırdı. Ancaq Tərlanın hərəkətlərini bağışlaya bilmirdim. Onun bu əbləhliyi məni bərk sarsıtmışdı...

…Orxan qaşlarını çatıb fikirli-fikirli Könülə baxırdı. Artıq anlamışdı ki, Könüllə söhbət etməyin heç bir mənası yoxdur. Könül bütün fahişələr kimi ancaq qəmli əhvalatlar uydururdu. Ona isə Nicatın ölümü ilə bağlı ipucu tapmaq lazım idi. Böyük ehtimalla Könül növbəti dəfə Hikmətlə tanışlığından danışacaqdı. Onu isə Nicatın ölümü maraqlandırırdı. Hər dəfə Könülün qəmli xatirələrinin burulğanında başını itirirdi. Əsəbləri bu qədər uydurmaya, yalana hazır deyildi. Sərt şəkildə əlini masaya çırpdı:

– Könül, hər şeyin bir həddi var. Bütün roman boyu sənin cəfəngiyatını oxucuya sırıya bilmərik.

– Nə roman, Orxan, nədən danışırsan? Yoxsa bütün bu hekayələri Elxan Daşdəmirə danışacaqsan ki, roman yazsın?

– Yox…Bilmirəm… Elxan yazmasa da, romanın müəllifi bütün bunları yazır axı.

– Romanın müəllifi? Heç nə başa düşmədim? Könül təəccüblə çiyinlərini çəkdi.

Orxan istədi ki, Könülə romandan, nəsr ənənələrindən danışsın. Ancaq başa düşdü ki, bütün bunların yeri yoxdur. Əgər Orxanın yerinə filosof Ramal burda olsaydı, hər şeyi xırdalığına qədər Könülə danışar, ədəbiyyatın çətinliklərindən bəhs edərdi. Həm də ağ şərabın məstliyi və süstlüyü yavaş-yavaş onu sərməst edirdi. Könülə cavab vermədən düyməni basıb, ofisiantı çağırdı:

– Zəhmət olmasa hesabımızı gətirin.

Ofisiant nəzakətlə gülümsədi:

– Narahat olmayın doktor. Hesabınızı romanın digər qəhrəmanı ödəyib. Nuş olsun.

Orxan özünü saxlaya bilməyib səsini yüksəltdi:

– Bəsdir! Yığışdırın bu komediyanı!

Könülə elə gəldi ki, Orxan ofisiantla sözləşib onunla məzələnir. Çantasını qapıb, otaqdan çıxdı. Doktor başını əlləri arasına alıb, dərin fikirə getdi…

# 19

**Hər fahişənin mütləq
kədərli bir hekayəsi var...**

Könüllə sonuncu görüşdən sonra bir neçə gün özünə gələ bilmədi. Könülün danışacağı bütün hekayələri artıq təxmin edə bilirdi. Hikmətlə necə evlənməsi, necə ayrılması artıq ona demək olar ki, aydın idi. Könülün quraşdıracağı hekayələri çox asanlıqla çağırıb özünə danışa bilərdi. Amma Şahinin danışdığı xəyanət məsələsi onu çox düşündürürdü. Görəsən Könül Hikmətə xəyanət edəndən sonra, Nicata kimlərlə xəyanət etmişdi?

... Könülün könlünü almaq o qədər də asan olmadı. Ömür boyu heç bir qadına xahiş-minnət etməyən Orxan Könülə ilan dili çıxartdı. Nəhayət ki, o, növbəti görüşə razılıq verdi.

... Orxan Könüllə görüşə hazırlaşdığı ərəfədə, Nicatın köhnə tanışlarından ikisini – Nərmini və Nərgizi tapdı.

Orxanın təklifi ilə bər-bəzəkli bacılar onun ofisinə gəlməyi qəbul etdilər və deyilən vaxtda görüşə gəldilər. Orxan bütün sirlərin Könüldə olduğunu bilsə də, Nərmini və Nərgizi təklikdə dinləmək istəyirdi. Əvvəlcə Nərmini dinlədi. Sıradan bir hekayəydi. Nicatla necə tanış olmağından, necə görüşmələrindən danışdı. Bir neçə dəfə hansısa barın və ya kafenin tualetində, dostlardan kiminsə evində sevişmişdilər. Nərmin dedi ki, Nicat israrla ondan qısa ətək və qara kapron corablar geyinməsini istəyidi. Bu, Orxanın diqqətini çəkdi. Bundan istifadə etmək olardı. Təfərrüatlar isə, adi və cansıxıcı idi.

Nərgiz əvvəlcə Orxanla sadəcə bacısına görə görüşdüyünü desə də, onun hər şeyi bildiyini, bir dəfə də birlikdə içdiklərini xatırlayıb olanları danışmağa razılaşdı. Əvvəlcə Nərmindən xəbərsiz Nicatla görüşdüyünü, evinə getdiyini danışdı. Sonra xatırladı ki, bir neçə dəfə də, hansısa dostunun evində sevişiblər. Nərmin bütün bunları sonradan bilsə də, bacısına heç nə deməyib. Hətta Nicatla necə sevişməklərini bir-birinə danışıb, Nicatın qara kapron corablara olan həvəsinə, qara corablardan necə ehtiraslanmasına xeyli gülmüşdülər.

Nərmin də, Nərgiz də qara kapron corablardan söz salanda istər-istəməz gülsələr də, bu detal Orxana qəribə gəlmişdi. Nicat Nərgizi evlərinə dəvət edəndə, sevişməmişdən öncə israrla ona qara uzun corablar geyindirmiş, ayrılanda isə corabı ondan alıb paltar şkafının sonuncu siyürməsinə atmışdı. Könülün də bu barədə danışdıqları Orxanı düşünməyə məcbur edirdi.

"Deməli qara kapron corablar"... Orxan bacıları yola salandan sonra uzun müddət bu barədə baş sındırdı...

Orxan ilan dili çıxarsa da, əvvəlcədən şərt kəsdi. Bütün baş verənləri qısa və konkret danışacaq, başına gələnlərə heç bir bəzək-düzək vurmayacaq. Razılığa gələndən sonra, Könülün təklifi ilə dəniz kənarında yerləşən, balıq yeməkləri ilə məhşur xudmani restoranlardan birinə yollandılar. Könülün könlünə balıq düşmüşdü.

Orxan danışdıqları vaxt restorana gəlmiş, əvvəlcədən sifariş verdiyi masada yerini rahatlamış, günəş şüalarının çılğınlıqla rəqs elədiyi mavi dənizə gözlərini zilləmişdi. Bu zibilə necə və kimə görə düşdüyünün artıq heç bir mənası yox idi. İstəsə də, istəməsə də o bu romanın qəhrəmanı idi və roman bitənə qədər öz rolunu oynamalı idi. Üstəlik

bu restoranda arabesk dinləməyə, Ahmet Kaya mahnılarının ağır kədəri altında əzilməyə məhkum idi. Aylardır sürən bu araşdırmalar, romanın yazı prosesinin ləng getməsi də onu sıxırdı. Sanki, gözəgörünməz bir əl bu romanın yekunlaşdırmaq üçün müəllifə mane olurdu. Müəllif romanı bir kənara atıb gündəlik həyat qaydaları ilə çarpışdıqca, Orxan bekarçılıqdan darıxır, hövsələdən çıxırdı. Üstəlik Elxan Daşdəmir Türkiyəyə köçmüşdü. Daha yalvarsan da qayıdıb, bu romanda personaj olmazdı. Orxanın yeganə ümidi müəllifə idi. Müəllif tezliklə onu Könüllə görüşdürüb bu məsələləri aydınlaşdırmasaydı, yəqin ki, Orxan baş götürüb hansısa bir hekayəyə-zada qəhrəman gedəcəkdi. Orxan fikirli-fikirli bir siqaret yandırıb tüstünü acgözlüklə ciyərlərinə çəkdi. Artıq siqaretdən də bezmişdi. Adi həyatda siqaret çəkməsə də, müəllif onu roman boyu əməlli-başlı aludəçiyə çevirmişdi.

...Könül bir az ləngisə də gəlib çıxdı. Gülə-gülə salamlaşdı. Orxanın üzündəki gərginlikdən onun çəkdiyi əzabı başa düşürdü. Əslində onun üçün də bu romanda qəhrəman olmaq xoş deyildi. Bütün işi-gücü tökülüb qalmışdı bir tərəfdə, gecə-gündüz beynini Nicatla bağlı lazımsız xatirələrlə məşğul edirdi. Əslində bütün günah müəllifdə idi. Könülə elə gəlirdi ki, bu roman yazılmasa, daha yaxşı olardı. Kimə lazımdır axı intihar etmiş bir şairin sevgi hekayəsi? Dünya yazıçıları bu cür sevgi hekayələrini cəmi bir absazda ustalıqla yazıb keçirlər. Könül onu sürüyüb bu əsərin süjet xəttinə salan yazıçıya nifrət etməyə başlamışdı. Aralarındakı sevgi də, münasibətlər də onu bezdirmişdi. Üstəlik də belə ağır xatirələri yenidən xatırlamaq onu incidirdi.

Belə tez-tez söhbətlərə girişmək istəmirəm, amma Könül qətiyyən məndən narazı qala bilməz. Onun mənə ver-

diyi əziyyətlərin yanında roman personajı olmaq toya getməlidir. Aylarla onun sevgilisi rolunu oynamışam. Bəyəm asandır bu qədər xəyanətə dözmək, əzab çəkmək, ağlamaq? İndi canı çıxsın romanın içində çabalasın.

Hələ nərd olsaydı doktorla oynadırdım onu. Axırda da "dü-bir" ayağında saxlayıb uduzdurardım.

Könül beynindəki qarmaqarışıq, rabitəsiz, nizamsız fikirləri bir kənara atıb Orxanla hal-əhval tutdu:

– Doktor, yorğun görünürsən...

– Bezmişəm. Hər şeydən. Yorulmuşam.

– Araşdırmanı dayandır. Normal həyata dön. Unut.

– Bacarmıram. Axı zalım balası dayanmadan bizim haqqımızda düşünür. İmkan vermir öz həyatımı yaşayım.

– Anlayıram. Oxşar problemdir.

– Danışacaqsan?

– Hə.

– Hikmətlə necə rastlaşmağınızı keçək?

– Yox.

– Yaxşı, bir şərtlə ki, uzatmayacaqsan.

– Çalışaram...

Könül qısa və qırmızı saçlarını əliylə tumarlayıb, qarşısındakı şərabdan bir udum içdi. Üzünü turşudub, "Hikməti lənətə gəlsin" dedi, -"məni içkiyə o alışdırdı".

Tərlandan sonra əmlak bürosundakı müdirimin mənimlə maraqlandığını hiss edirdim. Bəlkə də əvvəldən maraqlanırmış, hiss etməmişdim. Tərlan həyatıma gəldiyi kimi çıxıb getsə də, həyatımı "relsdən çıxarmışdı". Toparlana bilmirdim. Onu düşündükcə aldanışlarıma görə əzab çəkirdim. Evdə atamla, qardaşımla və anamla münasibətlərim qaydasında getmirdi. Namaz qılsam da toxtaqlıq tapmırdım.

Bax belə gərgin günlərin birində patronum Hikmət mənə evlilik təkilf etdi.
Orxan çəngəllə qarşısındakı balıq tikəsini qurdalaya-qurdalaya sual verdi:
– Dərhal qəbul etdin?
– Əvvəl tərəddüd edirdim. Sonra ailəmdən xilas olmağın yeganə yolu kimi onun təklifinə "hə" dedim. Evimizdə yediyim hər tikə çörək baş qaxıncı idi. Üstəlik qardaşım özünə ev alıb şəhərə köçmüşdü və demək olar ki, hər addımımı izləyirdi. Bezmişdim. Qaçmalı, xilas olmalı idim.

...Toyumuz çox dəbdəbəli oldu. Hikmət hamıya yalan danışmışdı. İndi də onun bu fədakarlığını xatırlayanda utanıram. Bəlkədə adi şeydir və onun üçün fərqi yoxdur. Mənim əvvəlki evliliyimi gizlətmiş, el adəti ilə elçilik, toy etmişdi. Toydan sonra Hikmətin evinə köçdük. İlk günlər hər şey qaydasında gedirdi. Birlikdə evdən çıxır, birlikdə qayıdırdıq. Özümü çox xoşbəxt hiss edirdim. Onu sevməsəm də, birtəhər alışmağa çalışır, yaşadıqlarımı unudurdum. Amma Hikmət  Tərlandan da beşbetər imiş. Getdikcə əsl siması üzə çıxırdı. Başa düşürdüm ki, keçmişimlə barışa bilmir. Yerli-yersiz məni təhqir edir, aşağılayırdı.

...Toyumuzdan bir il keçəndən sonra başa düşdük ki, övladımız olmayacaq. Əvvəl Hikmət bunun da günahını mən-də görür, haqsız yerə məni incidir, təhqir edirdi. Biləndə ki, problem ondadır və heç zaman uşağı olmayacaq, daha da dəyişdi.

Orxan söhbətin bu yerində növbəti siqaretini yandırdı və Şahinin Könüllə bağlı dediklərini xatırladı. Artıq əmin idi ki, Könül yalan danışır. Tərslikdən o bu yalanlara səbirlə qulaq asmağa məhkum idi.

Könül isə öz işində idi. Baxışlarını naməlum bir nöqtəyə zilləyib söhbətinə davam edirdi...

... Məni tez-tez döyür, evdən qovurdu. Özü də etirazçı gənclərə qoşulmuşdu. Bütün günü onlarla görüşüb içir, evə gecənin yarısı qayıdırdı. Hamının yanında mənim hicab bağlamağıma lağ edir, məni aşağılayırdı. Və günlərin bir günü tələb etdi ki, hicabı açım. Beləliklə həyatımda daha bir dönüş nöqtəsi yarandı. Onsuz da namaz qılmırdım. Hikmətin təklifi də ürəyimdən olduğu üçün çox müqavimət göstərmədim. Bir gün ayıldım ki, artıq evimizdə içki məclisləri qurulur.

İçki ilə ilk tanışlığım da Hikmətin sayəsində oldu. İsrarla məni içirdir və mənim sərxoş olmağımla fəxr edirdi. Mənim içməyim, xüsusilə onun "seksual inqilab" carçısı olan dostları ilə badə toqquşdurmağım onun qürur yeri idi. Sanki hamıya necə modern və açıqfikirli olduğunu car çəkirdi. Onun dostlarına, yaxınlarına alışmışdım. Hikmət işdən çıxana qədər səbrim çatmırdı. Onların yığışdığı ucuz barlarda, kafelərdə özümü daha xoşbəxt hiss edirdim.

– Və bu ərəfədə Nicatla tanış oldun...

– Hə... Bu barədə danışmışam sənə. Yəqin özü də deyib. Bizə tez-tez gəlirdi. Ərim onun söhbətlərini dinləməkdən zövq alırdı. Belə görüşlərimizin birində yaxşıca içdik. Ərim tez sərxoş oldu və yatağına güclə apardıq. Mən isə ustalıqla sərxoş rolunu oynayırdım. O isə dayanmadan içir və siqaret sümürürdü. Rəfiqəmə Tərlandan danışıb ağlayır, əslində isə Nicatın diqqətini çəkməyə çalışırdım. Yavaş-yavaş istəyimə çatırdım. Nicat gözünü məndən çəkmirdi. Hiss edirdim ki, sıxılır. Narahatlığı aydın hiss olunurdu. Sağollaşıb masadan qalxdı. Onu yola salanda özümdən asılı olmayaraq boynuna sarılıb ağladım. Hikməti sevmədiyimi, başqa birinə aşiq ol-

duğumu dedim. Hiss edirdim ki, onu yoldan çıxarmaq o qədər də çətin olmayacaq.
– Nicata qədər Hikmətə xəyanət etmişdin?
– Yalnız düşüncələrimdə. Psixoloqlara görə, evli cütlüklər arabir başqaları haqqında fantaziya qura bilərlər. Hər halda beyində xəyanət yataqda xəyanətdən daha yaxşıdır. Həm də güclü fantaziya sönmüş hisslərimi oyadırdı.
– Bilirsən, seksual fantaziyalar real xəyanətə yol açır...
– Nicat mənim fantaziyalarımdakı kişi deyildi. İlk günlər Nicatla dost olmaq, ona sadəcə yaxın olmaq istəyirdim.
– Qadınlar elə düşünürlər ki, kişilər dostluğu sevgiyə çevirmək istəyir. Amma məncə, məhz qadınlar dost münasibətlərini fərqli tərəfə çəkirlər, sənin kimi. Axı qadınlar daha emosionaldırlar və potensial sevgilini dostlarının arasından axtarırlar. Bu, qadın üçün daha təhlükəsiz variantdır.
– Bəlkə də haqlısan. Amma razılaş ki, Nicat ideal kişi deyildi.
– Deməli Nicat da, Hikmət də ideal deyildi. Belə çıxır ki, sən Nicatı da sevmirdin...
– Nicatı sevirdim. Əslində Hikmətə də biganə deyildim. Amma nədənsə, mənə elə gəlirdi ki, Hikmət məndən soyuyub.
– Hmmm... Qadınlar düşünür ki, əri ondan bezib, yorulub və yeniliklər axtarışındadır. Sən də Hikmətin bezdiyini düşünürdün və ondan soyuyurdun. Əslində isə o sənin xilaskarın və qəhrəmanın sayılmalıdır. Hikmət də kənarda nə axtardığını, onu nəyin cəlb etdiyini anlamırdı məncə. Məncə o yaşaya bilmədiyi uşaqlığının, gəncliyinin, sən isə yaşaya bilmədiyin qadınlıq hisslərinin axtarışında olmusan. Bilirsən, xəyanət edən tərəf bu haqda heç düşünmür də. Bəzi kişilər uşaqlıqda, bəziləri gənclikdə məhrum olduğunu axtarır. Hikmətin soyuqluğunun səbəbi sən yox, yaşaya bilmədikləri idi...

– Nicatla rastlaşdığımız gündən onu özümə aşiq etməyə çalışırdım. Demək olar ki, ona hər gün ya zəng edirdim, ya da feysbukda nə isə yazırdım. Onun davranışından mənə biganə olmadığını anlayırdım.
– Sən onu qucaqlayanda necə davrandı?
– Mənə toxtaq səslə təsəlli verib, yerimə uzanmağıma kömək etdi. Rəfiqəm onu yola salanda titrək səsini eşitdim – "Könüldən muğayat ol, sakitləşdir və danışmağa imkan vermə." Sonra getdi. Səhər ona zəng elədim. Görüşdük. Ona bütün həyatımı ən xırda detallarına qədər danışdım. Sakitcə siqaret tüstülədir və hərdən sözümü yarıda kəsib, məsləhətlər verirdi.
– Bu barədə danışmışdı mənə. Sonra bir yazı da yazmışdı. Oxumamısan?
– Yox. Nadir hallarda onun yazdıqlarını oxuyurdum.
– Çox təsirli yazıdır – Orxan salfetlə əlini silib, əlini çantasına uzatdı – gözlə, oxuyum.
– Ver, evdə özüm oxuyaram.
– Yox, qoy oxuyum. Bəlkə bir iradın oldu. Bəlkə nəyi isə səhv yazıb?
– Sən oxu, mən qabağımdakı tikəni yeyim. Acından başım ağrıyır.

Orxan çantasını eşələyə-eşələyə deyinirdi. Könül isə öz işində idi. İştahla qarşısındakı balığı mədəsinə ötürürdü.

Orxan vərəqləri çantasından çıxarıb, masanın boş hissəsinə qoydu. Ofisiantı çağırıb şərab sifariş verdi. Yenidən Könülü süzüb, başını buladı və oxumağa başladı:

"...Bu əsl sevgi idi. Bəli, illərlə axtardığım və tapa bilmədiyim qadını tapmışdım. Amma eyni anda dünya başıma uçmuşdu.

Sevgimi tapmışdım, amma o qadın başqasının səadəti idi. Evli qadına vurulmuşdum. Günlərlə gözümə yuxu getmirdi. Bütün gün feysbukdakı fotolarına baxıb, doluxsunurdum. Boşaltdığım içki şüşələri, masamın üstündə qalaqlanmış siqaret qutuları ona olan sevgimin yeganə şahidi idi. Heç kəsə, hətta ən yaxın dostlarıma belə danışa bilmirdim bu sevdanın məni necə qovurduğunu...

Özümü kifayət qədər yetkin və ağıllı saysam da, özümə toxtaqlıq verə bilmirdim. Yersiz, səbəbsiz ağlamaq tuturdu məni. Kirayə mənzilimin divarları üstümə gəldikcə qəhərdən boğula-boğula fotolarına dəfələrlə baxıb üzümü yastığa sıxırdım. Hər gün içirdim ki, bu acını, bu sevdanı, bu eşqi unudum.

Hərdən məclislərdə və ya təsadüfən görüşəndə özümü itirirdim. Gözlərinin içinə baxmağa ürək eləmirdim. Və ən dəhşətlisi... Mən onu halal ərinə dəlicəsinə qısqanırdım.

Qəribədir ki, bütün şərtlər məni ona doğru itələyirdi. Onun özünəməxsus sehrindən, cazibəsindən çıxa bilmirdim. Son vaxtlar dostlaşmışdıq və hərdən görüşüb birlikdə vaxt keçirirdik. O mənim yanımda olanda özünü çox sərbəst aparır, ərinə qarşı heç bir ilgisi olmadığını ciddi-cəhdlə mənə və ətrafdakılara göstərməyə çalışırdı.

Baxışları, saçları, dodaqları, əlləri...

Hər gün bir az da düşürdüm onun sehrinə. Sosial şəbəkələrdə olduqca quru, rəsmi danışırdı mənimlə. Amma bir gün... Bir gün olmayacaq şeylər oldu və bütün gecəni göz yaşları içində çırpındım.

Sərxoş idi və ağlayırdı. Rəfiqəsi də, əri də yanımızdaydı. Dalbadal siqaret tüstülədirdim. Sərxoş olsam da, söh-

bəti eşidirdim. O, ərini sevmədiyini, başqa birini sevdiyini danışırdı rəfiqəsinə...

Yenidən dünyam qaraldı, bütün ümidlərimi itirdim və evə getmək üçün ayağa qalxdım. Ayrılanda qəfildən məni qucaqladı və ağlaya-ağlaya ərini yox, başqa birisini sevdiyini mənə də təkrar etdi. Mənə elə qısılmışdı ki, həyəcandan özümü itirmişdim. Saçlarını tumarlayır, sakitləşdirmək üçün onu dilə tuturdum.

Evə çatana qədər ağladım. Yeniyetmələr kimi dilim söz tutmurdu. Yolüstü bir şüşə də araq alıb öz otağıma qapıldım. Gecə səhərə qədər içdim...

İki gün sonra təkrar görüşdük. Sakit kafelərin birində oturduq. O meyvə şirəsi, mən pivə sifariş verdim. Siqaret sümürə-sümürə onun ağrılı həyat hekayətini dinlədim. Ərini sevmədiyini, onunla yaşamağa məcbur olduğunu anlatdı...

Sonra sevdiyi oğlandan, o oğlanın onu necə atıb getməsindən, aldatmasından danışdı. Mən ona məsləhət verdikcə hiss edirdim ki, boğazıma dolan qəhəri, əllərimin əsməsini gizlədə bilmirəm.

Ayrılanda arxasınca baxdım, getmək istəmirdi...

Bir həftə sonra, gecə sabaha qədər internetdə danışdıq. Söhbətimiz fırlanıb sevgi, eşq mövzusu üzərinə gəldi. O ərini sevmədiyini, sevdiyi oğlanı unutduğunu, başqa birisinə aşiq olduğunu yazdı mənə... Siqareti bir-birinə calamışdım. Həyəcandan əllərim əsir, gözüm yaşarırdı. İndi imkanım olsa, sevdiyi oğlanı da, ərini də, aşiq olacağı adamı da parçalayardım. Ürəyimdə gizli bir istəyim də vardı... "Kaş aşiq olduğu insan mən olaydım" deyə düşünürdüm...

... Və birdən-birə mənə aşiq olduğunu deyəndə hönkürtümü saxlaya bilmədim... Sonra hər şey çox sürətlə baş

verdi. Heç vaxt xəyalını qura bilmədiyim anlar, dəqiqələr yaşadım onunla. Hər şey çox kədərli, inanılmaz və möhtəşəm idi. Onu sevirdim..."

Orxan yazını bitirəndə Könül heykəl kimi dayanıb, gözlərini naməlum istiqamətə zilləmişdi. Gözlərindən yaş süzülürdü. Göz yaşları daş heykəlin üzündən süzülən yağış damcıları kimi sinəsinə damcılayırdı. Orxan da tutulmuşdu. Ahmet Kayanın "Mahur Beste" mahnısı ortalığı kədərə qərq eləmişdi...

Könül üzündə anlaşılmaz bir ifadə, tez-tez siqaret sümürür, əlindəki salfetlə gözündən qeyri-ixtiyari axan yaşı, burnunun seliyini silirdi. Artıq danışdıqca hər şeyin anlamı itir, biganələşirdi.

...Hikmətdən ayrılanda yaxşı yaşamağa, bahalı paltarlar geyinməyə alışmışdım. Metrodan, yarmarkadan alış-veriş edənlərə lağ edirdim həmişə. Nicat isə həmişə pulsuzluqdan, işsizlikdən gileylənirdi. Onun bütün paltarları mənim şərfimdən da ucuz idi. Onunla görüşdüyümü hamıdan gizlətməyə çalışırdım. Hikmətdən ayrılan kimi rəfiqəmin kirayə qaldığı evə köçmüşdüm. Evdə müxtəlif səbəblərdən ərindən ayrılmış dörd qadın da yaşayırdı. O mənzildə yaşayan qadınların heç biri xoşbəxt deyildi. Hamımızın taleyində atılmışlıq, tənhalıq və sahibsizlik vardı. Kimsə evdən çıxanda arxasınca qeybət başlayırdı. Nicat məni orda çox qalmağa qoymadı. Köməkləşib ev tapdıq. Dostu Şahinin köməyi ilə o xarabadan yeni evə köçdük. Hər gün zəngləşirdim. Şərait və şərtlər elə idi ki, onu itirməkdən qorxurdum. Hikmətdən ayrılandan sonra Nicat mənə qarşı bir az soyumuşdu. Bilirdim ki, unuda bilmədiyi başqa bir qadın var. Həmin qadından ayrılmaq ona pis təsir etmişdi. Tez-tez özü-

nü, məni günahlandırır, o qadından ayrıldığı üçün özünü yamanlayırdı.

Köhnə tanışlarımdan biri – deyəsən "CCH" radiosunun Bakı bürosunda işləyirdi – mənə aşiq olmuşdu. Üç uşağını atıb mənimlə evlənmək istəyidi. Bütün günü kölgə kimi məni izləyir, gecə-gündüz feysbukda zəhləmi tökürdü. Nicata bu barədə deyəndə özündən çıxırdı. Fikirləri qarma-qarışıq, mənə qarşı münasibəti konkret olmasa da, məni hamıdan, hətta bütün köhnə dostlarımdan da qorumağa çalışırdı. Ona görə hamıdan yavaş-yavaş uzaqlaşırdım. Gecələr ona qısılıb yatmaq, onun enli və tüklü sinəsinə başımı söykəyib xəyal qurmaq məni heç vaxt olmadığım qədər xoşbəxt edirdi. İlk orqazmı onunla yaşamışdım...

– Könül, lütfən bu söhbətləri etmə...

– Bilirsən, əgər Nicatdan danışıramsa, xatırladığım bütün detalları danışmaq istəyirəm.

– Məni isə sizin münasibətlərinizin necə pozulmağı maraqlandırır.

– Doktor, icazə ver ilk gecəmizi danışım. Ürəyim gedir erotik söhbətlər, seksdən danışmaq üçün.

– Xahiş edirəm, lazım deyil. Nicatın ölümünə doğru gedən yolu danış. Ayrılıq, davalarınız, problemləriniz...

– Orxan, o mübahisə etməyi sevərdi, bilirsən. Məni Hikmət işə düzəltmişdi və mən hələ də onun dostlarının şərikli işlətdiyi şirkətdə çalışırdım. Bu onun xoşuna gəlmirdi. Mənim ordan uzaqlaşmağımı istəyirdi. Qısqanırdı.

– Qısqanmaq üçün əsası vardı?

– Vardı. Çalışdığım şirkətin təsisçilərindən biri Hacı idi. Dindar olsa da, ona müsəlman demək olmazdı. Atası rayonlardan birinin icra başçısı idi. Pul hesabına istədiyini əldə etməyi bacaranlardandı. Şirkətin şəriki dindar olmasa da, pulu

sonradan görüb quduran, özündənrazı, nəzakətsiz və acgöz adamdı. Qardaşı gənc olsa da, rayonlardan birində polis rəisi işləyirdi. Mən isə onların bütün maliyyə hesabatlarını aparırdım. Təsəvvür edirsən, milyonlar... Nicatın heç zaman yuxusuna da girməyəcək milyonlar...

Tez-tez rayonlardakı restoranlarının, əyləncə mərkəzlərinin hesabatını aparmağa gedirdim. Nicat buna qəti razı deyildi. Ancaq başqa şansım da yox idi. Ya ac qalmalı, ya da işimin şərtlərinə razı olmalıydım. Patronlarım Hikmətlə dost olsa da, mənim ondan ayrılmağımı sakit qarşıladılar. Çünki ikisinin də məndə gözü vardı və məni ələ keçirmək üçün gizli mübarizəyə başlamışdılar. Hər gün ayrı-ayrılıqda məni çağırır, yüksək vədlər, bəxşişlər, pul boyun olur, yoldan çıxarmağa çalışırdılar. Nicat sanki bütün bunları hiss etdiyi üçün məni daha çox qısqanırdı. Hərdən patronlarımın münasibətini ona danışanda özündən çıxır, məndən tələb edirdi ki, bir daha ofisə ayaq basmayım. Sonra inandırırdım onu. Əmin edirdim.

...Əslində bütün bunlar roman-zad deyil. Mənim yaşadıqlarımın, gördüklərimin yaza bildiyim çox cüzü bir hissəsidir. Bunu niyə etdiyimi bilmirəm. Çəkdiyim əzablardan xilas olmaq cəhdi deyə bilərsiniz bu duruma. Qınaya bilərsiniz. Bəlkə də heç biriniz dəlicəsinə sevdiyiniz qadını hər gün bir az itirməmisiniz. Bu unutmaq üçün uydurduğum, özümə verdiyim təsəllidir. Onu yazmaq, yaza-yaza beynimdə, düşüncələrimdə bitirmək arzusundan yarandı bu qarma-qarışıq ideya. Unuda bilmədiyim xatirələrdən xilas olma cəhdidir bu yazılar. Amma əsəbim bura qədər dözdü. Daha bu xatirələrə qayıtmaq, o səfeh günləri xatırlamaq istəmirəm. Amma Orxan öz işini görəcək. Könülü dinləməyə, onun hekayəsini öyrənməyə söz verib...

...Könül qəfildən susdu. Əlini atıb siqaret qutusundan bir siqaret çıxardı. Araya ağır bir səssizlik çökdü. Könül sanki danışdığı əhvalatlardan, uydurduğu hekayələrdən yorulmuşdu. Danışdıqca içində nələrinsə qırıldığını hiss edirdi. Yorulmuşdu...

Qəfildən əlini masaya çırpıb, dik-dik Orxanın üzünə baxdı:

– Bilirsən nə var? Mən patronlarımın ikisiylə də, onların yaxın çevrəsindəki kişilərlə də yatdım! Mənə pul lazım idi və Nicat lütün, avaranın biri idi! Pullu kişiləri tora salmaq, özümə aşiq etmək xoşuma gəlirdi. Onlar dəryadan bir damcı versələr də, bu məni xoşbəxt etməyə kifayət edirdi. Həyatımı mənasız bir şairlə çürüdə bilməzdim. Hikmətin dostlarıyla da yatmışam. Bir-iki gənc yazara da şans vermişəm. Sənə nə lazımdı? Nicatı öldürə biləcək səbəbləri tapmaq? Onu qəhrəman etmək? Boş şeydir. Nicat özünü ancaq axmaqlıqdan asa bilərdi. Hər şeyin bir sonu olmalıydı. Mən xəyanət edirdim, o isə oturub ağlayırdı. Məni bu yoldan çəkindirmək üçün heç nə etmirdi.

...Könülün söhbətləri məni çox uzaqlara apardı. O məşum gecəni, ayrıldığımız günü xatırladım...

O gecə ulduzlar yerə daha yaxın idi...Əlimi atıb bir-ikisini qoparmaq istədim, əllərimin ulduzlara çatmadığını bilə-bilə.*(Söhbətə bax, mən ölüm)*

Son görüşümüzdə gedəcəyini bildiyim halda onunla daha çox vaxt keçirmək istədim. Son xəyanətindən sonra qalmağının mümkünsüz olduğunu bilə-bilə.

"Niyə aldatdın? Axı xəyanət etmədən də yaşaya bilərdin" – dedim.

"Mən nə etdiyimi bilmirəm, təmiz başımı itirmişəm"- dedi.

Onu anlamaq istədim, anlamaqla heç nəyi dəyişdirə bilməyəcəyimi bilə-bilə...

Dəhşətli gecə idi...

İlk dəfə hara getdiyimi bilmədən saatlarla dolaşdım küçələri. Beynimdə yalnız bir sual dolanırdı-Niyə? Cavabını yenə özündən soruşdum. "Məni nə üçün aldatdın? Mən sənə nə pislik eləmişdim?"- deyib uşaq kimi hönkürdüm.

Bərk-bərk qucaqlayıb, başımı köksünə sıxdı. Bu sevgi deyildi. Sadəcə gözlərimə baxa bilmirdi.

Səsindəki arxayınlıq məni dəli edirdi: "Səndən əvvəlki bütün kişilər məni aldatdı, xəyanət elədi, yarı yolda buraxdı. Səbəbini bilmirəm, amma onların hamısının qisasını səndən aldım"...

Məni buraxıb kənara çəkildi. Susmuşdum. Ağlamırdım...

…Könül danışır, Orxan susurdu.

– Mənim Nicatla birlikdə olmağım çoxlarını qıcıqlandırırdı. Onsuz da qardaşım and içmişdi ki, bir də Nicatla görüşsəm ikimizi də öldürəcək...

Könül səhvini dərhal düzəltməyə çalışmaq üçün rabitəsiz cümlələr qurmağa çalışsa da, Orxan heyrətlə Könülün üzünə baxırdı. Aylardır çözülməyən sirr açılmışdı. Orxan təbəddülatlar içərisində ona görə çabalayırdı ki, Nicatın intihar etmədiyini sübut etsin. Və hər şey bu açar cümlədən asılı idi...

# 20

**Namus görünməyən sərvətdir.**
**Çox vaxt ona sahib olmayanlar, sərvət sahibi kimi görünərlər.**

**Şekspir**

İndi mən sizə, dünyanın ən mənasız dialoqunu təqdim edəcəm. Sizi əmin edirəm, heç vaxt bu qədər mənasız və bəsit dialoq oxumamısınız. Bu Könülün qardaşı xoşqeyrət Polislə əri Hikmətin söhbətidir...

– Hikmət, indiyə qədər səninlə bu barədə danışmamışam. Xətrini istədiyim üçün, tərbiyənə, davranışlarına, mövqeyinə görə susmuşam. Amma elə şeylər var ki, susa bilmirəm. Sənin rahatlığın, heç nə olmamış kimi davranmağın məni əsəbiləşdirir. Ola bilməz ki, bu söz-söhbətlər sənin qulağına çatmasın.

– Qardaşım, hansı söz-söhbətdən danışırsan? Əgər Könüllə bizim ayrılmağımızdan danışırsansa, düz eşitmisən. Mən artıq sənin bacınla birlikdə yaşaya bilmirəm. Könül də bunu istəmir. Qərarını verib. Bu söhbəti uzatmağın yeri yoxdu. Ayrılırıq.

– Hikmət, mən başqa şeydən danışıram! Sənin arvadın, mənim bacımdır. Onun haqqında yayılan dedi-qodu məni çox narahat edir.  Ayrılmağınıza bir şey demirəm, mən yayılan söhbətlərdən narahatam. Bilirsən camaat nələrdən danışır? Oturub birlikdə aydınlaşdırmalıyıq bu söhbətləri. Səni bilmirəm, mən bu söhbətlərdən narahatam. Onsuz da əsəblərim yerində deyil və bundan o tərəfə dözmək fikrim yoxdur. Namus həssas məsələdir!

– Görüşərik, Polis qardaş. Sən özünü çox incitmə. Bu hadisə tək bizim başımıza gəlmir. Evlənmək nə qədər sadə məsələdirsə, boşanmaq da bir o qədər sadədir. Lütfən, heç nəyi böyütmə. Könüllə iki mədəni insan kimi ayrılmağımız daha yaxşıdır. Bunu namus söhbətinə, düşmənçiliyə çevirməyini istəməzdim. O öz həyatını seçib. 30 yaşı var. Qərar vermək, onu həyata keçirmək haqqı var.
– Mən Könülün verdiyi qərara güvənmirəm. Burda söhbət mənim ailəmin namusundan gedir. İstəmirəm ki, hər cındır arxamca ağzına gələni danışsın! Başa düşdün? Bu mənim üçün çox ciddi məsələdir!
– Oldu qardaş. Görüşərik hökmən! İndi gömrükdəyəm. İrandan gələn malları qarşılayacam. Həftə içi rahatlıqla görüşüb danışarıq.
– Oldu. Hələlik!

Hikmət telefonu söndürüb masanın üstünə atdı. Kresloya söykənib qarşısındakı soyumuş çaydan bir udum aldı. Həyatı ağ-qara film kimi gözlərinin önündə canlanmağa başladı. Anası onları uşaq evinə verəndə 3 yaşı vardı. Atası öləndə isə 2 yaşındaydı. Anası başqası ilə evlənmişdi və bir daha onların arxasınca gəlməmişdi. Hikmət bacısından uzaq düşmüşdü və uşaq evinin köşələrində demək olar ki, bütün dünyaya və insanlara nifrətlə böyümüşdü. Anasının onu atıb getməsi, bacısından ayrılıb uşaq evinə atılması, müəllimlərinin qəddarlığı onun psixologiyasında silinməz izlər buraxmışdı. Hikmət insanlara nifrət edirdi. Humanizm, insan sevgisi ona yad idi. Heç kəsi, hətta Könülü belə sevmirdi. Hamıdan istifadə etməyə çalışırdı. İnsanların faciəsi üzərində özünə xoşbəxtlik qurmaq ona ləzzət verirdi. İlk dəfə universitet illərində müxalifətçilərə qoşulan, rejimə etiraz

edən tələbə yoldaşları haqqında polisə raportlar yazanda, hiss etmişdi ki, insanların əzilməsi, incidilməsi, çarəsiz vəziyyətə düşməsi ona ləzzət edir. O etdiyi bütün pisliklərdən zövq alırdı. Baş tutmayan mitinqlər, həbs olunan etirazçılar, universitetdən qovulan tələbələr onun içində izaholunmaz rahatlığa səbəb olurdu. Bütün iyrəncliklər, insan əzabları və məğlubiyyəti ona xoş gəlirdi.

Polislə ilk tanışlığı da həmin illərdə baş tutmuşdu. Tez-tez polis idarəsinə yolu düşdüyü üçün, bu cavan "işverənlə" də rastlaşırdı. İkisinin də qeyri-rəsmi "peşəsi" oğraşlıq, nadürüstlük idi. İkisi də bu işi "şərəflə" icra edir, başqalarının çəkdiyi əzabdan, düşdüyü uğursuzluqdan zövq alırdılar. Hikmətlə polis "sənət yoldaşı" idi. Sonra Polis işini rəsmiləşdirmiş, bölmələrin birində rəsmən işə başlamışdı. Hikmət isə gizli fəaliyyəti üstün tutmuş, deşifrə olunmadığı üçün daha da irəli çəkilmişdi. Son 3 ildə isə gənc etirazçıların içinə sızdırılmışdı.

...Könüllə tanış olanda onun Polisin bacısı olduğunu bilmirdi. Çünki heç bir həmkarı ilə ailəvi tanışlığı yox idi. Ailəsi olmadığı üçün, ailəvi tanışlıqlar ona görə deyildi. Universiteti bitirdikdən sonra ağaları onun üçün bir əmlak ofisi qurmuşdu. İşləri qaydasında gedirdi. Könüllə tanış olanda artıq işinin çəmini tapmışdı. Əsas vəzifəsi sosial şəbəkələrdə hakimiyyət və rejim əleyhinə statuslar yazan, mitinq təşkil edən, etiraz edən gəncləri izləmək idi. Böyükləri Hikmətə müxalifətçi gənclərlə yaxınlaşmağı, universitet illərindən tanıdığı etirazçıları nəzarətdə saxlamağı tapşırmışdı. Hikmət isə işinin öhdəsindən layiqincə gəlirdi. İçki məclislərinə qatılmaq, özünü sərxoşluğa vurub "yağdan qıl çəkirmişcəsinə" sərxoş gənclərdən söz çəkmək, dindən, mentalitetdən söz salmaq və bunu mübahisəyə çevirmək onun

əsas işi idi. İstəyinə demək olar ki, çatmışdı. Gənclərin arasında yaranan mübahisələrdə onun təxribatçı fikirləri əsas rol oynayırdı.

İkinci əsas işi gəncləri narkotiklə təmin etmək idi. Başıpozuq, narkotik aludəçisənə çevrilmiş gənc inqilabçılar onun ağaları üçün rahat "ov" hesab olunurdu. "Yamayka" onun sayəsində etirazçı və intellektual gənclərin arasına yol tapmışdı.

Könüllə evlənməyə qərar verəndə, əsas məqsədi evlənib boşanmış, azadlığa və sərbəstliyə meyilli, rahatlıq və şöhrət arzusunda olan bu yüngül xarakterli qadından istifadə etmək idi. Könülün Polisin bacısı olduğunu biləndə planında korrekt olmağa məcbur olmuşdu. İlk işi Könülü hicabdan azad edib, bütün gün azadlıqdan, insan haqlarından, azad seksdən, demokratiyadan danışan gənclərin arasına buraxmaq idi. Bunu bacarmışdı. Hamı Könüllə münasibət qurmağa çalışır və bu münasibətlər Könülü də, Hikməti də qane edirdi. Könül Hikmət üçün balığı cəlb etmək üçün qarmağa taxılmış soxulcan idi. Qarmağın ucunda çapaladıqca beyinsiz və ağılsız balıqları cəlb edirdi. Hikmət isə sahildə durub ustalıqla qarmağa düşən balıqlarla məşğul olurdu. Könülün sayəsində gənclərin arasında söz sahibi olmuş, cibində siçanlar oynaşan gənclərin çoxusunu özünə borclu etməyi bacarmışdı.

Planı qaydasında gedirdi. Nicatı məhv eləməklə bağlı heç bir problem yox idi. Polis isə Hikmətin gizli planlarından bixəbər, onun planlarına daxil olmuşdu. Hikmət nə qədər peşəkar idisə, Polis bir o qədər küt və qorxaq idi. İndi zəng edib onunla hədələyici tonda danışması, Hikməti özündən çıxarmışdı. Polisə yerini göstərməyin məqamı idi. Özündən yüksək rütbəlilərə yaltaqlanmağı yaxşı bacaran Polisin

qulağını çəkmək lazımdı. Hikmət yaxşı bilirdi ki, ağaları da onun planlarına mane olan ünsürləri ustalıqla təmizləməyi bacarır. Polisin atılıb-düşməyi, onunla namus-qeyrət söhbəti etməyi Hikməti əsla narahat etmirdi. Bilirdi ki, Polisin atılıb-düşməyi boş şeydir. Onun üçün qeyrət, namus kimi anlayışlar çoxdan ölüb gedib. Lazım gəlsə mitinqə çıxan bacısını belə dubinkanın altına salıb əzişdirə, sürüyüb polis maşınına mindirə bilər.

İndiyə qədər bütün planları səhvsiz və problemsiz, qaydasında getmişdi. Yeganə problem Nicat Aslanın Könülə aşiq olmağı idi. Bu sevgi məsələsi planlarına daxil deyildi. Sevgi işləri cızığından çıxara bilərdi. Başa düşürdü ki, sevgi qısqanclıq, narahatçılıq, yersiz söz-söhbət, lazımsız romantikadır. Üstəlik Nicatın "ovlanması" planına daxil deyildi.

Nicatla bağlı göstəriş alanda, tərəddüdsüz razılaşdı. Nicatın Könülə aşiq olması, işini asanlaşdırırdı. Kafelərdə, PUB-larda qurulan məclislər, Nicatla Hikməti dostlaşdırmışdı. Hikmətin gizlincə ötürdüyü narkotik, Nicat üçün əvəzsiz tapıntı idi. Üstəlik Könülün də Nicata biganə olmaması, gizli-gizli görüşmələri Hikmətin ürəyindən idi. Nicat demək olar ki, sakitləşmişdi. Başı Könülə qarışdığından gəncləri unutmuşdu. Daha təhlükəli yazılar yazmırdı. Narkotik və Könül Nicatı süstləşdirmişdi. İndi Hikmətin yeganə problemi Polisə lazımi dərsi vermək idi.

Bir xeyli düşünəndən sonra süyürməni çəkib, xidməti telefonu çıxardı. Zəng edəcəyi nömrəni tapıb, telefonu qulağına apardı. Söhbət qısa çəkdi. Polis çalışdığı bölmədə işini davam etdirmək şərti ilə onun sərəncamına verilmişdi. Hikmətə lazım olan bu idi...

...İndi deyəcəksiniz ki, bütün bunlar uydurmadı. Nicatı zərərsizləşdirmək kimə lazımdır? Niyə onu öldürmək istəsinlər? Haqlısınız. Mən də düşünürəm ki, onu siyasi səbəblərə görə öldürməmək də olar. Romanın maraqlı alınması üçün öz ölümünü uyduran adamın məsələyə siyasi don geyindirməsi bir az məntiqlidir. Həm də hamının siyasətdən qorxduğu bir vaxtda, qəhrəmanımı bilərəkdən siyasiləşdirirəm ki, həyəcanlı olsun. Ümumiyyətlə, mənə irad-zad tutumayın. Roman mənimdir, özüm bilərəm!

Bir azdan gülmək istəyəcəksiniz, amma gülməyin. Romanın sonuna çox az qalıb. Siz hələ də israrla bu qaralamanı oxuyursunuz. Qısacası, sizə heyrət edirəm!

## 21

**"Qadınların saxlaya bildikləri yeganə sirr bilmədikləri sirdir"**

**Seneka**

Orxan Könülün son söhbətindən sonra uzun müddət düşünmüş, Könülün qardaşı Polisin təhdidləri ilə bağlı lazımi yerlərə məlumat vermək istəmişdi. Bütün bunlara müəllif kimi imkan verə bilməzdim. Bütün həyəcan, bütün qurulan planlar məhv olardı. Uzaqbaşı Polisi tutmaqla, işi sadə bir cinayət hadisəsi kimi çözə bilərdilər. Mən isə istəyirəm ki, mənim qəhrəmanım Orxan hər şeyi özü şəxsən çözsün.

Könül qardaşının Nicatı ölümlə təhdid etməsini gizli saxlamağı Orxandan xahiş etmişdi. Könül qardaşından, onun intiqamından qorxurdu. Yüngül həyat tərzi keçirməsini nə qədər gizlətməyə çalışsa da, qardaşı onun etdiklərindən xəbərdar idi. Nicatla görüşdüklərini qardaşına çatdıran adam, onun "pis yola" düşdüyünü də xəbərləmişdi. Könülün bütün yolları çıxmaza dirənmişdi. Yeganə çıxış yolu rəfiqələrinin də dediyi kimi ölkədən çıxıb getmək, bir daha buralara dönməmək idi. Sadəcə getməmişdən Orxana Nicatın ölümü ilə bağlı şübhələrini deməli idi. Bəs Könül gedəcəkdimi? Şəxsən mən Könülün heç yana getməyini istəmirəm. Onun haradasa yaxında, əlçatan olmasını istəyirəm.

...Yarıqaranlıq gecə klubunda masanın ətrafında üç nəfər oturub susurdu. Daha doğrusu danışmağa söz axtarırdılar. Könül əlindəki siqaret qutusu ilə oynayır, hərdən əlinin arxasıyla gözünü silirdi. Şahin siqareti siqaretə calamışdı. Orxan hərəkətsiz oturub gözlərini bir nöqtədən ayırmır. Könülün danışdıqları onları əməlli-başlı şoka sal-

mışdı. Könül qardaşı ilə Hikmətin qurduğu planlardan, Nicatın ölümünü necə hazırlamalarından ətraflı danışmış, Orxanın aylarla davam edən araşdırmalarını, ehtimallarını darmadağın eləmişdi. Könül Nicatın ölümündə təxminən kimin günahkar olduğunu bilsə də, aylarla bu sirri gizləmişdi.

Heç nə gözlədikləri kimi deyildi. Könül Nicatın öldürüləcəyini bilə-bilə heç nə etməmişdi...

– Özümdən qorxurdum Orxan, özümdən. Sən bilmirsən Hikmət necə qəddar və arxalı adamdır. Bir gecədə məni də, qardaşımın ailəsini də məhv edərdi. Mən onlara mane ola bilməzdim, başa düş!

– Heç olmasa Nicatı xəbərdar edərdin, ay vicdansız! Şahin əlindəki siqareti hirslə külqabıya basdı.*(Şahinin vicdan anlayışı qarşısında əllərim əsir. Allah, haqqı Şahinin vicdan haqqında düşüncələrinə də bir "Cart!!!"... Hələ ada baxın, Şahin! Yox bir qartal!)*

– Bacarmazdım. Çünki buna imkan yox idi. Əslində Hikmətlə qardaşımın mətbəxdəki söhbətini eşidəndən sonra Nicata neçə dəfə zəng elədim. Mesaj yazdım. Amma cavab gəlmədi. Evinə gedə bilməzdim. Hikmətin də, qardaşımın da ora gələcəyini bilirdim.

– Polisə xəbər verə bilərdin – , bu dəfə Orxan özündən çıxdı.

– Deyəsən siz məni başa düşmək istəmirsiniz. Axı bu barədə polisə məlumat verib, heç nəyə nail ola bilməzdim. Əlimdə heç bir fakt yox idi. Həm də qardaşım həmkarları ilə asanlıqla dil tapacaqdı. Qorxurdum, başa düşürsən? Neçə vaxtdır kiminsə məni izlədiyini hiss edirəm. Deyəsən səninlə görüşdüyümü, sənin bu söhbəti qurcaladığını bilirlər. Çox qorxuram, uşaqlar. Bircə bu xarabadan çıxıb gedə bilsəydim...

Şahin alnını ovuşdura-ovuşdura susurdu. Hər şey o qədər qarmaqarışıq və anlaşılmaz idi ki, olub-bitənlərdən baş çıxarmaq analitik qabiliyyət tələb edirdi.

Orxan da çıxılmaz vəziyyətdə idi. Hadisələrin bu cür inkişaf edəcəyi onun da ağlına gəlməzdi. Sözün düzü mən özüm də bilmirdim ki, dostumu belə çətin vəziyyətə sala bilərəm. Amma olan olmuşdu. Orxan dostunun intihar edib-etmədiyini araşdırdığı, intihar etmiş bir şairin psixoloji vəziyyəti ilə bağlı təhlillər apardığı halda, müəmmalı cinayət hadisəsinin içinə düşmüşdü.

Bir yandan da dostunun yazmaq istədiyi romanın detektivə çevriləcəyini düşünürdü. Heç vaxt ağlına gəlməzdi ki, xəfiyyə kimi hansısa bar küncündə oturub üstü açılmamış bir cinayətin detalları haqqında düşünsün. Amma hər şey qəfildən dəyişmişdi. Dostunun ölümü, Könülün söhbətləri, Şahinin ciddi şəkildə bu işlə maraqlanması, Elxanın tez-tez Türkiyədən zəng edib zəhləsini tökməsi Orxanı xeyli gərginləşdirmişdi. Artıq o da ölkədən çıxıb getmək, hansısa Avropa ölkəsində demokratiya nağılları dinləyə-dinləyə azad yaşamaq istəyirdi. Hər şey ustalıqla, peşəkarlıqla qurulmuşdu. İndi sadəcə əsərin son fəslini düşünməli, Nicatın ölümü ilə bağlı versiyanı dəqiqləşdirib söz verdiyi kimi yazıçı dostuna təqdim etməli idi. Amma onu Könülün taleyi, Şahinin nigarançılığı da düşündürürdü.

...Könülün ağlamaqdan gözləri şişmişdi. Yalvarıcı baxışlarla Şahinin üzünə baxıb getmək üçün icazə istədi. Şahin əli ilə Könülə gedə biləcəyini işarə elədi. Barın səsgücləndiricilərindən Beyonsun "Naughty Girl" mahnısı eşidilirdi. Şahin ritmə uyğun barmaqlarını masaya döyəcləyə-döyəcləyə Orxana baxırdı. Sanki bütün sualların cavabı susqun Orxanın gözlərinin içində idi...

...Yarıqaranlıq kafedə iki nəfər üz-üzə oturmuşdu. Gözlərindən çarəsizlik və inanmızlıq oxunan bu iki nəfərin çıxılmaz vəziyyətdə olduqlarını külqabıda dalbadal söndürülən siqaret kötüklərindən anlamaq mümkün idi. Artıq romanın hansı sonluqla bitəcəyi Orxana və mənə məlum idi...

# 22

**"Zəiflik – ölümdür"**
**Vivekananda**

Şahin sonuncu dəfə kəndə - Nicatın qəbrini ziyarət etməyə gedəndən sonra yolunu onun keçmiş həyat yoldaşının və qızının yaşadığı şəhərdən salmışdı. Nicatın keçmiş həyat yoldaşı Türkan yenicə ailə qurmuşdu. Şahin bütün bunları nəzərə alaraq Türkanla ayaqüstü, dörd-beş dəqiqəlik söhbət etmiş və anlamışdı ki, Nicatın yoxluğu artıq Türkan üçün heç nə ifadə etmir. O yenicə qurduğu ailəsində rahat və xoşbəxt idi. Nicatın yadigarı - qızı isə hər şeydən xəbərsiz, Bakıda işləyən atasının yolunu gözləyə-gözləyə böyüyürdü. Artıq atasının üz cizgilərini də yadından çıxarmışdı balaca Ayan...

Türkan isə yeni ərinin qayğıkeşliyindən ağız dolusu danışmış, hər şeyin yolunda getdiyini dəfələrlə təkrar etmişdi. Şahin başa düşürdü ki, Nicatın ölümü ilə heç kəsin həyatı məcrasından çıxmayıb...

Qardaşları işində-gücündə, itkidən beli bükülmüş atası isə taleyi ilə barşıb təsərrüfatı, ailənin qayğıları ilə məşğul olmaqda... Bütün bunları Orxana danışanda, Orxan kövrəlmişdi. Həssas, hamının dərdini öz dərdi bilən Nicatın belə tez unudulması onu sarsıtmışdı.

...Nədənsə bu məqamda Şahinə yazdığım ilk məktubu xatırlayıram. Məktub yazmağı sevməsəm də qəfildən Şahinə yazmağa qərar vermişdim. İndi istəyirəm ki, Şahin bu kədərli anında həmin məktubu tapsın. Məncə Şahin mənim nə istədiyimi anlayır. Və deyəsən artıq o məktubu oxuyur.

... 3-4 ilin söhbətidir, təqvimə qalın, qara hərflərlə yazılan günlərin birində (ya 20 yanvardı, ya da 26 fevral) şəhər kənarındakı hüzursuz və narahat hotel nömrəsində bir həyat qadınına aşiq oldum. Bəzən insan gərəksiz vaxtlarda, gərəksiz insanlara aşiq olur. İlk dəfə o gecə anladım ki, həyatda bəzi şeylər inadla üst-üstə düşür...

Dəlicəsinə aşiq olduğum o gözlərin içindəki qəribə soyuqluğu anlayanda səhər açılmış və sərxoşluğum keçmişdi. Özünə  yoldaş tapmadığı üçün həyətdəki maşınları mismarla cızan 5-6 yaşlı uşağın həyəcanı vardı içimdə. İzah olunmaz duyğular içərisində yastığa söykənib bir siqaret yandırmışdım və onun gedişini seyr etmişdim. Özüylə bərabər otel otağındakı qəribə qoxunu da çəkib aparmışdı arxasınca. Və o gün oteli tərk etmədən öncə, yataqdaca bir ayrılıq şeiri pıçıldamışdım...

Mən belə səfeh adamdım, dostum...

Sonra mən tez-tez aşiq olmağa və iş yerlərimi dəyişməyə, özümü kəşf etmək üçün çabalamağa başladım. Yenidən işsizlik və yenidən narahat günlər başladı həyatımda. Hər şey yolundaykən nələrinsə nizamsız olduğunu anlamağa başladım. Və hər dəfəsində getdim... Ya iş yerimdən, ya da aşiq olduğum qadının həyatından...

Mən getməyə alışmışdım, dostum...

Hər dəfə olduğum yeri tərk edəndə gizli bir əlin məni tutub saxlamasını istədim, amma olmadı, saxlamadı...Bir gün barmaqlarımın arasında sönən siqareti külqabına atanda

anladım ki, öz həyatımı başqalarının uydurduğu bir əhvalat kimi yaşayıram. Elə o gün  də uydurma əhvalatları romana çevirməyə qərar verdim.

Tezdən oyanıb küçə lampalarından qaranlıq otağa süzülən işığın yaratdığı alatoranlıqda əl havasına axtardığım siqareti tapanda anladım ki, həyatım alatoranlıqda əl havasına axtarışla keçib.

İşsiz-gücsüz, avara günlərimin birində evli bir qadına aşiq oldum. Bu sevdanı içimdə dəfn edib, yas saxlamağa hazırlaşdığım anda həyatımda ilk dəfə bir qadın mənə eşq elan elədi. Sonrası hər aşiqin yaşaya biləcəyi ümidsiz macəra. Həyatımda ilk dəfə bir qadına bu qədər bağlandım. Qadağalar, tabular, mental dəyərlər, günahlar və olmazlar vecimə deyildi. Günlər su kimi axıb keçərkən həyatımda ilk dəfə qadın xəyanəti ilə üz-üzə qaldım. Bağışladım...və qısa bir müddət ayrı qaldım...

Onsuz keçirdiyim hər gün özümü yeyib-bitirdim. Təsəllini içkidə tapdım. Sərxoş olduğum gecələr xaricində rahat və bəxtiyar günüm olmadı. Gözümü açıb yumunca daha bir il keçdi həyatımdan, daha bir il yaşlandım.

İlk dəfə bir qadının geri dönməsi üçün göz yaşı töküb yalvardım. Qarşıda məni hansı faciənin gözləməsindən xəbərsizdim...

Yaxın günlərin söhbətidir. Təqvimə qalın, qara hərflərlə yazılan günlərin birində (ya 20 yanvardı, ya da 26 fevral) şəhərin hüzursuz və ümidsiz arxa küçələrindəki o məşum evdə sevdiyim qadının necə həyat qadınına çevrildiyini anladım. Kresloya çöküb bir siqaret yandırdım. Və ilk dəfə bir qadının həyatımdan sivişib getməsini yaşlı gözlərlə izlədim. Getdi və həyatıma dolan qoxusunu, baxışlarını, bədənini, o dəlicə sevişmələrimizi də özüylə apardı...

İlk dəfə o gecə hara getdiyimi bilmədən saatlarla dolaşdım küçələri. Heç kəsin səmaya baxmadığı xəyanət qoxulu şəhərdə, bütün ümidlərimi şüşə kimi daşa çırpıb çilikləyən o qadının baxışlarını axtardım səmada.

O gecə başa düşdüm ki, insan iztirablarını dilə gətirə bilmədiyi üçün şair olur. O gecə anladım ki, daha məni heç kəs aldada bilməyəcək. İnandım ki, bədbəxt adamları – həyatdan heç bir gözləntisi olmayan ümidsizləri aldatmaq mümkün deyil. Və bütün yaşadıqlarıma rəğmən ayaqda qalmağımın yeganə səbəbini-içimdəki sonsuz sevgini bəsləyib böyütməyə qərar verdim...

...Həyat öz axarında davam edirdi. Dostları artıq çox nadir hallarda gənc yaşında intihar etmiş şairi xatırlayırdılar. Hərə bir informasiya agentliyində, bir qəzetdə, bir nəşriyyatda başını qatırdı. Doğrudan da torpağın üzü soyuqmuş. Nicatın ölümünə göz yaşı tökən, nekroloqlar yazan qələm dostları öz həyatlarına qaldıqları yerdən davam edirdilər. Bir də nə edə bilərdilər ki? Bircə Elxan Daşdəmir dözməyib ölkədən getmişdi. Orxana hər dəfə zəng edəndə fəlsəfi-psixoloji-detektiv roman yazdığını deyir, həvəslə romandan, romandakı qəhrəmanlardan danışırdı. Hər dəfə Orxana eyni şeyi deyirdi: "Doktor, bu romanın son fəslini yazmağa sən kömək edəcəksən". Şahinə bu barədə danışanda o da gülümsünüb, Elxanı lağa qoymuşdu:

– Həqiqətən də əla ideyadır. Hətta mən təklif edərdim ki, ümumiyyətlə romanı özün yazasan, doktor. Elxan müəllim feysbukda qızlara girişməkdən belə sadə işlərə vaxt tapa bilmir.

...Nicatın ölümündən artıq bir il keçirdi. Ədəbiyyat saytları Nicatın şeirlərini yayımlayır, haqqında yazılan ya-

zıları yenidən çap edirdi. Orxan bütün prosesləri öz müşahidələri və araşdırmaları əsasında Könülün sonuncu söhbətinə uyğunlaşdıraraq qələmə almışdı. Şahin hərdən Orxanı çay içməyə dəvət edir, saatlarla söhbətləşir, hərdən Nicatı da xatırlayırdılar. Nicat yavaş-yavaş unudulurdu...

...Könül yenicə tanış olduğu deputat oğluyla şəkillərini feysbukda paylaşır, Hikmətə də, mənə də acıq-qıcıq verirdi. Rusiyaya dayısının yanına köçmək arzusunun üstündən biryolluq xətt çəkmiş, taleyiylə barışmışdı.

Könül əslində taleyiylə küsülü-zad deyildi. İstədiyi, arzuladığı həyatı yaşamışdı həmişə. Ümumiyyətlə qadınlar heç vaxt taleyi ilə barışmır, qəzavü-qədərlə məzələnirlər. O da oxşar həyat tərzini seçən bütün qadınlar kimi taleyi ilə oynamağı, məzələnməyi seçmişdi. Kimdənsə, hansısa naməlum səbəblərə görə intiqam almağa çalışırdı...

Polisin vəzifəsini hələ böyütməmişdilər. Deyəsən heç vaxt da böyütməyəcəkdilər. Arvadı yenə də yay tətilində Antalyaya getmək üçün evdə qanqaraçılıq salır, Polisin həyatını zindana çevirirdi. Hikmət hərdən Polisi yanına çağırıb danlayır, Könüllə bağlı suallar verib, aşağılayırdı. Elxan Türkiyədə nazəndə bir yunan qızı ilə tanış olub, yunan dilini öyrənməyə başlamışdı. Həyatı yoluna düşmüşdü. Növbəti romanını yazır, tezliklə çap etdirəcəyi şeirlər kitabının redaktəsi ilə məşğul olurdu. Qadınlar və ədəbiyyat onun sevimli məşğuliyyəti idi.

Ümumiyyətlə tüpürüm onun ədəbiyyatına da, qadınlarına da, düşüncəsinə də. Belə də yazıçı olar?

Bir sözlə hamının həyatı öz qaydasındaydı.

Orxana tez-tez mesaj yazıb sonluqla bağlı təkliflərini öyrənirdim. Orxan işində-gücündə olsa da, Nicatın ölümü ilə bağlı versiyanı düşünür, onun öldürülməsi səhnəsini gözünün qabağında canlandırmağa çalışırdı... Zarafat deyil, ömründə ilk dəfə hansısa cinayət hadisəsi ilə bağlı versiyanı bədiiləşdirəcəkdi. Romanın bütün taleyi, yazıçı dostunun bütün karyerası onun analitik təfəkküründən asılı idi.

... Bir gün hökmən bu səhnəni yazacaq, Nicatın ölümü haqqında öz versiyası ilə Hikmətin də, Könülün də, Polisin də düzənini pozacaqdı. Ancaq hələ də səbirlə zamanını gözləyirdi.

# 23

**“Əslində hər şey çox sadədir...”**

**Nicat Aslan**

Orxan səbrlə e-maili açıb əvvəlcə poçt qutusunu yoxladı. Sonra “Mesaj yaz” bölümünə girib Elxan Daşdəmirin, Könülün, Hikmətin, Şahinin, Nicatın yazıçı dostlarının və kriminal müxbir Fuadın, ən önəmlisi romanın müəllifinin e-maillərini ünvan yerinə qeyd etdi. Sonra səbrlə “yüklə” düyməsini sıxıb kompüterdən “shairin_olumu” faylını əlavə elədi. Fayl tam yükləndikdən sonra göndər düyməsini sıxıb, məktubun göndərilməsi barədə mesajı gözlədi. Birinci olaraq Hikmətin e-mailindən avtomatik cavab gəldi:

*“Sizin ismarıcınız Hikmet Vatansevere çatmışdır. Tezlikle mesajınıza cavab verilecek. Tanrı Türkü qorusun!”*

Orxan digər mesajları gözləmədi. Komputeri söndürüb, bir siqaret yandırdı. Pəncərənin qarşısına keçib sayrışan ulduzlara baxmağa və dostu Nicatı düşünməyə başladı...

Aylardır beynini məşğul edən bu məşum hadisədən qurtulmasına açıq-aydın sevinirdi. Nicatın ölümündəki gizli məqamları tapmaq, araşdırmaq, aylarla onu yoran bu hadisədən biryolluq xilas olmaq ona asan başa gəlməmişdi. Əsəbləri pozulmuşdu. Həyatı düzənindən çıxmışdı. Yaşıdları çoxdan ailə-uşaq sahibi olsa da, Orxan tələsmirdi. “Hər şeydən öncə, tanış bir psixiatr yanına getməliyəm” deyə öz-özünə düşünürdü. Dostunun ölüm hadisəsini araşdırdığı aylar ərzində əsəblərini qorumağa çalışsa da, daxili stabilliyi

pozulmuşdu. Qarşısına çıxan hər qadına potensial xəyanətkar kimi baxırdı. Xüsusən Könülün düzənsiz, heç bir izahı olmayan xəyanətləri onun düşüncələrini darmadağın etmişdi.

...Orxanın göndərdiyi e-mail Hikmətdən də əvvəl mənə çatmışdı. Belə də olmalıydı. Çünki romanın taleyi məni hamıdan çox maraqlandırırdı. Bir ildən çox idi ki, dünyasını dəyişmiş dostumun həyatından bəhs edən romanı tamamlamağa çalışırdım, ancaq iş-güc, gündəlik qayğılar və Orxanın apardığı araşdırma romanı tamamlamağa imkan vermirdi. Günün böyük hissəsi heç bir mənası olmayan gündəlik yazılara xərclənirdi. Bu qədər qayğının içində roman yazmağa girişməyim, hətta günlərlə bu barədə düşünməyim qəhrəmanlıq sayıla bilərdi.

*...Sözün düzü burada heç bir qəhrəmanlıq yoxdur. Heç kəs məndən roman yazmağı xahiş etməmişdi. Yazıçı qazanclı işlərlə yox, roman yazmaqla məşğul olursa, bu onun öz günahıdır. Heç kəs onun qarşısını kəsib, bizneslə məşğul olmağına, böyük pullar qazanmağına mane olmurdu. Yəni gəlin açıq danışaq, yazıçıları qəhrəmana çevirməyə ehtiyac varmı? Məncə yoxdur...*

Mesajı səbrsizliklə açıb, bir siqaret yandırdım. Yazıya klikləyib mətbəxə cumdum. Özümə tez-bazar acı qəhvə hazırlayıb geriyə qayıtdım. İndi oxumaq olardı...

Aylarla üzərində çalışdığım roman çox sadə, heç kəsin gözləmədiyi sonluqla bitəcəkdi. Orxan hər şeyin bu qədər sadə olacağına heç vaxt işarə etməmişdi. İndi oturub yazdıqlarına göz gəzdirdikcə, hər şeyin belə bəsit və sadə bitməsinə təəssüf edirdim. Az qala iki il üzərində işlədiyim yazıya nəhayət ki, Orxanın sonluğu ilə nöqtə qoyacaqdım.

Bütün ağrılar mənə, intihar etməyi tez-tez düşünən adama doğma idi. Bütün bunları içimdən keçirmiş, xəyalımda özümü öldürmüş, dostlarımı və sevgilimi buna inandırmışdım. Təkcə Könül bilirdi yaşadığımı. Hə, Könül cin-şeytanla yox, mənimlə sevişmişdi. Orxan boş yerə bu məsələnin üstündən ötüb keçməmişdi. Doğrudan da heç bir paranormal hadisə baş verməmişdi.

İntihar... Bu mənim tez-tez düşündüyüm və cəsarətsizlikdən ata bilmədiyim vacib addım idi. Bəli, bütün düşündüklərimdən sonra bu addımı atmağı vacib hesab edirdim. Amma gördüyünüz kimi, intihar bu qədər mənasız və maraqsız imiş...

# 24

**“Aldadılmışların qisası dəhşətli olur”**

**Melenad**

## “Şairin ölümü”

“Nicat qapının zənginə diksindi. Əlindəki pivə şüşəsini kənara qoyub ağır-ağır kreslodan qalxdı. Qapını açdı. Gələnlər tanış idi. Könülün əri Hikmət və qardaşı Polis. Kənara çəkilib onlara yol verdi. Hikmət əvvəllər də bir neçə dəfə onun yaşadığı birotaqlı evə ərklə daxil olmuşdu. O, kreslonun üstündəki pal-paltarı kənara itələyib özünə yer elədi. Polis stul çəkdi.

Nicat qonaqlarını yarım saat idi ki, gözləyirdi. Gecə saat ikidə Hikmət zəng eləmişdi ki, “babat “şey” var, təksənsə gəlim dartaq”. Uzun müddət Könüllə olan münasibəti ucbatından Hikmətlə görüşməsə də gəlməyinə etiraz etmədi. Amma Polisi görəndə qanı qaraldı. Hikmət yolüstü növbədə olan dostunu da özü ilə götürmüşdü. Bu nə qədər mümkünsüz görünsə də, Hikmət üçün Polisi növbədən ayırmaq problem deyildi. Şair isə onun nazlı-qəmzəli arvadı ilə keçirdiyi gecəni xatırladı. Sonra paltar şkafının aşağı gözündəki “kolleksiyası” yadına düşdü. Onun qara qadın corablarından ibarət “kolleksiyası” dost-tanışına yaxşı məlum idi. Hərdən qonaq gələn dostları zarafata salıb, Nicatın intim “kolleksiyasına” baxmaq istəyir, Nicat da hər dəfə bir bəhanə ilə onların başını yozurdu. Bu “kolleksiyada” müxtəlif qoxulu və müxtəlif ölçülü corablar səliqə ilə yığılmışdı...

“Gərək çox çəkməyəm”-Nicat öz-özünə düşündü. “Bu cındırlar mən yatandan sonra evi eşələyib corabları görsələr, heç yaxşı olmaz.”

Hikmət Nicatla hal-əhval tutub etirazçı gənclərin problemlərindən, həbs olunan dostlardan danışdı. Gənc fəallarının ədalətsiz həbsindən, şərlənib həbs olunan siyasi fəallardan, yeni şeirlərdən danışdılar. Söhbət içməyə və çəkməyə zəmin yaradırdı. Hikmət hər zaman hazırlıqlı və ehtiyatlı idi. Görüşə əliboş gəlmək onluq deyildi. Əvvəlcə cibindən çıxardığı balaca viski şüşəsindən Nicata, sonra da Polisə və özünə süzdü. Hikmət dikələnə qədər Nicat viskini başına çəkib, əlinin arxasıyla ağzını sildi.

– Pis deyil, bəy.

– Təmizdir. Burda doldurulanlardan deyil.

– Hə, dadından hiss elədim ki, siz burjuyların içdiyindəndir.

– Yaxşı görək, solçuluğun tutmasın.

– Ürək solda döyünür.

– Gülüşdülər.

Hikmət hər dəfə Nicatın sosializmlə bağlı söhbətlərinə sataşırdı. Sovet dövründə uşaq evində çəkdiyi əziyyətlərə görə sovet rejimi, sosializm ona qorxulu yuxu kimi görünürdü.

Polisin mətbəxdə telefonla danışmasından istifadə edən Hikmət Könülün etibarsızlığından gileylənirdi. Gözlənilmədən Hikmət söhbəti xəyanət, ayrılıq mövzusuna gətirdi:

– Həyatdan bezmişəm, şair. Həyat gözümdən düşüb. Nə işim, nə qazancım, nə də yaxın ətrafım mənə toxtaqlıq və rahatlıq verir. Gecə-gündüz intihar barədə düşünürəm.



Könülün gedişi də məni yaman yıxdı-, Hikmət Polis eşitməsin deyə səsini qısdı.

Nicat söhbətin bu yerə gəlib çıxacağını gözləmədiyi üçün bir müddət susdu. Əmin idi ki, Hikmətin olanlardan xəbəri yoxdur. Elə isə bəs niyə Könüldən söz saldı? Nicat qeyri-iradi əlini viski şüşəsinə apardı. Stəkanını doldurub, birnəfəsə başına çəkdi:

– Hikmət, bilirsən...bilirsən...

– Bilirəm, şair, bilirəm. Sən də az xəyanət görməmisən. Səni də çox aldadıb qadınlar.

– Yox. Yoooox...Elədir-, Nicat özünü itirdi.

Hikmət bir siqaret yandırıb əlləri ilə üzünü tutdu. Çiyinlərinin qalxıb-enməsindən ağlamağı bəlli olurdu. Nicat deməyə söz tapmırdı. Bir ildir ki, Hikməti ağladan o qadınla məhz bu evdə, bu otaqda dəfələrlə sevişmişdi. Evin hər nöqtəsində, hər guşəsində Könüldən bir nişanə vardı. Hikmət bütün bunları görməyəcək qədər laqeyd və diqqətsiz ola bilməzdi. Nicat özünü toparlamalıydı. "Yox, Hikmətin heç nədən xəbəri yoxdur" deyə düşündü öz-özünə. Hikmət göz yaşlarını əlinin arxasıyla silib, siqaretin acı tüstüsünü ciyərlərinə çəkdi.

– Bilirsən, şair ölüm necə gözəldir? Bütün əzblardan, bütün xəyanətlərdən yeganə qurtuluş ölümdür...Ölüm xilaskardır şair, xilaskar!

Hikmət getdikcə səsini qaldırırdı.

– Yandır Hikmət, yaşamaq gözümdən düşüb. Mən də bir gün asacam özümü, qardaş...

Polis otağa keçəndə Nicat ağzına gələni danışır, Hikmətlə birlikdə intihar etmək barədə bərk mübahisə edirdilər. Hikmət ayıq olsa da, dayanmadan ölümdən, intihardan danışırdı:

– Gəl, asaq özümüzü, şair. Ya gözəl bir qızın hörüklərindən, ya da, cəhənnəm heç olmasa sənin kolleksiyandakı corablardan intihar kəndiri düzəldək özümüzə...

– Corab, corablar....c...Nicatın dili artıq söz tutmurdu.

– Hə şair, sənin yığdığın qadın corabları bizim üçün son şans olsun. Ya da kəsək damarlarımızı. Qoy bu murdar qanımız axsın, axsın və biz əbədi xoşbəxt olaq....

Nicat birtəhər ayağa qalxıb hamama keçdi. Güzgüdə qıyılmış gözlərinə baxdı. "Yamayka" onu dəli eləmişdi. Güzgünün qabağındakı ülgücü əlinə alıb dörd-beş dəfə biləyinə çəkdi.

Kəsiklər o qədər də dərin olmasa da, ağlını itirmək üzrə olan Nicat, hamamın soyuq döşəməsinə çökdü...

Hikmət Nicatın hamamda ləngiməyindən istifadə edib otağı eşələməyə başladı. Paltar şkafının süyürməsini çəkəndə özünü saxlaya bilməyib onun ünvanına çoxmərtəbəli bir söyüş göndərdi. Polis tez-bazar Hikmətin başının üstünü kəsdirdi:

– Ay blyat, bu nədir?

Hikmət ikrahla üz gözünü turşudub, Polisi ələ saldı:

– Bacının corablarıdır, yaxşı-yaxşı bax.

Polis dəli kimi bağırdı. Qəfildən Hikmətin boğazından yapışdı. Himət müqavimət göstərmədən tərs-tərs Polisin üzünə baxdı. Polis özünü toparladı. Hikmət nifrətlə Polisin sinəsindən itələdi:

– Kişilənmə əəə...

Polis Hikmətin kimliyini sanki yenidən dərk elədi. Özünü ələ alıb key-key Hikmətin üzünə baxmağa başladı. Hikmət üz-gözünü turşudub, süyürmədəki corabları gözdən keçirməyə başladı. Şübhəsiz ki, Könülə aldığı bahalı qara corablar da burda idi. Polisə bıçaq soxsan qanı çıxmazdı. Sanki böyük bir qaya parçasının altında qalıb çabalayırdı. Nifrət, qəzəb, utanc hisləri bir-birinə qarışmışdı. Özünə yer tapa bilmirdi. Deyəsən corabların içində arvadının da corablarını tanımışdı...

Hər şey plan üzrə gedirdi. Nicat Hikmətin düşündüyündən daha çox sərxoş olmuşdu. Nicat rezin əlcəkləri cibindən çıxarıb Polisin üstünə atdı:

– Bacının corablarından yaxşı bir kəndir hazırla! Mən də gedib Şanlı şairimizi hamamdan çıxarım.

Hikmət Nicatın haldan düşmüş bədənini birtəhər yerdən qaldırdı.

– Şair, biləyini nə tez kəsdin? Biz ki birlikdə intihar edəcəkdik?

– Edəəə....cəkdik? Yox, edək!

– Edək, şair, edək. Amma gələcək nəsillər üçün, yaxınlar üçün bir məktub da yazaq. Qanla məktub! Şairin qanıyla yazılmış məktub! Sənin hesabına tarixə düşəcəm, şair...

***

– Eh şair, şair... Bir gün səninlə yan-yana dayanıb intihar kəndirini boğazıma keçirəcəyimi düşünsəm, gülərdim. Könül məni aldatdı, elə sən də. Görürsən, hətta dostum Polis də bizim intihar edəcəyimizi eşidən kimi aradan çıxdı. Biz tənha adamlarıq, şair...Kimsəsiz adamlarıq...

Nicat cavab verəcək halda deyildi. Dili söz tutmurdu. Boğazındakı kəndirdən gələn qoxu onu çox uzaqlara aparmışdı.

Hikmət boğazından "kəndir"i çıxarıb bağladığı budaqdan açdı. Aşağı düşüb Nicatın ayağının altındakı kətilə bir təpik ilişdirib, ikrahla onun kəndirdə çapalamağını müşahidə etməyə başladı. İntiqam alınmışdı...

Nicatın kəsik qollarından hələ də ılıq qan damcılayırdı...

**Bakı-Oğuz-İstanbul-Bakı**
**Aprel 2014**

---


**Cəlil Cavanşir**
*(Hacıyev Cəlil Cavanşir oğlu)*

**"Qadın corabları"**
**roman**

Çapa imzalanıb: 07.07.2014
Formatı: 70x100 1/8. Ofset çapı
Həcmi: 21
Sifariş № 019

nəşriyyatı
mətbəəsində çap olunub

**Qiymәti: 4 manat**